Xalqın qəzeti!
# Xalq qəzeti
№ 50 (31019) 18 mart 2026-cı il, çərşənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Qarabağ ümummilli quruculuq cəbhəsidir



**Azərbaycan Vətən müharibəsində torpaqlarını işğaldan azad edərək tarixi qələbə qazanıb. Bundan sonra azad olunmuş ərazilərdə yeni mərhələ başlayıb. Bu mərhələ bərpa və quruculuq işləri ilə xarakterizə olunur, dayanıqlı sülh və inkişafı hədəfləyir və bir çox ölkələr üçün nümunə sayılan Böyük Qayıdış proqramı ilə səciyyələnir.**

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək müəyyən etdiyi beş Milli Prioritetdən biridir. Bu prioritetlər əsasında hazırlanan "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ölkənin yeni inkişaf mərhələsində əsas hədəflərə çatmasına xidmət edir. Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə strategiyanın icrasını təmin etmək məqsədilə "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış üzrə I Dövlət Proqramı"nın Fəaliyyət Planı təsdiqlənib. Bununla da postmünaqişə dövrünün institusional əsası formalaşdırılıb.

*(ardı 7-ci səhifədə)*

# "Miatsumsuz Ermənistan" və məğlub ölkədə parlament seçkiləri

## *Yaxud "3 saylı inqilab"ın gələcək naminə keçmişlə mübarizə formulu*

**Ermənistanın baş naziri Nikol Paşinyan ötən həftə özünün "Facebook" sosial şəbəkəsindəki canlı yayımı zamanı bir çox mətləblərə toxundu. Onun üzərində dayandığı ən başlıca məqam "Miatsum"suz Ermənistan"dır. Deməli, müstəqillik illərində ilk dəfə olaraq Ermənistandakı bir siyasi qurum seçkiyə qarşısına Qarabağ avantürasını hədəf qoymadan qatılacaq. Şübhəsiz, bu, yenilikdir.**

Əlbəttə, yenilik Nikol və komandasının bu il iyunun 7-də keçirilməsi nəzərdə tutulan parlament seçkilərində uğur qazanacağı təqdirdə gerçəkləşəcək. Bir çox siyasi ekspertlər isə prosesin ölkədaxili əhəmiyyəti, habelə, Cənubi Qafqaza təsiri haqqında çoxsaylı fikir və mülahizələr səsləndirməkdədirlər və bu mənada, Rusiyanın siyasi şərhçilərinin düşüncələri maraqlıdır.

*(ardı 4-cü səhifədə)*



## "Hörmüz böhranı" transatlantik gərginliyi dərinləşdirir




Səhifə ⇨ 3

## Avropa İttifaqının Ermənistan üçün "seçki çətiri"



Səhifə ⇨ 5

## Yaxın Şərqdə savaş qlobal təhlükəsizliyi təhdid edir



Səhifə ⇨ 15

## "Asiya nəhəngi" ilə dərinləşən əlaqələr



Səhifə ⇨ 6

## Xəzər sahilində çağdaş ali təhsil ocağı



Səhifə ⇨ 11

## Sosial yayımlarda saxta təqdimatlar



Səhifə ⇨ 12

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287; 2025, № 3, maddələr 224, 227, № 6, maddə 552, № 8, maddə 759) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 5.4-cü bəndinin birinci cümləsində “beş” sözü “altı” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 17 mart 2026-cı il***

# Saxta məlumat yayanlar həbs ediləcək

## *Uşaqlara cismani əzab verilməsi və dilənçiliyə görə də cəzalar sərtləşdirilir*



**Dünən Milli Məclisin növbəti plenar iclası keçirildi. Sədr Sahibə Qafarova çıxışında Novruz və Ramazan bayramları münasibətilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından xalqın və dövlətin bu günü və sabahı naminə fəaliyyətlərində yeni uğurlar arzuladı. Spiker deputatlara İlham Əliyevə və Mehriban xanım Əliyevaya parlament adından təbrik məktubu göndərilməsini təklif etdi. Təklif parlamentarlar tərəfindən alqışla qarşılandı.**

Daha sonra cari məsələlər ətrafında çıxışlar edildi. Deputat Razi Nurullayev bildirdi ki, xüsusilə ağır xəstə insanlar və müharibə veteranları əlillik təyinatı ilə bağlı ciddi problemlərlə üzləşirlər: “Vətəndaşlar tibbi sənədlərin toplanması, müxtəlif instansiyalara müraciət edilməsi, elektron sistem vasitəsilə ərizələrin göndərilməsi və qərarların verilməsini uzun müddət gözləmək məcburiyyətində qalırlar. Bəzi hallarda isə qərarla razılaşmayan vətəndaşlar prosesi yenidən başlatmaq məcburiyyətində qalırlar”. R.Nurullayev vurğuladı ki, bu sahədə mövcud çətinlikləri aradan qaldırmaq vətəndaş məmnuniyyətini artırmaqla bərabər, həm də sosial müdafiə sisteminə ictimai etimadı gücləndirəcək.

Çıxış edən Qüdrət Həsənquliyev bir neçə gün öncə Bakı səmasında dronların uçması ilə bağlı məsələni gündəmə gətirdi. O qeyd etdi ki, bu kimi hallarda ictimaiyyət zamanında məlumatlandırılmayanda istər-istəməz müxtəlif şayiələr yaranır. Partiya sədri qeyd etdi ki, şayiələrin böyük bir qismi çox təəssüf ki, dövlət orqanlarının gözdən salınmasına yönəlib. Sonda deputat Milli Məclisin Aparatına Müdafiə Nazirliyinə çıxışı ilə bağlı sorğu göndərilməsini xahiş etdi.

Deputat Vüqar Bayramov çıxışında bir sıra mühüm sosial-iqtisadi göstəriciləri diqqətə çatdırdı: “Hazırda Azərbaycanda 1 milyon 99 min pensiyaçı qeydiyyatdan keçib və bu ölkə əhalisinin 10,7 faizi deməkdir. Pensiyaçıların 65 faizi yaşa görə pensiya alır. Bundan əlavə, 2025-ci ildə pensiya məbləğləri 9,1 faiz artaraq 541,6 manata çatıb. Yaşa görə pensiya məbləğində 8,9, əlilliyə görə pensiya məbləğində 8,7, ailə başçısını itirməyə görə pensiya məbləğində isə 9,4 faiz artım qeydə alınıb. Aylıq sosial müavinət alanları sayı 4,1 faiz artıb. Hazırda 472 min vətəndaşımız aylıq müavinət alır”.

* * *

Daha sonra gündəlikdəki məsələlərin müzakirəsinə keçid edildi. İlk olaraq "Müstəqil Dövlətlər Birliyinin (MDB) İcraiyyə Komitəsi haqqında Əsasnamə"yə dəyişikliklər edilməsinə dair Protokol"una xüsusi qeyd-şərt nəzərə alınmaqla baxıldı. Qeyd-şərtə əsasən, 2000-ci il 21 iyun tarixli Protokol ilə təsdiq edilmiş sənəd dövlətlər və digər beynəlxalq hökumətlərarası təşkilatlarla siyasi əməkdaşlıq və qarşılıqlı fəaliyyət məsələlərində Baş katibin MDB-nin sahəvi əməkdaşlıq orqanlarının işini əlaqələndirmək səlahiyyəti istisna olmaqla təsdiq edilir. Sənəd səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edildi.

"Yol hərəkəti haqqında" qanuna təklif edilən yeni dəyişikliklərə əsasən isə, dayanma və ya durma qaydalarının, parklanma qaydalarının pozulmasına görə İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada tərtib edilən inzibati xəta haqqında qərarın surətinin nəqliyyat vasitəsinin ön şüşəsinə qoyulması tələbi aradan qaldırılır. Bildirildi ki, bu sənədlərin çatdırılması real vaxt rejimində həyata keçirildiyi üçün kağız formatın aradan qalxması zərurətindən yaranıb. Müzakirələrdən sonra səsverməyə çıxarılan layihə bir oxunuşda qəbul edildi.

Bundan başqa, yerin təkindən istifadə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə "Yerin təki haqqında", həmçinin qadın hərbçilər üçün müddətdən artıq həqiqi hərbi xidmət (MAXE) müddətinin 3 ildən 6 ayadək azaldılmasını "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlara edilən dəyişiklik layihələri üçüncü oxunuşda qəbul edildi. Əmək Məcəlləsində və “Təhsil haqqında” qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda təsdiq edildi. Layihəyə əsasən, Elm və Təhsil Nazirliyində olduğu kimi, Mədəniyyət Nazirliyi sisteminə daxil olan dövlət müəssisələrində də müəllimlərin biliyi attestasiya qaydası ilə yox, sertifikasiya imtahanı ilə müəyyən ediləcək.

“Mədəniyyət haqqında” yeni qanun layihəsində işlədilən “mədəni və yaradıcı sənaye” termini ətrafında geniş polemika yarandı. Deputatlar Erkin Qədirli, Rafael Hüseynov, Hikmət Babaoğlu və Fəzail İbrahimli bu ifadənin həm dil normalarına, həm də məntiqə uyğunsuzluğunu qeyd etdilər. Xüsusilə “mədəni sənaye” birləşməsinin sanki “qeyri-mədəni sənaye” anlayışının mövcudluğu təəssüratını yaratdığı, terminin ingilis dilindən uğursuz kalka olduğu vurğulandı. Mədəniyyət nazirinin müavini Sədaqət Yusifova bu anlayışın beynəlxalq metodologiyaya əsaslandığını və artıq bir çox dövlət proqramlarında təsbit olunduğunu diqqətə çatdırdı. Nazir müavini vurğuladı ki, termində dəyişiklik edilməsi digər normativ aktların da yenidən işlənməsi zərurətini yarada bilər, lakin ümumilikdə qanunvericilik texnikasının təkmilləşdirilməsinə ehtiyac var.

Daha sonra Cinayət və Cinayət-Prosessual Məcəllələrinə, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Media haqqında” təklif edilən dəyişikliklər müzakirəyə çıxarıldı. Layihəyə əsasən, şəxsin razılığı olmadan onun görüntüsü və ya səsindən istifadə etməklə reallığı əks etdirməyən (deepfake) materialların hazırlanması və yayılması 3 min manatdan 7 min manatadək cərimə, ictimai işlər və ya 3 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq. Əgər bu əməllər qabaqcadan əlbir olan qrup tərəfindən, şəxsin şərəf və ləyaqətini ləkələmək məqsədilə və ya xidməti fəaliyyəti ilə bağlı törədilərsə, cəza müddəti 3 ildən 5 ilədək artırıla bilər. Layihədə pornoqrafik və ya seksual məzmunlu saxta materialların hazırlanması daha ağır sanksiya ilə – 3 ildən 7 ilədək azadlıqdan məhrumetmə ilə xarakterizə olunub. Eyni zamanda, süni intellekt texnologiyaları ilə hazırlanmış hər bir audio-vizual material kütləvi nümayiş etdirildikdə, onun süni şəkildə yaradıldığını aydın göstərən xüsusi nişanlanma ilə təmin edilməsi məcburi tələb kimi müəyyən edilir. Bu qaydan pozan şəxslər isə 80 manatdan 150 manatadək cərimə ediləcək. Layihə səsverməyə çıxarılaraq ilk oxunuşda qəbul edildi.

İnzibati Xətalar Məcəlləsinə genişmiqyaslı yenilikləri nəzərdə tutan dəyişikliklərə əsasən, valideynlər, habelə uşaqlara nəzarət və tərbiyə vəzifəsini daşıyan təhsil, tibb, sosial və penitensiar müəssisələrin işçiləri tərəfindən uşağa qarşı intizam məqsədli cismani cəza, fiziki və ya psixoloji zorakılıq tətbiq edilməsinə görə 200 manat məbləğində cərimə nəzərdə tutulur. Uşaqda zorakılıq əlamətləri barədə aidiyyəti qurumlara məlumat verilmədikdə fiziki şəxslər 200–300 manat, vəzifəli şəxslər isə 400–600 manat məbləğində cərimə olunacaqlar. Bundan başqa, zorakılıq hallarının gizlədilməsinə görə fiziki şəxslər üçün 200-300 manat, vəzifəli şəxslər üçün isə 400-600 manat cərimə nəzərdə tutulur. Müəssisələrdə uşaqlara qarşı aqressiv davranışın (bullinq) qarşısının alınmamasına görə isə cərimələr fiziki şəxslər üçün 300-400 manat, vəzifəli şəxslər üçün 500-600 manat təşkil edəcək.

Digər tərəfdən, dilənçiliklə məşğul olanlar üçün xəbərdarlıq, yaxud 100-200 manat cərimə və ya bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda 10 günədək həbs, azyaşlıları bu işə cəlb edənlər üçün isə 200-500 manat cərimə və ya 15 günədək həbs cəzası qüvvəyə minir. Həmçinin xüsusi icra məmuru qaydalarını pozanlar üçün 500 manatdan 1500 manatadək fərqli cərimələr tətbiq ediləcək. Xüsusi icra məmurunun geyim və ya nişanını qanunsuz daşıyanlar əşyalar müsadirə edilməklə 500–700 manat, reyestrdəki dəyişiklikləri üç iş günü müddətində bildirməyən məmurlar isə 500 manat məbləğində cərimə olunacaqlar.

Layihə səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi. Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin aprel ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 2, 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 9 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 10, 17, 24 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 17 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 20 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 21 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 22 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 22 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 23 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 24 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 27 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 28 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Xarici işlər nazirinin görüşü və telefon danışıqları

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Koreya Respublikasının xarici işlər nazirinin xüsusi nümayəndəsi Beyk Cuhyonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüş zamanı Azərbaycan ilə Koreya Respublikası arasında siyasət, iqtisadiyyat, ticarət, təhsil, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər ikitərəfli münasibətlərin genişləndirilməsi, qarşılıqlı səfərlərin intensivləşdirilməsinin əhəmiyyətini vurğulayıblar. Eyni zamanda, Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın, həmçinin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin vacibliyi qeyd olunub.

Ölkəmizin bölgədə həyata keçirdiyi genişmiqyaslı enerji və nəqliyyat layihələri, alternativ enerjinin ixracı planlarından bəhs olunub, bu və digər istiqamətlərdə Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı, o cümlədən C6 formatı çərçivəsində qarşılıqlı fəaliyyət məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə regionda mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə qarşı tərəfi məlumatlandırıb.

* * *

**Martın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub.**

Telefon danışığı zamanı regional vəziyyət və ikitərəfli əlaqələr müzakirə olunub.

Nazir Ceyhun Bayramov İran ərazisindən Naxçıvan Muxtar Respublikasına dron hücumlarından sonra verilmiş vədə uyğun olaraq, İran tərəfindən araşdırmaların tamamlanmasının vacibliyini diqqətə çatdırıb.

Ümumilikdə, aparılan müharibə zamanı mülki obyektlərin hədəf alınmamasının zəruriliyi, bölgədə hərbi eskalasiyaya qısa müddət ərzində son qoyulmasının və mövcud çətinliklərin danışıqlar yolu ilə həll edilməsinin tərəfdarı olduğumuz vurğulanıb.

* * *

**Polşa Baş nazirinin müavini, xarici işlər naziri Radoslav Şikorski dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.**

Nazirlər Yaxın Şərqdə davam edən müharibənin regional və qlobal səviyyədə ciddi təhlükəsizlik təhdidləri yaratdığını, deeskalasiyanın və danışıqlar prosesinin bərpasının əhəmiyyətini vurğulayıblar. Radoslav Şikorski İranın Azərbaycana qarşı həyata keçirdiyi dron hücumlarını qətiyyətlə pisləyib və ölkəmizlə həmrəyliyini ifadə edib. Polşa naziri ölkəsinin diplomatlarının və vətəndaşlarının İran ərazisindən təxliyəsinə göstərilən dəstəyə görə Azərbaycana təşəkkür edib.

Telefon danışığı zamanı, həmçinin Azərbaycanla Polşa arasında siyasət, iqtisadiyyat, alternativ enerji, humanitar və digər sahələrdə münasibətlərin geniş perspektivə malik olduğu, əlaqələrin inkişafında qarşılıqlı səfərlərin və siyasi dialoqun intensivləşdirilməsinin əhəmiyyəti qeyd edilib.

***XQ***

# Azərbaycanın sabitlik və inkişaf fəlsəfəsinə söykənən dialoq modeli

**Müasir beynəlxalq sistem dərin transformasiya mərhələsindən keçir. Qlobal güc mərkəzləri arasında rəqabət kəskinləşir, regional münaqişələr uzanır, yeni "qaynar nöqtələr" yaranır və ənənəvi təhlükəsizlik arxitekturası getdikcə daha az effektiv görünür. Belə bir şəraitdə bəzi dövlətlər qeyri-müəyyənlik və risklərin təsiri altında passiv mövqe tutduğu halda, digərləri bu mürəkkəbliyi idarə etməyi bacaran çevik strategiyalar formalaşdırır. Azərbaycan məhz ikinci kateqoriyaya daxil olan aktorlardan biridir.**



Son dövrlər Bakının diplomatik fəallığının artması ilk baxışda "aktiv xarici siyasət" nümunəsi kimi görünsə də, prosesə daha dərindən baxdıqda aydın olur ki, burada söhbət strateji dizayn edilmiş və uzunmüddətli hədəflərə hesablanmış bir modeldən gedir. Azərbaycanın xarici siyasət davranışı son illərdə daha çox strukturlaşdırılmış xarakter alıb: müxtəlif istiqamətlər üzrə paralel təşəbbüslər, fərqli aktorlarla eyni vaxtda dialoq və ziddiyyətli maraqlar arasında manevr etmə bacarığı bu sistemli yanaşmanın əsas indikatorlarıdır.

Rəsmi Bakı modelinin "proaktivlik" komponenti xüsusi diqqət tələb edir. Çünki ənənəvi olaraq orta güclər beynəlxalq sistemdə daha çox reaktiv mövqe tutur – yəni böyük güclərin yaratdığı reallıqlara uyğunlaşırlar. Azərbaycan isə bu çərçivəni qismən sındırmağa çalışır. Bakı mövcud geosiyasi konfiqurasiyada müəyyən hallarda gündəmin formalaşdırılmasında iştirak edir. Xüsusilə də bu addım regional səviyyədə daha aydın görünür: nəqliyyat marşrutlarının təşviqi, enerji təhlükəsizliyi ilə bağlı təşəbbüslər və sülh gündəliyinin irəli çəkilməsi Azərbaycanın təşəbbüskar aktor kimi çıxış etdiyini göstərir. Burada vacib məqam ondan ibarətdir ki, proaktivlik riskləri əvvəlcədən hesablamaq və alternativ ssenarilər hazırlamaq deməkdir. Azərbaycanın davranış modelində bu element də müşahidə olunur. Müxtəlif güc mərkəzləri arasında balansın qorunması, eyni zamanda, heç bir blok daxilində tam asılı vəziyyətə düşməmək cəhdi məhz bu strateji ehtiyatlılığın nəticəsidir.

Müasir beynəlxalq münasibətlər sistemində "platforma dövləti" anlayışı da getdikcə daha aktuallaşır. Belə dövlətlər yalnız öz maraqlarını müdafiə etməklə kifayətlənmir, eyni zamanda, müxtəlif aktorlar arasında ünsiyyət üçün məkan və mexanizm yaradır. Bakı son illərdə məhz bu funksiyanı getdikcə daha effektiv şəkildə yerinə yetirir. Burada əsas üstünlük ondan ibarətdir ki, Azərbaycan həm Qərb, həm də qeyri-Qərb aktorları üçün qəbul edilə bilən neytral məkan obrazını formalaşdıra bilib. Müxtəlif siyasi düşərgələrə mənsub aktorların eyni platformada toplaşması isə həm də etimad göstəricisidir. Beynəlxalq siyasətdə etimad ən çətin formalaşan resurslardan biridir və o, qısa müddətdə əldə edilmir. Azərbaycanın bu istiqamətdə əldə etdiyi nəticələr onun xarici siyasət kursunun müəyyən dərəcədə proqnozlaşdırıla bilən və ardıcıl olduğunu göstərir. Yəni tərəfdaşlar üçün Bakı "hesablanmış davranış sərgiləyən aktor" kimi qəbul olunur.

Məhz bu nöqtədə etibarlılıq və praqmatizm faktorlarının paralel şəkildə qorunması xüsusi əhəmiyyət kəsb edir. Etibarlılıq – verilən öhdəliklərə sadiqlik, siyasi ritorika ilə real addımlar arasında uyğunsuzluğun minimuma endirilməsi deməkdir. Praqmatizm isə ideoloji sərtlikdən uzaq duraraq konkret maraqlara əsaslanan qərarverməni ifadə edir. Azərbaycan bu iki elementi balanslaşdırmaqla həm normativ, həm də realist yanaşmanı birləşdirən hibrid diplomatik model formalaşdırır.

***

Dialoq modelinin mühüm sütunlarından biri təhlükəsizlik və inkişaf arasında qurulan qarşılıqlı asılılığın düzgün dərk edilməsidir. Müasir dövrdə bu iki anlayış



bir-birini şərtləndirən proseslər kimi çıxış edir. Əgər klassik yanaşmada təhlükəsizlik daha çox hərbi və siyasi komponentlərlə məhdudlaşırdısa, bu gün o, iqtisadi dayanıqlılıq, enerji təminatı, nəqliyyat bağlantıları və hətta texnoloji imkanlarla sıx şəkildə bağlıdır.

Azərbaycanın yanaşması məhz bu genişləndirilmiş təhlükəsizlik anlayışı üzərində qurulub. Burada əsas məqam isə ardıcıllıqdır: ilkin mərhələdə sabitlik təmin olunur, daha sonra isə bu sabitlik iqtisadi və institusional mexanizmlərlə möhkəmləndirilir. Çünki qeyri-sabit mühitdə həyata keçirilən iqtisadi layihələr ya yarımçıq qalır, ya da gözlənilən effekti vermir. Sabitlik isə investisiya üçün zəmin yaradır, xarici tərəfdaşların risk qavrayışını azaldır və əməkdaşlıq imkanlarını genişləndirir. Enerji və nəqliyyat layihələrinin rolu bu kontekstdə xüsusilə ön plana çıxır. Məsələn, enerji ixrac marşrutlarının şaxələndirilməsi Azərbaycanın tərəfdaşlıq coğrafiyasını genişləndirir və onu müxtəlif regionlar üçün strateji əhəmiyyətli aktora çevirir. Eyni zamanda, nəqliyyat və logistika layihələri – xüsusilə transregional dəhlizlər – ölkəni əlaqələndirici mərkəzə çevirir. Qeyd etməliyik ki, iqtisadi layihələr qarşılıqlı asılılıq yaradır. Yəni tərəfdaş ölkələr zamanda bir-birinə bağlı olur. Belə bir bağlılıq isə siyasi riskləri azaldan əlavə mexanizm kimi çıxış edir. Çünki iqtisadi maraqların dərinləşməsi münaqişə ehtimallarını aşağı salır və əməkdaşlığı daha rasional seçimə çevirir.

Regionda sülh gündəliyinin irəli çəkilməsi də bu məntiqin davamıdır. Uzun illər davam edən münaqişədən sonra normallaşma prosesinə keçid yeni regional modelin formalaşdırılması cəhdidir. Əgər qarşıdurma məntiqi iqtisadi bloklanma və kommunikasiya xətlərinin qırılması ilə müşayiət olunurdusa, əməkdaşlıq modeli əksinə, açıq bağlantılar və qarşılıqlı fayda üzərində qurulur. Daha geniş mənada regionda yeni iqtisadi coğrafiyanın formalaşmasına gətirib çıxara bilər. Məhz burada Cənubi Qafqazın gələcək trayektoriyası məsələsi aktuallaşır. Əgər sülh prosesi institusional çərçivəyə salına və iqtisadi layihələrlə dəstəklənə bilsə, region tədricən rəqabət və qarşıdurma məkanından əməkdaşlıq platformasına transformasiya oluna bilər. Belə bir ssenaridə Azərbaycan transformasiyanın əsas memarlarından biri kimi çıxış edir.

***

Azərbaycanın dialoq modelində balans siyasəti "hamı ilə yaxşı münasibətlər" formulu çoxsəviyyəli və hesablanmış xarici siyasət arxitekturanı nəzərdə tutur. Müxtəlif güc mərkəzləri ilə paralel münasibətlərin qurulması, ilk növbədə, seçim imkanlarını genişləndirir. Çünki qlobal sistemdə sərt bloklaşma dərinləşdikcə, bir mərkəzə həddindən artıq yaxınlaşma digər istiqamətlərdə manevr imkanlarını məhdudlaşdıra bilər. Azərbaycan isə bu riski minimuma endirməyə çalışaraq əlaqələrini şaxələndirir və alternativləri açıq saxlayır. Xarici siyasətdə sərt ittifaqlar bəzən qısamüddətli təhlükəsizlik təminatı versə də, uzunmüddətli perspektivdə asılılıq yarada bilir. Balans siyasəti isə əksinə, dövlətə dəyişən geosiyasi şəraitə uyğunlaşmaq imkanı verir. Azərbaycan üçün bu, xüsusilə vacibdir, çünki ölkə həm coğrafi, həm də siyasi baxımdan müxtəlif maraqların kəsişdiyi bir məkanda yerləşir. Belə bir mühitdə sabit qalmağın yolu düzgün qurulmuş diplomatik kombinasiyalardan keçir.

Eyni zamanda, balans siyasətinin "risklərin diversifikasiyası" funksiyası da diqqətdən kənarda qalmamalıdır. Müxtəlif tərəfdaşlarla əməkdaşlıq etmək o deməkdir ki, hər hansı bir istiqamətdə yaranan gərginlik ümumi sistemə dağıdıcı təsir göstərmir. Məsələn, enerji, nəqliyyat və təhlükəsizlik əməkdaşlığının müxtəlif coğrafiyalara yayılması Azərbaycanın xarici təsirlərə qarşı dayanıqlılığını artırır və onu daha az həssas edir. Bununla yanaşı, Azərbaycanın rolu tədricən daha fəal koordinasiyaedici səviyyəyə keçir. İlk növbədə, ölkənin geostrateji mövqeyi – Şərq ilə Qərb, Şimal ilə Cənub arasında yerləşməsi – onu təbii şəkildə əlaqələndirici aktora çevirir. Lakin bu potensialın reallaşması üçün siyasi iradə və institusional təşəbbüslər tələb olunur ki, Bakı son illərdə məhz bu istiqamətdə aktivlik nümayiş etdirir. Xüsusilə Türk dünyası çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi bu koordinasiyaedici rolun konkret təzahürlərindən biridir. Burada Azərbaycan, müəyyən mənada, gündəm formalaşdıran və müxtəlif maraqları uzlaşdırmağa çalışan aktor kimi çıxış edir. Eyni tendensiya daha geniş Avrasiya məkanında da müşahidə olunur.

Son olaraq qeyd edək ki, Azərbaycanın sabitlik və inkişafa söykənən dialoq modeli geniş region üçün alternativ yanaşma təklif edir: əməkdaşlıq, balans və idarəolunan sabitlik. Müasir beynəlxalq sistemin axtardığı da məhz bu cür yanaşmadır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# "Hörmüz böhranı" transatlantik gərginliyi dərinləşdirir

## *"Aspides" mandatının genişləndirilməsi təklifi üzv dövlətlər arasında fikir ayrılığı yaradır*



**Yaxın Şərqdə gərginliyin sürətlə artdığı bir vaxtda Avropa ilə ABŞ arasında yaranan fikir ayrılığı transatlantik münasibətlərdə yeni çatlar yaradıb. Avropa İttifaqı açıq şəkildə bəyan edib ki, Hörmüz boğazının təhlükəsizliyinin təmin olunması ABŞ-ın başladığı qarşıdurmanın nəticəsidir və ittifaq bu münaqişənin hərbi tərəfinə qoşulmaq niyyətində deyil.**

Məhz bu səbəbdən ittifaqa üzv 27 ölkənin xarici işlər nazirlərinin Brüsseldə keçirdiyi toplantı Yaxın Şərqdə təhlükəsizlik vəziyyətinə həsr olunsa da, müzakirələrin əsas xəttini ABŞ-ın Avropadan gözlədiyi hərbi dəstək təşkil edib. Müzakirələr zamanı Aİ-nin Yaxın Şərqdə fəaliyyət göstərən dəniz əməliyyatı onun "Aspides" dəniz missiyası mandatının genişləndirilməsi variantı gündəmə gətirilsə də, bu ideya üzv dövlətlər arasında ciddi dəstək qazanmayıb. Çünki mandatın dəyişdirilməsi Avropa hərbi gəmilərinin Fars ilə Oman körfəzi arasındakı strateji boğazda patrul xidmətinə cəlb olunması anlamına gəlir və bu da, faktiki olaraq, Avropanın İranla birbaşa qarşıdurma riskini artırır.

**ARAYIŞ:** *"Aspides" yunan dilində "qalxanlar" mənasını verən Aspides sözündən götürülüb. Avropa İttifaqı rəhbərliyi missiyanı regional müharibənin tərkib hissəsinə çevirməkdən çəkinir. Yaxın Şərq və Qırmızı dəniz hövzəsində su nəqliyyatının təhlükəsizliyini qorumaq məqsədilə yaradılan missiya regionda gərginliyin artması, ticarət gəmilərinə hücumların çoxalması və beynəlxalq dəniz yollarının risk altına düşməsi fonunda formalaşdırılıb. Avropa İttifaqı üçün marşrutların sabitliyi xüsusi əhəmiyyət daşıyır, çünki enerji daşıyıcılarının və yük daşımalarının böyük hissəsi məhz bu istiqamətlərdən keçir.*

Avropa İttifaqının xarici siyasət üzrə ali nümayəndəsi Kaya Kallas toplantıdan sonra verdiyi açıqlamada mövqeyini açıq şəkildə ifadə edib. Onun sözlərinə görə, Avropa regionda genişmiqyaslı və sonu görünməyən hərbi qarşıdurmanın tərəfinə çevrilmək istəmir. Enerji təhlükəsizliyi və ticarət marşrutlarının sabitliyi Aİ üçün həyati əhəmiyyət daşıyır. Görünür, Brüssel qarşıdurmanın nəticələrindən qaça bilməyəcəyini də anlayır. Vaşinqton isə müttəfiqlərdən daha açıq dəstək gözlədiyini gizlətmir. Donald Tramp son açıqlamalarında Avropa ölkələrinin yardım çağırışına cavab verməməsinin NATO daxilində həmrəyliyə zərbə vuracağını bildirib. ABŞ prezidentinin fikrincə, Hörmüz boğazında təhlükəsizliyin təmin olunması Amerika ilə yanaşı, enerji idxalından asılı olan bütün Qərb ölkələrinin marağındadır. O, bir neçə Avropa lideri ilə danışdığını qeyd etsə də, konkret öhdəlik əldə edə bilməyib.

Trampın xüsusilə Paris və Londonun mövqeyindən narazı qalması transatlantik münasibətlərdə gərginliyi növbəti mərhələyə daşıyıb. ABŞ prezidentinin Fransa lideri Emmanuel Makron ilə danışıqlarına ümidlə yanaşmasına baxmayaraq, Böyük Britaniyanın Baş naziri Kir Starmer ölkəsinin daha geniş müharibəyə qoşulmaq istəmədiyini açıq şəkildə bəyan edib. Bu isə Vaşinqtonun gözlədiyi siyasi həmrəyliyin formalaşmadığını ortaya qoyur. Avropa paytaxtlarında isə əsas arqument ondan ibarətdir ki, mövcud böhran NATO-nun kollektiv müdafiə mexanizmini işə salacaq həddə deyil. Almaniyanın müdafiə naziri Boris Pistorius münaqişəyə Almaniyanın cəlb olunmasının doğru olmadığını bildirib. Onun sözlərinə görə, Berlinin prioriteti alyansın ərazisinin müdafiəsidir.

Oxşar mövqeni Almaniya kansleri Fridrix Merts də ifadə edib. O, NATO-nun müdafiə ittifaqı olduğunu xatırladaraq alyansın regiondan kənarda başlayan hərbi əməliyyatlara avtomatik şəkildə qoşulmayacağını vurğulayıb. Xülasə, Avropa ABŞ-ın birtərəfli qərarları nəticəsində yaranan böhranların yükünü bölüşmək istəmədiyini bəyan etməkdən çəkinməyib. Daha sərt mövqe isə Lüksemburq rəhbərliyindən gəlib. Baş nazir müavini Xavier Bettel Vaşinqtonun təzyiq cəhdlərini "şantaj" kimi qiymətləndirərək ölkəsinin hərbi qüvvə göndərməyəcəyini bildirib. Buna baxmayaraq, Vaşinqton geri çəkilmək niyyətində deyil. ABŞ-ın NATO-dakı səfiri Metyu Uitaker müttəfiqləri bir daha İrana qarşı əməliyyatlarda iştirak etməyə çağıraraq bildirib ki, Hörmüz boğazının təhlükəsizliyi Avropa üçün də strateji əhəmiyyət daşıyır.

Doğrudan da, dünya neftinin təxminən beşdə biri bu dar su yolu vasitəsilə daşınır və regionda formalaşan gərginlik səbəbindən nəqliyyatın məhdudlaşması enerji bazarlarında qiymətlərin kəskin artmasına gətirib çıxarıb. Bununla belə, alyans daxilində yekdil qərarın formalaşması real görünmür. Diplomatik mənbələrin fikrincə, NATO çərçivəsində genişmiqyaslı əməliyyat üçün siyasi razılıq yoxdur və əgər hər hansı dəstək olarsa, bu, daha çox ikitərəfli razılaşmalar səviyyəsində baş verə bilər. Başqa sözlə desək, Yaxın Şərqdəki böhran regional təhlükəsizlik məsələsindən əlavə, Qərb blokunun daxilində strateji baxışların nə qədər fərqli olduğunu üzə çıxaran sınağa çevrilib. Aİ liderlərinin yaxın günlərdə keçiriləcək sammitində əsas diqqətin gərginliyin azaldılması və diplomatik kanalların qorunmasına yönələcəyi gözlənilir. Brüsseldə hazırlanan ilkin sənədlərdə hərbi eskalasiyanın qarşısının alınması və tərəflərin maksimum təmkin nümayiş etdirməsi çağırışı yer alır. Sözügedən yanaşma Avropanın hazırkı dönəmdə əsas strategiyasını aydın göstərir.

***Nəzrin ELDARQIZI***
***XQ***

***Ekspert rəyi***



**Zaur MƏMMƏDOV,**
**politoloq**

Bu gün Yaxın Şərqdə cərəyan edən hadisələr çox ciddi proseslərdən xəbər verir. Müharibənin davam etməsi, Hörmüz boğazının bağlanması ehtimalı və regionda gərginliyin artması ABŞ-ın və ümumilikdə Qərbin beynəlxalq müstəvidə baş verənləri daha real şəkildə qiymətləndirməsinə səbəb olur.

Beynəlxalq münasibətlər sistemində uzun müddət müxtəlif siyasi bloklar mövcud olub. İkinci Dünya müharibəsindən sonra dünya, demək olar ki, iki əsas düşərgəyə bölünmüş, digər dövlətlər isə bu blokların ətrafında mövqe tutmuşdular. 1990-cı illərin əvvəllərindən etibarən ABŞ-ın liderliyi altında Qərb dünyası daha da gücləndi, siyasi və hərbi imkanlarını genişləndirdi. ABŞ və Avropa İttifaqı arasında daha vahid siyasət formalaşdı, NATO və Aİ-nin genişlənməsi sürətlə davam etdi və bu təsir dairəsi Qara dəniz regionuna qədər uzandı. Bu, Vaşinqton, Brüssel, Paris, London və Berlin arasında daha sıx inteqrasiya demək idi. Müxtəlif dövrlərdə tərəflər arasında fikir ayrılıqları da mövcud olub.

Donald Trampın yenidən hakimiyyətə qayıdışından sonra ABŞ ilə Aİ arasında geosiyasi və geo-iqtisadi məsələlərdə ziddiyyətlər daha açıq görünməyə başladı. İqtisadi rüsumlar, Ukrayna müharibəsi zamanı məsuliyyət bölgüsü, həmçinin digər beynəlxalq məsələlər göstərdi ki, Avropanın liberal siyasi elitası ilə Trampın daha mühafizəkar və milli maraqlara üstünlük verən xətti arasında fərqlər qalmaqdadır. Bu fərqlər miqrasiya, milli kimlik və qlobal siyasətə yanaşmada da özünü göstərir. İran ətrafında yaranan gərginlik bu fikir ayrılıqlarını daha aydın ortaya çıxarıb. Bir sıra Avropa ölkələri ABŞ-ı siyasi baxımdan dəstəkləsə də, hərbi əməliyyatlarda tam şəkildə iştirak etmək istəmədiklərini bildirirlər. Liviya, Suriya və İraq hadisələrindən fərqli olaraq, İran məsələsində xüsusilə Fransa başda olmaqla bəzi Avropa dövlətləri daha ehtiyatlı mövqe tutur. Hazırda Avropa ölkələri özləri üçün birbaşa təhlükə görmədikləri üçün müharibəyə qoşulmağa tələsmirlər. Lakin qarşıdurma genişlənərsə və təhlükə Qərb üçün daha real xarakter alarsa, onların mövqeyinin dəyişməsi istisna deyil. Daha dəqiq desək, bunu yaxın günlərdə ABŞ–İran qarşıdurmasının hansı istiqamətdə inkişaf edəcəyi müəyyənləşdirəcək.

*(əvvəli 1-ci səhifədə)*

# “Miatsumsuz Ermənistan” və məğlub ölkədə parlament seçkiləri

Maraq təkcə onda deyil ki, Şimal qonşumuzun politoloq və ekspertləri, bir qayda olaraq, Paşinyan hakimiyyətini qınayırlar. Onların ölkələrinin Cənubi Qafqazdakı mövcudluq parametrinin sıradan çıxmasından təşvişə düşdükləri durum da var. Axı bu parametr erməni amilinə əsaslanırdı. Başlıca məqam rus analitiklərin reallığı vurğulamaları və gətirdikləri arqumentlərin kifayət qədər tutarlı olmasıdır. Arqument isə sırf identikliyə söykənir. Söhbət Qafqazdakı erməni varlığının milli kimlik anlamından gedir.

***

Fikrimizi əsaslandırmaq üçün tarixə nəzər yetirək və qısaca ermənilərin regiona köçürülmələrinin məqsəd və məramlarından söz açaq. Məlumdur ki, köçürülmə 1830-cu ildən başlandı və proses Rus-İran müharibəsinin nəticələrini təsdiqləyən 1828-ci ilin Türkmənçay müqaviləsinə əsaslandı. Nəzərə alaq ki, müqavilədə ermənilərin Cənubi Qafqaza yerləşdirilmələrinə dair ayrıca müddəa var idi...

Daha sonra Qafqazda erməni vilayəti yarandı. Tarix, həmçinin, 1918-ci ildə Ermənistan Respublikasının qərarlaşmasına da şahidlik etdi. O respublika ki, zərurətdən yox, imperialist güclərin maraq və mənafelərinin diktəsindən irəli gəldi. Həmin güclər türk-müsəlman dünyasını bir-birindən ayırmaq məqsədi güdürdülər və yekunda istəklərinə çatdılar.

Erməni varlığı üçün məfkurə “toxumaq”, ideoloji müqəddəslik formalaşdırmaq, saxta mübarizlik aşılamaq, miflər, türklərə qarşı kin və qəzəb uydurmaq da planın təkib hissəsi idi. Yəni elə şərait yaradıldı ki, haylar qonşuları ilə konflikt şəraitində yaşasınlar. Nəticə etibarilə, daimi münaqişə formulu və ərazi iddiası məntiqi ermənilər üçün alın yazısına çevrildi. Hay millətçilərinin əyinlərinə biçilmiş təbliğat məhz bu “həyat kredosu” üzərində quruldu.

Bəli, rus və Qərb imperializmi, kilsə başda olmaqla, erməni varlığının əyninə biçilmiş saxta ideoloji düsturlardan qaynaqlanmış qonşulara qarşı ərazi iddiası xəstəliyinə və həmin xəstəliyin ayrı-ayrı “şıltaqlıq elementlərinə” ona görə “yaşıl işıq” yandırdı ki, bu varlıq hər iki qütbün qlobal maraq və mənafelərinin təminatında tutarlı alətə çevrilsin. Barəsində söz açdığımız Ermənistan dövləti də 1918-ci ildə məhz belə bir “ampluadan” irəli gələrək formalaşdı.

***

SSRİ-nin süqutundan sonra hay millətçiliyi tarixi erməni məsələsi baxımından varislik xəttini qorudu. Faktiki olaraq, həm Qərb, həm də Rusiya müasir Ermənistan Respublikası üçün Qarabağ identikliyi üzərində ortaq məxrəcə gəldi. Birinci diplomatik susqunluğu, ikinci əməli dəstəklə. Nəticədə, Rusiya Ermənistana Azərbaycan torpaqlarının işğalında kömək göstərdi, Qərb isə ədalətsizliyə və haqsızlığa göz yumdu.

Ermənistanın Azərbaycan torpaqlarının işğalı 30 ilə yaxın davam etdi və ötən müddətdə gedən danışıqların nəticəsizliyi, BMT-nin və digər qurumların qətnamə və bəyanatlarına məhəl qoyulmaması Qərbin və Rusiyanın haylara müştərək dəstəyinin göstəricisi idi. Ölkəmiz isə Qarabağ davasından geri durmadı, təcavüzlə barışmayaraq, həm iqtisadi və hərbi baxımdan gücləndi, həm də fəal diplomatik xətt yürütdü.

Nəhayət, Azərbaycan 44 günlük müharibə ilə işğala son qoydu, Silahlı Qüvvələrimizin lokal xarakterli antiterror tədbirləri ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdi. Bununla da Qarabağ avantürasına son qoyuldu. Amma məsələ yalnız avantüraya son qoymaq mahiyyəti daşımadı. Ümumən, erməni varlığı üçün müəyyənləşdirilmiş “missiya” sona çatdı. Təsadüfi deyil ki, Azərbaycan rəhbərliyi, şəxsən Prezident İlham Əliyev çıxışlarında 200 illik erməni planına son qoyulduğunu vurğulayıb.



Hesab edirik ki, bu, adi məsələ deyil. O zaman ortaya sual çıxır: bünövrəsi avantüra və nifaqla, böyük oyunlar üçün alətə çevrilməklə qoyulmuş Ermənistan Respublikası lazımdırmı, yaxud kimə lazımdır? Ölkənin baş naziri Nikol Paşinyan bu suala cavab verir və bildirir ki, Ermənistan mövcudluğunu hay varlığının azad, sülh və əmin-amanlıq şəraitində ömür sürməsi, xoşbəxt və firavan yaşaması naminə davam etdirməlidir.

***

Deməli, Nikolun sinəsinə ölkənin xəritəsinin əks olunduğu döş nişanını taxıb dünyanı gəzməsi elə-belədən deyil. Baş nazir ermənilərin avantürist niyyətlər və ərazi iddiası üçün alətə çevrilməyəcəklərinin mesajını verir. Məsələ onda deyil ki, Paşinyan səmimidir. Səmimi olsaydı, 2019-cu ildə Xankəndinin mərkəzi meydanında “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını səsləndirməz, 2021-ci ilin parlament seçkilərinin kampaniya dövründə 44 günlük müharibə zamanı itirilmişlərin bərpası şüarını irəli sürməz, ümumən, 2020-2025-ci illərdə hər cür oyunbazlığa getməzdi.

Məsələ ondadır ki, baş nazirin başqa çarəsi yoxdur. Axı o, reallıqları görür. Görür ki, “erməni kartı”nın istifadə müddəti bitib. Ona görə 1830-ci ildən indiyədək qazanılmış ərazilərin əldən çıxmamasına çalışır. Nikolun “Milli Müqavilə” Partiyasının iyun seçkilərinə fokuslanıb “Miatsum” iddiasını kənara qoyması məhz bununla bağlıdır. Paşinyan rəhbərlik etdiyi qurumun avantüradan uzaq yeganə siyasi təşkilat olduğunu car çəkir, uca səslə bildirir ki, köhnə dövrə qayıtmaq, keçmişin iddialarını gündəmə gətirmək Ermənistan üçün fəlakətdir. Həqiqətən, Nikol erməniləri yeni müharibə və iflas təhlükəsi ilə qorxutmasın, nə etsin?

N.Paşinyan qarşıdan gələn parlament seçkilərindəki mübarizənin müharibə və sülh tərəfdarları arasında gedəcəyini bildirməkdə də tam haqlıdır. Sadə ermənilər 44 günlük müharibədə gördüklərini görüblər. Onlar savaşın acılarına qatlaşdıqlarından, eyni durumun təkrarlanmasını istəmirlər. “Əmması” budur ki, hələlik avantüradan uzaq sabit erməni toplumu yoxdur. Xəstəlik hay cəmiyyətinin canından çıxmayıb. Ona görə xəstə təfəkkürlü revanşist və şovinistlərdən ibarət daxili kəsim qalır. O kəsim ki, xarici dəstəyə malikdir. Onu da deyək ki, məhz xarici dəstək Paşinyan və komandasının seçkidəki ən başlıca çətinliyidir.

***

Beləliklə, Ermənistanda iyunda keçiriləcək parlament seçkilərinə fokuslanan xarici qüvvələr “Miatsum” avantürasını Ermənistan üçün identik varlıq simvolu olaraq təbliğ edir və Paşinyanı, guya, illərin sınağından çıxmış düstura zidd davranan, yerdən çıxma şəxs kimi dəyərləndirirlər. Məsələn, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun nəzdindəki Avroatlantik Mərkəzin əməkdaşı, politoloq Sergey Markedenov deyir ki, Ermənistan rəhbərliyi təkcə Qarabağ üzərində Azərbaycanın suverenliyini qəbul etmir, eyni zamanda, həmin bölgənin ermənilərinin əhəmiyyətli hissəsi üçün həm sağalmayan travma, həm də həyata keçməmiş milli arzu mahiyyətini heçə sayır: “Baş nazir Nikol Paşinyan və ətrafı belə bir mesaj verir: “Miatsum” erməni milli maraqlarına uyğun deyil, zərərlidir (hətta müxtəlif düşmən “hibrid” qüvvələr tərəfindən kənardan gətirilmiş ideyadır) və ondan tam imtina sülhə aparan optimal yoldur”.

S.Markedonov hayların Qarabağ nisgilini millik kimlik məsələsi kimi xarakterizə edərkən, İrəvandakı Erməni soyqırımı Muzey-İnstitutunun direktoru Edita Qzoyanın Ermənistanda səfərdə olan ABŞ Vitse-prezidenti Ceyms Devid Vensə qondarma “Artsax”la bağlı kitab hədiyyə etməsi üzərində dayanıb. Politoloqun fikirlərindən gəlinən nəticə budur ki, sözügedən hadisə, bir növ, hay yaddaşının üsyanıdır. Yeri gəlmişkən, muzeyin direktoru protokoldan kənar təsir bağışlayan (ola bilər ki, planlaşdırılmış hadisədir – red.) hərəkətinə görə vəzifəsindən uzaqlaşdırılıb. “Ölkənin baş naziri Qarabağ hərəkatının olmadığını bəyan edirsə, xarici qonağa Qarabağ məsələsi haqqında kitab hədiyyə etməyin mənası nədir?”, - deyərək məsələyə münasibət bildirən Paşinyan isə bu fikrinə görə daxildəki müxalif kəsimlə yanaşı, Rusiya ermənipərəstlərinin də qınaq, hətta təhqir obyektidir.

***

Təkcə S.Markedonov yox, həmçinin Rusiyanın siyasi-intellektual düşərgəsinin ayrı-ayrı təmsilçilərinin müştərək fikri belədir ki, Bakı–İrəvan sülh prosesi tərəflər arasındakı kompromisdən çox, onlardan birinin gücünün nəticəsidir. Şübhəsiz, tərəflərdən biri dedikdə, vurğu Azərbaycanın üzərinə qoyulur. O, Azərbaycan ki, beynəlxalq hüquqa əsaslanmış ədaləti hərbi gücü hesabına bərpa edib. Görəsən, bu nə zamandan hay varlığının əzilməsi, onun milli kimliyinin zədələnməsidir? Halbuki Rusiyada belə təbliğat aparanlar çoxdur.

İki Qarabağ müharibəsi Ermənistan adlanan ərazidə getməyib. Ancaq Markedonov kimi erməni kimliyinə identiklik uyduranlar üçün həqiqətin heç bir önəmi yoxdur. Onlar Azərbaycanın öz gücünü haqlı məram naminə istifadə etdiyinin fərqində deyillər. Belələrinin ortaya qoyduqları baxış budur ki, Paşinyanın Qarabağ avantürasından uzaq siyasət xətti milli məsələni kənara qoymaqdır. Belələrinin Ermənistanda hərəkətə gətirdiyi revanşist və şovinistlər isə daha sərt ritorikaya üstünlük verərək, Nikolu “satqın” və “xain” adlandırırlar. Politoloq Markedonov isə digər həmkarları kimi, subliminal formad təxribatla məşğuldur: “Beləliklə, erməni seçiciləri yalnız partiyalara və siyasi birliklərə səs verməyəcəklər, həm də identitar koordinatlar sistemində mövqe müəyyən edəcəklər; faktiki olaraq hüquqi şəkildə formalaşdırılmamış suallara cavab verəcəklər: “Biz haradan gəlmişik? Biz kimik? Hara gedirik?”

Suallara baxın, ermənilər haradan gəliblər və hara gedirlər? Heç şübhəsiz, vurğu uzaq 1830-cu illərə qoyulur. Çox güman, Markedonov ermənilərin nə üçün gəldiklərini qeyd etməyi “unudub”. Onların hara getdiklərinə gəlincə, əslində, Paşinyan bu barədə söz açır və əvvəldə məsələyə toxunduq. Söhbət sülhə, əmin-amanlığa, inkişafa istiqamətlənmiş yoldan gedir. Markedonovlar, ümumən, rus düşüncə sistemi isə yada keçmişi salaraq, ermənilərin missiyasına köklənir. O missiya ki, onlara heç nədən dövlətçilik qazandırmışdı. Yəni faktiki olaraq, verilən mesaj budur: Ermənistan milli identiklikdən, daha doğrusu, avantüradan, qonşularla nifaqdan əl çəkirsə, erməni dövləti kimə və nəyə lazımdır? Bir azdan hayların gəldikləri yerə qayıtmalı olduqlarına dair bəyanat versələr, qəti təəccüblənmərik. Axı onların ermənilərin rahat, münaqişəsiz bir düzəndə yaşamaları ilə bağlı nə planları var, nə də təsəvvürləri. Çünki hayları insan yox, zombi kimi görürlər. Cənubi Qafqazın zombisi kimi.

Əlbəttə, belə təfəkkür sahiblərinin nəzərlərində Paşinyanın “xəyanətkarlığının” anlamı çox böyükdür. Çünki Nikol 200 illik planın məhvə düçar olmasında müqəssir sayılır. Rusiyadakı bəzi dairələrin Ermənistanın Rusiyaya münasibətdə nankor davrandığını bildirmələrinin kökündə də məhz bu baxış dayanır. Bir daha aydın olur ki, Paşinyanı satqın kimi qələmə verən Ermənistandakı revanşist və şovinist kəsimin ideya mənbəyi haradan qaynaqlanır.

***

Sonda yenidən “Miatsumsuz Ermənistan” formulu üzərinə qayıdaq. Politoloq S.Markedonov Ermənistanın baş nazirinin sonuncu “Facebook” çıxışı zamanı səsləndirdiyi fikirlərdən daha bir məqamı xatırladıb və bildirib ki, “Paşinyanın sözlərinə görə, “2018-ci il seçkiləri ilə biz daxili siyasi inqilab etdik, 2021-ci il seçkilərində xalq bizi sosial-psixoloji inqilab və düşüncə inqilabı istiqamətinə yönəltdi. 7 iyun 2026-cı il seçkilərində isə biz tarixi-siyasi inqilaba nail olacağıq”. Tarixdə “əgər” sözü yoxdur. Lakin 2020–2023-cü illərdə hadisələr başqa cür inkişaf etsəydi, yəqin ki, biz tamam başqa bir Paşinyanı və Qarabağla bağlı tam fərqli ssenariləri görərdik. Amma özünü inqilabçı kimi təqdim edən erməni baş naziri işlərini adətən dəqiq, ardıcıl və radikal şəkildə görməyə öyrəşib. 2026-cı ilin martında o, qarşıdan gələn seçkilərdə “3 saylı inqilab” elan edib”.

Markedonov haqlıdır, o anlamda ki, Paşinyanın dediklərini, müəyyən mənada, “3 saylı inqilab” olaraq dəyərləndirmək mümkündür. Amma daha dəqiq təsvir budur: Nikol hazırda 2018-ci il inqilabının nəticələrini qorumağa çalışır. Əgər Paşinyan 8 il əvvəl inqilabın “Miatsum” saxtalığı ilə davam trayektoriyasını görürdüsə, daha doğrusu, görməyə çalışmışdısa, hazırda onun bu baxışından əsər-əlamət yoxdur. Baş nazirin ən böyük səhvi isə durumu zamanında qiymətləndirməməsidir. Ona görə markedonovlar və digərləri 8 il əvvəlin eyforik dövrünü yada salırlar. Axı Nikolun Qarabağı ermənilər üçün milli kimlik simvoluna çevirən sərsəmlərinin üzərindən böyük zaman keçməyib. Hər kəs “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını da, “yeni ərazilər uğrunda yeni müharibə” şüarını da yaxşı xatırlayır. Deməli, Paşinyanın qarşıdan gələn parlament seçkilərindəki ən böyük rəqibi, heç kəs və heç bir qüvvə yox, onun öz keçmişidir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# ATƏT-in qərəzli iradlarına Tbilisinin tutarlı cavabı

**ATƏT-in “Moskva mexanizmi” çərçivəsində Gürcüstanla bağlı hazırladığı hesabat regionda yeni siyasi gərginlik mərhələsinin başlanğıcıdır. Təşkilatın qənaətinə görə, rəsmi Tbilisi son illər demokratiya yolundan uzaqlaşıb və ölkədə bir sıra fundamental hüquq və azadlıqları məhdudlaşdırıb. Bu nəticələr Varşava Universitetinin professoru Patrisia Qjəbikin tərəfindən hazırlanmış sənəddə əksini tapıb və artıq beynəlxalq siyasi gündəmin əsas mövzularından birinə çevrilib.**





Hesabatda qeyd olunur ki, 2024-cü ildən etibarən Gürcüstanda demokratik institutların zəifləməsi prosesi sürətlənib. Hakimiyyətin vətəndaş cəmiyyəti, siyasi müxalifət, müstəqil media və LGBT+ icmasına qarşı yönəlmiş qanunvericilik təşəbbüsləri ifadə azadlığı, toplaşma və birləşmə hüquqlarını ciddi şəkildə məhdudlaşdırıb. ATƏT ekspertləri bu məhdudiyyətlərin yalnız hüquqi mexanizmlərlə deyil, həm də inzibati təzyiqlər, yüksək cərimələr və tənqidçilərə qarşı cinayət işlərinin açılması ilə müşayiət olunduğunu vurğulayıb.

Hesabat konkret olaraq dinc etirazçılara qarşı zorakılıq, siyasi məhbuslara qarşı işgəncə, “xarici agentlər haqqında” və “qrantlar haqqında” qanunların qəbulu, müxalifətə sistemli təzyiq kimi halları əsas pozuntular hesab edib. Bu fonda ATƏT Gürcüstan hakimiyyətinə tövsiyələr təqdim edib. Təşkilat seçki pozuntuları ilə bağlı iddiaların müstəqil və qərəzsiz araşdırılmasını, seçki sisteminin ATƏT/DTİHB standartlarına uyğunlaşdırılmasını vacib sayıb. Eyni zamanda, siyasi partiyaların qadağan olunması prosedurlarından imtina etmək, müxalifət nümayəndələrinə qarşı irəli sürülmüş ittihamları geri götürmək, media və qeyri-hökumət sektoruna yönəlmiş məhdudiyyətləri aradan qaldırmaq tövsiyə olunub. Hüquq-mühafizə orqanlarının aksiyalar zamanı proporsional güc tətbiq etməsi, işgəncə və pis rəftar iddialarının obyektiv araşdırılması, siyasi motivlərlə həbs edilmiş şəxslərin azad olunması tələb edilib.

Sənəd Böyük Britaniya hökuməti tərəfindən yayımlanıb və ATƏT-in 24 üzv dövləti tərəfindən dəstəklənib. Qeyd edək ki, “Moskva mexanizmi” çərçivəsində verilən tövsiyələr hüquqi baxımdan məcburi deyil, amma onların siyasi çəkisi var. Məhz bu məqam Gürcüstan üçün potensial riskləri artırır. Tövsiyələr yerinə yetirilmədiyi halda, ayrı-ayrı dövlətlər beynəlxalq məhkəmə instansiyalarına müraciət edə, hətta Beynəlxalq Cinayət Məhkəməsi və ya BMT-nin İşgəncələrə Qarşı Komitəsi kimi qurumları prosesə cəlb edə bilər. Bu isə məsələnin sırf siyasi tənqid müstəvisindən çıxaraq hüquqi müstəviyə keçməsi deməkdir.

Avropa İttifaqında da bu mövzu ciddi müzakirə olunur. Aİ diplomatiyasının rəhbəri Kaya Kallas açıq şəkildə bəyan edib ki, Brüssel Tbilisinin siyasətinə təsir etmək üçün əlavə siyasi və hüquqi mexanizmləri nəzərdən keçirir. Onun sözlərinə görə, Gürcüstanda vəziyyət getdikcə ağırlaşır və artıq müəyyən məhdudlaşdırıcı addımlar, o cümlədən diplomatlara viza verilməsinin məhdudlaşdırılması qüvvəyə minib. Bu bəyanatlar Aİ-Gürcüstan münasibətlərinin yeni, daha gərgin mərhələyə daxil olduğunu göstərir.

Rəsmi Tbilisi isə bu ittihamları qətiyyətlə rədd edib və hesabatı qərəzli qərəzli adlandırıb. Baş nazir İrakli Kobaxidze bildirib ki, ölkəyə xarici təzyiqlər artıb və “daim müdafiə rejimindədir”. Onun sözlərinə görə, Gürcüstanı sülh və sabitlikdən uzaqlaşdırmaq istəyən siyasi qüvvələr mövcuddur və bu qüvvələr həm daxildən, həm də xaricdən dəstəklənir. Kobaxidze iddia edib ki, ölkədə qütbləşmə süni şəkildə qızışdırılır, dövlətə, kilsəyə və milli dəyərlərə qarşı məqsədli kampaniya aparılır.

Baş nazirin fikrincə, Gürcüstana qarşı təzyiqlər təkcə siyasi bəyanatlarla məhdudlaşmır. O qeyd edib ki, ölkəni birbaşa müharibəyə cəlb etməyə, Rusiyaya qarşı sanksiyalar tətbiq etməyə və könüllü döyüşçülər göndərməyə çağırışlar olub. Eyni zamanda, Aİ tərəfindən namizəd statusunun gecikdirilməsi və “şəffaflıq haqqında” qanunun “Rusiya qanunu” kimi təqdim olunması da Tbilisinin narazılığına səbəb olub. Buna baxmayaraq, Kobaxidze ölkənin iqtisadi və siyasi baxımdan inkişaf etdiyini, suverenliyin möhkəmləndiyini vurğulayıb.

Hökumət başçısı hesabatın konkret məqamlarını da tənqid edib. Bildirib ki, sənəddə mühüm faktlar qəsdən nəzərə alınmayıb. Məsələn, ATƏT/DTİHB missiyasının 2024-cü il parlament seçkilərini rəqabətli hesab etməsi və hakim “Gürcü arzusu”nun legitim seçilmiş hakimiyyət kimi tanınması qeyd olunmayıb. Radikal müxalifət məhz bu səbəbdən ATƏT və DTİHB-yə qarşı hücumlar edib və artıq ikinci dəfə parlament mandatlarından imtina etməklə siyasi sistemi sarsıtmağa çalışıb.

Bundan əlavə, rəsmi Tbilisi vurğulayıb ki, seçkilər yeni və müxalifətlə razılaşdırılmış qanunvericilik əsasında keçirilib və saxtakarlıq ehtimalı minimuma endirilib. Hesabatda bu kimi məqamların yer almaması isə sənədin obyektivliyinə ciddi şübhələr yaradır. Baş nazir həmçinin hesabat müəllifinin mümkün maraqlar toqquşmasını gizlətdiyini və sənədin müəyyən siyasi dairələrin təsiri altında hazırlandığını deyib. Qanunvericiliklə bağlı tənqidlərə cavab olaraq rəsmi Tbilisi bildirib ki, “şəffaflıq haqqında” qanunun əsas məqsədi xarici müdaxilənin qarşısını almaqdır. Hökumətin versiyasına görə, son illərdə ölkədə bir neçə dövlət çevrilişi cəhdi baş verib və bu proseslərdə xaricdən maliyyələşən qeyri-hökumət təşkilatları iştirak edib. Bu baxımdan, belə qanunlar milli suverenliyin qorunması üçün zəruridir.



“Buna görə təəccüblü deyil ki, hesabat hətta minimal obyektivlik standartlarına belə cavab vermir və buna görə də Gürcüstanda baş verən hadisələrin obyektiv təhlilini əks etdirmir. Müəllif özü də qeyd edir ki, vaxtın azlığı səbəbindən sənəd dərinlikdən məhrumdur. Bu, bəlkə də hesabatın yeganə ümumi nəticəsidir ki, bununla tam razılaşa bilərik. Təəssüf ki, hesabatın müəllifi hətta ölkəmizin adının “Gürcüstan Respublikası” yoxsa “Gürcüstan” olduğunu belə dəqiqləşdirə bilməyib”, – deyə Baş nazir söyləyib.

Maraqlıdır ki, gərginlik təkcə siyasi bəyanatlarla məhdudlaşmır, iqtisadi sahəyə də sirayət edib. Gürcüstan hökumətinin Azərbaycan və Ermənistan sərhədlərinə aparan strateji yolların tikintisi üzrə 250 milyon avroluq tenderləri ləğv etməsi bu baxımdan diqqət çəkib. Avropa Yenidənqurma və İnkişaf Bankının iştirak etdiyi bu layihələr Orta Dəhlizin inkişafı üçün mühüm əhəmiyyət daşıyırdı. Lakin Tbilisinin bu addımı bəzi ekspertlər tərəfindən Avropaya siyasi siqnal kimi qiymətləndirilib.

Bütün bu proseslər fonunda Gürcüstanla Qərb arasında münasibətlərin sürətlə pisləşdiyi aydın görünür. Bir tərəfdə insan hüquqları və demokratik standartlarla bağlı ciddi ittihamlar, digər tərəfdə isə suverenlik və xarici müdaxilə ilə bağlı arqumentlər dayanır. Bu qarşıdurma artıq klassik siyasi polemika çərçivəsini aşaraq geosiyasi rəqabətin elementinə çevrilməkdədir.

Mövcud vəziyyət bir çox analitiklər tərəfindən “sanksiyaöncəsi mərhələ” kimi xarakterizə olunur. Tərəflər arasında kompromis əldə olunmasa, yaxın gələcəkdə Avropa İttifaqı və digər Qərb institutlarının daha sərt addımlar atacağı istisna edilmir. Bu isə Gürcüstanın daxili siyasi sabitliyi və regional rolu üçün ciddi çağırışlar yarada bilər.

Buna baxmayaraq, rəsmi Tbilisi Qərbin tövsiyələrini qəbul etmək niyyətində deyil. Hökumət hesab edir ki, qanunvericilik sahəsi dövlətin suveren hüququdur və bu məsələdə geri addım atılmayacaq. Xüsusilə, ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi ilə bağlı qanunvericilik ölkə üçün ekzistensial əhəmiyyət daşıyan strateji prioritet kimi qiymətləndirilir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Avropa İttifaqının Ermənistan üçün "seçki çətiri"

## *İrəvan bu qurumu kampaniyaya kənar müdaxilənin qarşısını almağa çağırıb*

**"Qoca qitə"nin ən ali qurumunda Ermənistanda parlament seçkilərinin taleyi və nəticələri ilə bağlı narahatlıqlar 3 ay əvvəldən başlamışdı. O zaman Avropa İttifaqının (Aİ) Xarici işlər və təhlükəsizlik siyasəti üzrə Ali nümayəndəsi Kaya Kallas ittifaqın 2026-cı il parlament seçkiləri zamanı Ermənistana kömək etmək variantlarını müzakirə edəcəklərini bildirmişdi. "Avropa İttifaqı 2026-cı ildə keçiriləcək parlament seçkiləri ərəfəsində mümkün hibrid təhdidlərə qarşı mübarizədə, həmçinin kibertəhlükəsizliyin gücləndirilməsi məsələsində Ermənistana dəstək göstərməyə hazırlaşır". Bunu ötən ilin dekabrında Brüsseldə erməni jurnalistlərlə görüş zamanı Avropa İttifaqının genişlənmə siyasəti üzrə baş komissarı Marta Kos bildirmişdi.**





Artıq biz bu müzakirələrdə alınan qərarlarla tanış olmaq imkanı qazanmışıq. Aİ-nin Ali nümayəndəsi Kaya Kallas bəyan edib ki, Ermənistanın xahişi ilə Avropa İttifaqı tərəfindən ölkədəki parlament seçkiləri ərəfəsində hibrid təhlükələrə, kənar müdaxilələrə qarşı mübarizəyə kömək etmək üçün İrəvanda xüsusi çevik reaksiya qrupu yerləşdiriləcək. Kallas Aİ Xarici Əlaqələr Şurasının iclasından sonra Brüsseldə keçirilən mətbuat konfransında bunları deyib: "Bölgəmizdə demokratiyanın dayanıqlılığının dəstəklənməsi həlledici məsələ olaraq qalmaqdadır. Biz Ermənistanı xarici müdaxilə ilə üz-üzə buraxmayacağıq". O, sözlərinə onu da əlavə edib ki, "təzyiq altında olan demokratiyalar Avropaya arxalana bilər".

Bu xüsusda Ermənistan mediası xəbər verir ki, "Ermənistan" bloku keçmiş prezident Robert Koçaryanın baş nazirliyə namizədliyini elan edib. Bu barədə "Daşnaksütyun" partiyasının nümayəndəsi İşxan Saqatelyan açıqlama yayıb. O bəyan edib ki, "Daşnaksütyun" və "Ermənistan bloku" "əməkdaşlığı davam etdirmək" qərarına gəlib. Aydın məsələdir ki, seçkilərdə "eks"lərlə revanşistlərin güclərini birləşdirməsi iyunun 7-də Paşinyana qalib gələrək, onu hakimiyyətdən kənarlaşdırmaq məqsədi daşıyır.

Məlumatlarda o da qeyd olunur ki, "Araç" partiyası, o cümlədən bir sıra ictimai xadimlər də müxalifətin blokuna qoşulub. Robert Koçaryan "Biz "Ermənistan" blokunun tərkibində qarşıdan gələn seçkilərdə birgə iştirak edəcəyik", – deyə bildirib. Ermənistanın sabiq prezidenti onu da vurğulayıb ki, bu gün ölkəyə "döyüşə hazır ordu, güclü lider və güclü müttəfiqlər" lazımdır.

Aydın məsələdir ki, əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də Koçaryan seçkilərə Kremlin təlimatı və dəstəyi ilə gedir. Mövzu ilə bağlı XQ-yə açıqlama verən **Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** bu qənaətdədir ki, seçkilərdə Robert Koçaryan Rusiyanın əsas namizədi deyil. Politoloqun fikrincə, Kremldəkilər yaxşı anlayırlar ki, Koçaryanın parlament seçkisini udmaq şansı yoxdur: "Bundan əvvəlki seçkilərdə bəlkə də bunun mümkünlüyünə inanırdılar. Amma məlum oldu ki, cəmiyyətin Nikol Paşinyana dəstəyi nə qədər azalsa da, əhalinin Koçaryana nifrəti ondan qat-qat artıqdır. İndi özlərini ana müxalifət adlandıran Koçaryan tərəfdarları düşünürlər ki, onlar 8 faizlik səs kvotasını aşa biləcəklər. Sonrakı mərhələdə Rusiyanın əsas namizədi, milyarder Karapetyana qoşularaq onunla parlamentdə nisbi çoxluğu təşkil edəcək koalisiya yaratmaq planlarından da danışırlar. Bəli, bu seçkidə Moskvanın əsas namizədi Karapetyandır, çünki onun pulu çoxdur. Avropa İttifaqı Ermənistanda seçiciləri məhz pulla satın almanın qarşısına sədd çəkmək, prosesə nəzarəti təmin etməkdən ötrü öz missiyasını İrəvana göndərməyə hazırlaşır. Moldova buna oxşar bir "seçki ssenarisi" düşünülmüşdü. Orada ən müxtəlif üsul və yollarla passiv elktoratı seçki məntəqələrə cəlb etmək və özlərinin namizədinə səs vermələrindən ötrü böyük pullar xərcləndi. Moldovada bu, az qalabaş tutmuşdu. Sadəcə olaraq, Avropa İttifaqının nəzarət missiyası, bununla paralel olaraq, Avropada yaşayan moldovanların səs vermələrini təşkil etməklə həm saxtakarlığın qarşısını almaq, həm də prezident Maya Sandunun partiyasının qələbəsini təmin etmək mümkün oldu".

Ermənistanda isə eyni texnologiyadan – insanları pulla ələ alaraq seçki məntəqələrinə cəlb etmək və öz namizədlərinin səs çoxluğu qazanmasına nail olmaq taktikasından hazırda həbsdə yatan multimilyarder Karapetyanın partiyasının məşğul olduğuna diqqəti çəkən deputat yerlərdə bu mexanizmin işlək hala gətirilməsi ilə erməni kilsəsinin məşğul olduğunu bildirdi: "Erməni kilsəsinin bütün bölgələrdə öz nümayəndələri var. Yerlərdəki keşişlər mütəmadi olaraq "ehtiyacı olan" haylara hansısa yardımların çatdırılması ilə mütəmadi şəkildə məşğul olurlar. Onların bu fəaliyyətini qadağan etmək olduqca çətindir. Həmin şəbəkə məhz kilsənin əli ilə seçiciləri Karapetyanın lehinə səs verməyə nail olmaqla vəziyyəti dəyişə bilər. Avropa İttifaqının Nikol Paşiyana hərtərəfli dəstək verməsi, ilk növbədə seçkilərə kənar amillərin müdaxiləsi ehtimalı ilə bağlıdır".

Ermənistan baş nazirinə Avropa Parlamentində çıxışı üçün imkanın yaradılmasını, maliyyə yardımının göstərilməsini təsadüf saymayan R.Musabəyov Avropa İttifaqının bu dəstəyi nümayişkəranə şəkildə etdiyini də vurğuladı: "May ayında Avropa Siyasi Birliyinin İrəvanda Zirvə toplantısının keçiriləcəyi planlaşdırılıb. Həmin tədbirdə ittifaqa üzv dövlətlərin birinci, yaxud ikinci şəxslərinin iştirakı da Nikol Paşinyana əlavə dəstək kimi qəbul edilməlidir. Hər bir halda bu variant bizim üçün də məqbuldur. Çünki Ermənistanda daşnak-revanşistlərin hakimiyyətə gəlməsinin qarşısının alınmasında Avropa İttifaqının da öz töhfəsini verməsi yaxşı haldır".

Beləliklə, iyunun 7-si yaxınlaşdıqca Ermənistanda parlament seçkiləri ilə bağlı siyasi ehtiraslar qızışmaqda və Qərbin Rusiyanın ehtimal edilən müdaxiləsindən əndişələri artmaqdadır. Hazırda Paşinyanın seçkilərdə qələbəsinə "çətir tutmağa" təkcə Avropa İttifaqı deyil, ABŞ da qolunu çırmalamağa hazırdır. Axı Donald Tramp administrasiyası keçən ilin avqustunda Ağ Evdə əldə olunan razılaşmaların real nəticələrlə sonlanmasında maraqlıdır. İkitərəfli və üçtərəfli münasibətlərin inkişaf etdirilməsi ABŞ-ın hazırkı rəhbərliyinin marağındadır. Bunun üçün Vaşinqtona mütləq şəkildə Nikol Paşinyanı hakimiyyətdə saxlamaq lazımdır. Ermənistanda hakimiyyət dəyişikliyi 8 avqust razılaşmalarının pozulmasına, eləcə də ABŞ-ın Cənubi Qafqazda möhkəmlənməsi prosesinin ləngiməsinə səbəb ola bilər. Bunu Vaşinqton kimi Brüssel də çox yaxşı başa düşür.

Biz hələ Ermənistanla ABŞ arasında imzalanan sənədə əsasən TRIPP layihəsinin reallaşması üçün Ağ Ev liderinin Paşinyana dəstəyini artırmasının zəruriliyini demirik. Donald Tramp yaxşı bilir ki, Moskva həmin dəhlizə nəzarəti ələ keçirmək istəyir. Əgər seçkidə rusiyameyilli siyasi qüvvə qalib gəlsə, Paşinyan məğlub olsa, ABŞ-la bağlanan bütün müqavilələrin pozulması gündəmə gətirilə bilər. Belə bədbin proqnozun həyata keçəcəyi təqdirdə, Kremlin 2020-ci il 10 noyabr Bəyanatının 9-cu bəndinə istinad edəcəyi gözləniləndir. Onsuz da rəsmi Moskva həmin üçtərəfli Bəyanatdan əl çəkmək istəmir...

***İ.HƏSƏNQALA***
***XQ***

# Yanlış tezislərin əsiri

## *Marukyan siyasi maraqlarla tarixi faktları təhrif edir*



**"Maarifçi Ermənistan" partiyasının lideri, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə keçmiş səfiri Edmon Marukyan ölkənin baş naziri Nikol Paşinyanın martın 13-də canlı yayımda səsləndirdiyi fikirlərə münasibət bildirib. Qeyd edək ki, Paşinyan həmin videonu "facebook" da "Sülh və müharibə" başlığı ilə paylaşmışdı. O qeyd etmişdi ki, Ermənistanda siyasi qüvvələr 2 qrupa bölünür: ölkəni müharibəyə aparmaq istəyənlər və sülhə nail olmaq istəyən "Mülki müqavilə" partiyası.**

Marukyan isə öz aləmində Paşinyana cavab verməyə çalışıb. Partiya sədri yaydığı videoda bildirib: "Ermənistan rəhbəri Müstəqillik bəyannaməsini münaqişə bəyannaməsi adlandırmaqla, əslində, mahiyyət etibarilə Ermənistan Respublikasının dövlətçiliyi əleyhinə ifadə vermiş olur, yəni guya, münaqişəni onun ölkəsi təhrik edib. Halbuki bu, Azərbaycanın tezisidir. Reallıq isə ondan ibarətdir ki, münaqişəni Ermənistan Respublikası təhrik etməyib. Azərbaycan sovet ərazilərində yaşayan ermənilərə qarşı yönəlmiş siyasət yürüdüb".

O vurğulayıb ki, Müstəqillik bəyannaməsinin Ermənistan Konstitusiyasından çıxarılması, faktiki olaraq, Paşinyan tərəfindən dövlətin "doğum haqqında şəhadətnaməsi"nin əsas qanundan silinməsi deməkdir. Marukyan xatırladıb ki, Konstitusiya Məhkəməsi Müstəqillik bəyannaməsində hər hansı qonşu ölkəyə ərazi iddialarının olmadığını təsbit edib və bu səbəbdən onun Konstitusiyadan çıxarılmasına ehtiyac yoxdur: "Lakin Paşinyan, mahiyyətcə, Konstitusiya Məhkəməsinin bu mövqeyi ilə razılaşmır. Paşinyan xalqı şantaj edir. Bildirir ki, kim onun arxasınca getmirsə, müharibə istəyir. Bu şantaj vasitəsilə o, Ermənistan Respublikasının müstəqilliyinin sütunlarını dağıdır. Paşinyan ölkəni dağıdıcı prosesə sürükləyir".

***

Qeyd etmək yerinə düşər ki, E.Marukyan Ermənistan parlamentinin ardıcıl 3 çağırış (beşinci, altıncı və yeddinci) deputatı, yeddinci çağırış parlamentdə "Maarifçi Ermənistan" fraksiyasının rəhbəri olub. O, qanunverici orqana 2021-ci il iyunun 20-də keçirilən növbədənkənar seçkilərdə qələbə qazana bilməmişdi. Başqa sözlə desək, erməni seçicilər ona mandat verməmişdilər. Bundan sonra – 2022-ci ilin martında N.Paşinyan onu Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri təyin etmişdi. Həmin müddət ərzində Marukyan Azərbaycanla sülh sazişi üzərində işləyən əsas şəxslərdən biri idi. Ancaq o, 2024-cü il fevralın 29-da Paşinyanla fikir ayrılıqlarına görə vəzifəsindən istefa verdiyini açıqlamışdı. İstefasını "Facebook" profilində "son vaxtlar bir sıra fundamental xarici siyasət məsələləri üzrə baxışlarımızdakı fərqlər mənim xarici siyasət cəbhəsində fəaliyyətimi davam etdirməyimi mümkünsüz edir", – yazaraq açıqlamışdı. Məlumdur ki, sonrdan Ermənistan və Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin hazırlanması istiqamətində ciddi irəliləyiş əldə edildi və sənəd 2025-ci il avqustun 8-də Vaşinqtonda paraflandı. Bunu deməkdə məqsədimiz odur ki, E.Marukyan ölkəmizə qarşı revanşist yanaşması ilə seçilən siyasətçidir. Belələri isə iki dövlətin və xalqın sülhə yaxınlaşmaq yolunda hər zaman ciddi maneə olublar.

Bu gün onun səsləndirdiyi fikirlər də ilk baxışdan siyasi diskussiya təsiri bağışlaya bilər, amma bu çıxış mahiyyət etibarilə tarixi faktların təhrifinə və məsuliyyətin məqsədli şəkildə yayındırılmasına söykənir. Onun "münaqişəni Ermənistan təhrik etməyib" iddiası nə arxiv sənədləri, nə də hadisələrin xronologiyası ilə bir araya sığmır. Qarabağ münaqişəsinin başlanğıc mərhələsinə nəzər saldıqda aydın görünür ki, proseslər məhz Ermənistanın siyasi və ideoloji mərkəzlərindən idarə olunan separatçı hərəkatın fəallaşdırılması ilə alovlanıb. 1988-ci ilin fevralından etibarən Xankəndi və İrəvanda təşkil edilən mitinqlər, "miatsum" şüarları və Azərbaycanın ərazi bütövlüyünə açıq çağırışlar münaqişənin sistemli şəkildə qızışdırıldığını göstərirdi. Bu, spontan proses yox, konkret məqsədə hesablanmış xətt idi.

Marukyanın Azərbaycanın, guya, sovet dövründə ermənilərə qarşı siyasət yürütməsi ilə bağlı iddiası da eyni dərəcədə əsassızdır. SSRİ çərçivəsində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycanın tərkibində xüsusi statusa malik idi və erməni əhali həm mədəni, həm də inzibati sahədə geniş imkanlara sahib idi. Əksinə, həmin dövrdə azərbaycanlı əhaliyə qarşı Ermənistanda aparılan etnik təmizləmə siyasəti nəticəsində yüz minlərlə insan öz doğma yurdlarından qovuldu. Marukyan nədənsə bu faktları "görmür".

Ən əsas məqam isə ondan ibarətdir ki, Ermənistanın sonrakı mərhələdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğal etməsi, şəhər və kəndlərin dağıdılması, mülki əhaliyə qarşı ağır cinayətlərin törədilməsi münaqişənin kim tərəfindən genişləndirildiyini açıq şəkildə ortaya qoyur. Bu faktlar BMT-nin 4 məlum qətnaməsində də öz əksini tapıb. Belə olan halda, Marukyanın məsuliyyəti Azərbaycanın üzərinə atmaq cəhdi nə hüquqi, nə də tarixi baxımdan dayanıqlı deyil. Bu yanaşma, sadəcə, yaxınlaşan seçkilər ərəfəsində daxili auditoriyaya hesablanmış mövqe kimi görünür və reallığı dəyişdirmək gücündə deyil.

Onun Paşinyana yönələn ittihamlarına gəldikdə isə, deməliyik ki, bu fikirlərin də arxasında ciddi məntiqi boşluqlar və məqsədli siyasi təhrif dayanır. Müstəqillik bəyannaməsini "dövlətin doğum haqqında şəhadətnaməsi" kimi təqdim etməsi ilk baxışdan cəlbedici görünür, lakin bu yanaşma reallığı sadələşdirərək ictimai rəyi yanlış istiqamətə yönəltmək cəhdidir. Çünki dövlətçilik təkcə simvolik sənədlərlə ölçülmür. Onun əsas göstəricisi beynəlxalq hüquqa uyğun davranış, qonşuların ərazi bütövlüyünə hörmət və real siyasətdə məsuliyyətli qərarlardır. Paşinyan da hazırda məhz belə xətt yürütməyə çalışır. Bu yanaşma regionda uzunmüddətli sabitliyin təmin olunması baxımından daha rasional görünür. Çünki davamlı qarşıdurma siyasəti Ermənistanı illərlə təcrid vəziyyətində saxlayıb və ciddi itkilərə səbəb olub. Reallıqları nəzərə almadan verilən qərarlar isə ölkəni yeni risklərlə üz-üzə qoya bilər. Paşinyanın atdığı addımlar məhz bu riskləri minimuma endirmək və daha praqmatik xətt formalaşdırmaq məqsədi daşıyır.

Daha problemli məqam isə onun Paşinyanı şantajda ittiham etməsidir. Bu ittiham yenə də daxili auditoriyanı emosional şəkildə istismar etməyə yönəlmiş ucuz siyasi gedişdən başqa bir şey deyil. Əslində isə Marukyan özü cəmiyyətdə qorxu və qarşıdurma mühiti yaratmağa çalışır. Belə şəxslər hesab edirlər ki, ya onların dedikləri kimi düşünməlisən, ya da "dövlətçiliyin məhvinə razılaşan" tərəf kimi təqdim olunmalısan. Bu isə istənilən cəmiyyətdə siyasi qütbləşməni dərinləşdirən yanaşmadır. Onun "müstəqilliyin sütunlarının dağıdılması" barədə iddiası da reallıqdan uzaqdır. Əksinə, son illərdə Ermənistanın üzləşdiyi problemlər məhz illərlə yığılan yanlış siyasətin, əsassız iddiaların və regionda davamlı qarşıdurma xəttinin nəticəsidir. Bu gün həmin yanaşmaların yenidən nəzərdən keçirilməsi cəhdini "dağıdıcı proses" kimi təqdim etmək isə ya siyasi korluqdur, ya da köhnə səhvləri davam etdirmək istəyi. Bütün bunların fonunda Marukyanın mövqeyi daha çox daxili siyasi dividend qazanmağa hesablanmış çıxış təsiri bağışlayır. O, mürəkkəb və həssas bir məsələni sadə şüarlara endirərək cəmiyyətə yanlış seçim təqdim edir. Halbuki Ermənistanın qarşısında duran əsas məsələ emosional çağırışlar deyil, reallıqlara əsaslanan, məsuliyyətli və uzunmüddətli dövlət siyasətinin formalaşdırılmasıdır.

***Səxavət HƏMİD***
***XQ***

# Regional və qlobal əməkdaşlıqda Azərbaycan təcrübəsi



## I MƏQALƏ

### Siyasi təcrübə

Ümumi halda siyasi təcrübə fərdlərin, qrupların və bütövlükdə cəmiyyətin siyasi həyatda iştirakı zamanı formalaşan biliklər, vərdişlər, duyğular və praktiki fəaliyyətlərin kompleksini ifadə edir. Siyasi təcrübədə hakimiyyət münasibətləri sferası mühüm yer tutur. Lakin daha geniş anlamda bütövlükdə cəmiyyətin həyatının siyasi aspektində əldə edilən və ümumi legitimliyi olan bilik, vərdiş, duyğu və praktiki fəaliyyət sistemi də mövcuddur. Siyasi təcrübə bu baxımdan olduqca əhəmiyyətlidir, çünki bütövlükdə ölkənin siyasi hakimiyyəti ilə sosial mühit arasında münasibətlərin vacib tərəfini ifadə edir.

Tədqiqatçılar siyasi təcrübənin bir sıra əlamətlərini vurğulayırlar: tarixilik, praktikilik, fərdi və qrup səviyyələri, funksionallıq. Tarixilik təcrübənin nəsildən-nəslə ötürülməsini ifadə edir. Praktikilik siyasi davranışa aiddir. Fərdi və qrup səviyyəsi ayrıca fərdin təcrübəsi ilə kollektiv təcrübənin münasibətlərini ifadə edir. Funksionallıq hakimiyyət alətindən istifadə edərək siyasətin subyektlərinə öz maraq və məqsədlərini reallaşdırmağa yardım edir.

Deməli, təcrübə yekunda siyasi sistemin işinə təsir edən müəyyən davranış kompleksini formalaşdırır. Buradan özlüyündə siyasi təcrübə ilə siyasi mədəniyyət arasında sıx bağlılıq aydın olur. Bəzi tədqiqatçılar hətta onları eyniləşdirirlər. Fərqli düşünənlər də vardır. Lakin bizcə, siyasi təcrübə tam olaraq siyasi mədəniyyət deyildir. Əlbəttə, hər bir mədəniyyət növündə cəmiyyətin təcrübəsi ciddi yer tutur. Mədəniyyət toplumun qazandığı təcrübənin dinamikasında yaranır. Lakin "mədəniyyət" bir anlayış olaraq "təcrübə"dən fərqli səviyyədə və məzmunda təsdiqini tapır. Bütövlükdə mədəniyyət təcrübədən daha ümumidir. Eyni zamanda, təcrübə hər bir tarixi kəsimdə mədəniyyətin formalaşmasında mühüm rol oynayır.

Bu baxımdan siyasi təcrübə siyasi mədəniyyətin atributlarından biridir. Görünür, məhz həmin səbəbdən, indi siyasilər və tədqiqatçılar siyasi təcrübə anlayışına çox ciddi fikir verirlər. Xüsusilə, dövlətlə cəmiyyətin ortaq təcrübəsi kimi bu anlayış dövlət identikliyinin mühüm göstəricisidir. Müasir dövlətlərin beynəlxalq miqyasda fəaliyyətinin məzmun və mahiyyətində vurğuladığımız anlamda siyasi təcrübə (dövlət təcrübəsi+cəmiyyət təcrübəsi) əhəmiyyətli yer tutur.

Vurğulanan fikirlərin fonunda Azərbaycanın müstəqil dövlət kimi siyasi təcrübəsinin özəllikləri ciddi elmi və politoloji anlama malikdir. 2026-cı il martın 12-də keçirilən və "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr edilmiş XIII Qlobal Bakı Forumunda çıxışı zamanı Prezident İlham Əliyev Azərbaycanın siyasi təcrübəsinin çox maraqlı təsnifini vermişdir. Onun tam anlamı üzərində dayanmaq daha geniş konseptual yanaşma tələb edir. Biz burada bir neçə məqamlar üzərində dayanmağa çalışacağıq.

### Milli səviyyədə təsisatlaşmış təcrübə

Azərbaycan Prezidenti Qlobal Bakı Forumu və ona oxşar digər forumlarda əsas yanaşmanı aşağıdakı kimi təqdim etmişdir: "Həyatımızın müxtəlif sahələrini əhatə edənlər bir araya gələrək fikir mübadiləsi aparır və təcrübə paylaşırlar, qeyd etdiyim kimi, xalqların həyatını daha yaxşı və daha təhlükəsiz etmək üçün ideyalar irəli sürürlər". Deməli, bu kimi tədbirlər üçün müstəqil dövlətlərin milli səviyyədə institusionallaşmış siyasi təcrübələrinin təhlili əsas məsələlərdən biri kimi diqqət mərkəzində olur. Başqa halda, təcrübə paylaşımı "xalqların həyatını daha yaxşı və daha təhlükəsiz etmə"yi təmin etməz. Siyasi təcrübə mübadiləsi institusional və təşkil olunmuş səviyyədə qazanılan təcrübələrin paylaşımı kimi mübadilə edilməlidir. Bu anlamda "institusionallaşmış siyasi təcrübə" nə deməkdir?

Bizcə, bu ifadə hakimiyyət və cəmiyyətin, praktiki olaraq, qarşılıqlı münasibətlər müstəvisində əldə etdikləri və dövlətin siyasi həyatının əsas məqamlarına aid olan biliklər, vərdişlər, duyğular və praktiki fəaliyyət sisteminə aiddir. Yəni burada konseptual-nəzəri yanaşma ilə praktiki fəaliyyətin sintezi vacibdir. Ancaq yetərli şərt deyildir.

İkinci şərt hakimiyyətlə cəmiyyətin ortaq siyasi təcrübəsinin dövlət idarəedilməsi zamanı institusional legitmiliyi hakimiyyətlə yanaşı, bütövlükdə, cəmiyyət tərəfindən qəbul edilməsindən ibarət olmalıdır. Yəni bu anda dövlətin institutları siyasi təcrübəni reaktuallaşdıra bilər (təkrar-təkrar aktuallaşdırar və onu praktiki sferaya tətbiq edə bilər), lakin məhz bu prosesin legitmiliyi həm də, ümumiyyətlə, cəmiyyət tərəfindən tanınmalıdır.

Deməli, müasir anlamda siyasi təcrübə iqtidarla cəmiyyətin ortaq nəzəri və praktiki təcrübəsidir. Onun konseptual-nəzəri tərəfi dövlət institutları tərəfindən hazırlanır, praktiki müstəvidə isə cəmiyyət tərəfindən legitimliyi qəbul edilir. Ancaq dövlət institutları qarşısında bu istiqamətdə vəzifələri dövlət başçısı müəyyən edir. Bununla da liderin siyasi təcrübədə aparıcı və müəyyənedici rolu legitim olaraq tanınır.

Hər bir müstəqil dövlət üçün institusional səviyyədə siyasi təcrübə onu təşkil edən komponentlər və qarşıya qoyulan məqsədlər baxımında fərqlənə bilər. Buna görə də xüsusi olaraq konkret ölkənin siyasi təcrübəsindən danışmaq mümkündür.

Azərbaycan təcrübəsi bu baxımdan Avrasiya üçün bir nümunə ola bilər! Ancaq konkret ölkənin siyasi təcrübəsi sıx surətdə bütövlükdə dünya üçün aktual olan siyasi məqamlara bağlı olmalıdır. Bu aspektdə Azərbaycanın siyasi təcrübəsinin bir sıra xüsusiyyətlərinə nəzər salaq.

### Azərbaycan təcrübəsinə ümumi yanaşma

Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunda Azərbaycan üçün ümumi yanaşmanı dəqiq ifadə etmişdir. Dövlət başçısı çıxışı zamanı vurğulamışdır: "Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik və sabitlik əsas amillər olmalıdır və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik".

Burada 3 vacib məqam ifadəsini tapmışdır.

Birincisi, müstəqil dövlətin siyasi təcrübəsi üçün bütövlükdə dünya miqyasında aktual olan "təhlükəsizlik, sabitlik və müdafiə məsələləri"nin bir nömrəli prioritet olması ciddi əhəmiyyət kəsb edir.

İkincisi, həmin kontekstdə hər bir ölkə dərk etməlidir ki, özünün inkişafı baxımından "ciddi risklərlə üzləşmişdir". Siyasi təcrübə həm bu cür vəziyyətin yaranmasını, həm də risklərin meydana gəlməsi xüsusiyyətlərini özündə ehtiva etməlidir.

Üçüncüsü, ayrı-ayrı ölkələr öz siyasi təcrübələrini təhlükəsizlik və sabitliyi əsas amillər kimi qəbul etmək əsasında səylərini vahid istiqamətdə birləşdirməlidirlər.

Burada semantik olaraq maraqlı bağlantı belədir: təhlükəsizlik, sabitlik inkişaf naminə vahid məntiqi yanaşma prizmasında dərk edilməlidir və eyni zamanda, onu dövlətlərarası münasibətlər miqyasına adekvat proyeksiya etməyi bacarmalıdır. Belə alınır ki, Azərbaycan təcrübəsində milli səviyyədə qazanılan siyasi təcrübənin mütləq daha geniş miqyasa proyeksiya olunmaq imkanı da nəzərə alınır. Bu cür transformasiya dövlətin fəaliyyət sahəsini genişləndirir və eyni zamanda, dünya siyasi təcrübəsinin formalaşmasında aktiv rol oynaması üçün zəmin hazırlayır.

Buradan Prezident İlham Əliyevin Azərbaycanın siyasi təcrübəsinin iki vacib özəlliyinə məharətli siyasi-nəzəri və konseptual keçidi vardır.

Birincisi, Azərbaycanın dünya miqyasında nadir sayıla bilən təcrübəyə malik olması.

İkincisi, milli miqyasda sülh və suverenliyin bərpasını uğurla regional təhlükəsizlik səviyyəsinə proyeksiya etmək əsasında təcrübənin qazanılması.

### Dünya miqyasında nadir təcrübə

Dövlət başçısı XIII Qlobal Bakı Forumunda ayrıca vurğulamışdır: "Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. Beləliklə, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi. Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri yalnız kağız üzərində qalırdı. Beləliklə, bu bir təcrübədir, amma bu, mənfi təcrübə olmuşdur".

Bu təcrübə ona görə "mənfi"dir ki, Azərbaycan xalqı və dövlətinin inkişafına deyil, ekzistensial mövcudluğunu təmin etmək üçün apardığı ağrılı mübarizəyə aiddir. Onu mənfi edən cəmiyyətin Vətən torpağının işğal altında olan bir qisminin həsrətini və əziyyətini çəkməsi ilə bağlıdır.

Doğrudan da, "milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi" həmin vəziyyətdən çıxmaq üçün faydalı olan kollektiv daxili yaşantının mənfi psixoloji fonu ilə müşaiyət olunmuşdur. Azərbaycanlılar təbiətən azadlıqsevər olduqlarından həmin müddətdə topladıqları təcrübənin ağrı-acısını mübarizə əzminə çevirə bilmişlər. Həmin təcrübənin qiymətli cəhəti bundan ibarətdir və dünya xalqları onu öyrənməlidirlər.

Uzun müddət işğal altında qal, lakin azadlıq əzmini və onun uğrunda mübarizə ruhunu itirmə! Azərbaycan bu aspektdə çox faydalı təcrübəyə malikdir. Hətta zamanca, xeyli əvvəllərə də gedə bilərik. Əsrlərlə Azərbaycan xalqı yad cəmiyyətin siyasi, mənəvi, əxlaqi, ərazi təzyiqləri ilə üz-üzə qaldı. Müstəqil olmaq istəyi amansız deportasiyalar, soyqırımlar və aşağılamalarla qarşılaşdı. Milli ləyaqəti ağır zərərlər gördü. XX əsrin son onilliyində bu vəziyyət havadarlarının böyük dəstəyi ilə Azərbaycan torpaqlarının 20 faizini işğal edən Ermənistanın davranışları sayəsində daha faciəvi məzmun aldı və həmin vəziyyət 30 ildən artıq davam etdi.

Lakin Azərbaycan cəmiyyəti bu mənfi təcrübəni müsbət təcrübəyə çevirmək qüdrətini dünyaya göstərdi. Azərbaycanın dövlət başçısı həmin kontekstdə, sözün həqiqi mənasında, tarixi olan o təcrübəni digər xalqların da öyrənməsi zərurətini xüsusi vurğulayır. Dövlət başçısı göstərir ki, həmin təcrübənin tarixi ədaləti, hüququ və milli ləyaqəti bərpa etmək şansı yarada biləcəyini Azərbaycan nümunəsində konkret faktlarla göstərir.

Eyni zamanda, ölkə rəhbəri məsələnin regional təhlükəsizlik kontekstini ayrıca vurğulayır. Bu məqam Azərbaycan Prezidentinin aşağıdakı maraqlı fikrində öz ifadəsini tapmışdır.

Azərbaycan Prezidenti demişdir: "Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub. Çünki mən Bakıda bir çox forumlardakı çıxışlarımda qeyd etmişəm ki, işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq, hələlik cəmi yeddi aydır. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun. Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququ çərçivəsində həyata keçirdik".

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Asiya nəhəngi" ilə dərinləşən əlaqələr

*Azərbaycan hakimiyyətinin müdrik siyasi kursu Çinlə münasibətləri yeni zirvəyə daşıyır*

**Mövcud reallıqlar Azərbaycan və Çin arasında əlaqələrin yalnız diplomatik xarakter daşımadığını, mühüm geosiyasi maraqlara söykəndiyini aydın göstərir. Tərəflər arasında qarşılıqlı hörmətə əsaslanan sıx təmaslar qlobal münasibətlər sistemində mütləq sabitləşdirici faktor qismində çıxış edir. Prezident İlham Əliyevin ötən il Çin Xalq Respublikasına dövlət səfərindən sonra əlaqələrimizin daha da inkişaf edərək ən yüksək səviyyəyə qalxdığını qeyd etmək prosesin təməlini təşkil edir.**

Məsələ ondan ibarətdir ki, liderlərin qətiyyətli iradəsi sayəsində ortaq dialoq institusional təməllər üzərində bərqərar olub. Keçənilki əhəmiyyətli səfər çərçivəsində aparılan müzakirələr, imzalanan mühüm sənədlər tərəfdaşlığın bütün istiqamətlərində çoxşaxəli inkişaf dinamikası yaradıb. Diplomatik əlaqələrin intensivliyi hökumətlərin qarşılıqlı etimad səviyyəsinin maksimal həddə çatmasını təsdiqləyir.

Şərqdən Qərbə doğru uzanan transmilli logistika xətlərinin kəsişməsində dayanan Azərbaycan rəsmi Pekinin həyata keçirdiyi kəmər və yol təşəbbüsünün ən fəal iştirakçılarındandır. Tranzit imkanlarının əsaslı yekuna çatıb. Hər iki dövlətin nümayəndə heyətlərinin mütəmadi olaraq fərqli sahələr üzrə görüşlər keçirməsi bürokratik əngəllərin aradan qaldırılmasını sürətləndirir, səmərəliliyi qat-qat artırır. Kompüter texnologiyaları, "ağıllı" cihazlar istehsalı, robotexnika istiqamətində yaranan təşəbbüslər ölkəmizdə gələcəyin sənaye bazasını bilavasitə formalaşdırır. Beynəlxalq ekspertlərin diqqət çəkdiyi əsas məqam, tərəflərin iqtisadi asılılıq yaratmadan təmiz, tam qarşılıqlı mənfəət əsasında, yüksək hörmət rejimində əlaqələr qurmasıdır. Qeyd olunan faktor strateji münasibətlərin fəlsəfəsini, qlobal güclərlə balansı ideal



şəkildə genişləndirilməsi, Xəzər dənizi üzərindən keçən Orta Dəhlizin funksionallığının artırılması hər iki dövlətin milli maraqlarına tam cavab verir. İqtisadi fəaliyyət sahəsində dövriyyənin həcmi artmaqla bərabər, şaxələndirmə prosesi fasiləsiz şəkildə davam edir. Şərq nəhənginin şirkətlərinin ölkəmizin sənaye, texnologiya, rəqəmsal transformasiya sektorlarında iştirakı kəskin sürətlənmiş, kapital axını optimallaşmışdır. İnvestisiya mühitinin cəlbediciliyi müvafiq korporasiyaların respublikamıza sərmayə qoyuluşunu intensivləşdirir. Xarici siyasətdə suverenlik, ərazi bütövlüyü prinsiplərinə qarşılıqlı dəstək ikitərəfli əlaqələrin sarsılmaz, etibarlı təməlini formalaşdırır. Çin hökuməti respublikamızın ərazi bütövlüyünü şərtsiz dəstəkləyir. Rəsmi Bakı isə Vahid Çin prinsipini bütün mötəbər tribunalarda qətiyyətlə müdafiə edir.

Siyasi dialoqun mütəmadi xarakter alması müxtəlif beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyəti də asanlaşdırır. Beynəlxalq qurumlar daxilində səsvermələrdə, çoxtərəfli məşvərət formatlarında davamlı həmrəylik nümayiş etdirilir. Cənubi Qafqaz bölgəsinin təhlükəsizliyi qlobal logistika arteriyalarının daimi işlək vəziyyətdə qalması üçün son dərəcə vacib şərtdir. Asiyanın qüdrətli dövləti bölgədəki stabilliyin əsas qarantlarından qismində çıxış edərək tərəqqinin davamlılığını dəstəkləyir. Rəhbərlik Asiya qitəsini Avropa məkanına bağlayan tranzit yollarının təhlükəsiz fəaliyyətini xüsusi əhəmiyyətli məsələ kimi dəyərləndirir. Avrasiya məkanında gedən mürəkkəb siyasi proseslər respublikamızın geostrateji əhəmiyyətini durmadan artırır. Rəsmi Bakı Asiyanın böyük gücləri ilə çoxşaxəli münasibətləri dərinləşdirməklə qlobal konyunkturdakı yerini dəmir məntiq əsasında möhkəmləndirir. Rəqəmsal iqtisadiyyat, süni intellekt, informasiya texnologiyaları sferasında mütərəqqi təcrübə paylaşımı ardıcıl həyata keçirilir. Texnoloji inkişafın mərkəzində dayanan əsas sənaye sahələrindəki müştərək fəaliyyət müasir innovasiyaların ölkəmizə transferini tezləşdirir.

Qlobal siyasi arenada müşahidə olunan mürəkkəb ziddiyyətlər fonunda rəsmi Bakı təmkinli xətt tutaraq bütün strateji tərəfdaşları ilə balanslı əlaqələri qoruyub saxlayır. Digər dövlətlərin suveren hüquqlarına hörmət, daxili işlərə qəti surətdə qarışmama prinsipləri hər iki rəhbərliyin beynəlxalq hüquqa konseptual yanaşmasının eyniliyini əks etdirir. Qeyd edilən fəlsəfə qlobal asayişin ədalətli nizamını tələb edən vacib analitik yanaşmadır. Hazırkı reallıqda dünyanın aparıcı dövlətləri ilə balanslı, eyni zamanda, səmərəli münasibətlərin saxlanması milli təhlükəsizlik baxımından əvəzsiz rasional prioritet sayılır.

Rəsmi Bakı Qlobal Cənub konsepti çərçivəsində, inkişaf edən qitə ölkələri ilə təmaslarda fəallıq nümayiş etdirir. İki dövlət arasındakı strateji məsləhətləşmələr keçmiş onilliklərin qazandırdığı qarşılıqlı hörmət bazasına əsaslanaraq möhtəşəm məntiqi dərəcədə tənzimləyir. Böyük İpək Yolunun tarixi ənənələri əsasında yenidən qurulan müasir nəqliyyat qovşaqları iqtisadi gücün tam olaraq mərkəzə doğru yönəlməsinə zəmin yaradır. Həmin yanaşma sivilizasiyalararası dialoqun sağlam zəmində təşəkkül tapmasını şərtləndirən ən mühüm vasitədir. Coğrafi uzaqlığa baxmayaraq, dəqiq tənzimlənmiş qlobal kommunikasiya vasitələri məsafələri fiziki baxımdan minimuma endirir.

İnsan kapitalının inkişafına yönələn siyasət müasir trendlərin öyrənilməsi məqsədilə fəal gənclərin Asiyanın intellektual ali məktəblərində ixtisaslaşmasına zəmin yaradır. Qlobal mədəniyyət platformalarında respublikamızın haqq səsini, milli həqiqətlərini geniş ictimaiyyətə çatdırmaq məqsədilə müvafiq ölkənin qabaqcıl media resursları ilə koordinasiyalı fəaliyyət təqdirəlayiqdir. Asiyanın nəhəng informasiya məkanında ölkəmizin mövqeyinin, zəngin mədəni irsinin, davamlı sülh təşəbbüslərinin obyektiv işıqlandırılması milli təbliğat işinin ən mükəmməl nümunəsidir. Keçən onilliklərin uğurlu nəticəsi olaraq ortaq tarixi maraqlara hörmət indiki qlobal strateji qərarların sağlam təməlini təşkil edir. Belə qlobal miqyaslı mükəmməl əlaqələr cəmiyyətin sosial rifahının yüksəlməsinə, iqtisadiyyatın həcminin artmasına real, toxunula bilən töhfə verir. Hər iki tərəf hegemonizmə, təkqütblü dünya nizamına qarşı sərt mövqe sərgiləyərək çoxtərəfli beynəlxalq hüquq sisteminin bərpasını qətiyyətlə müdafiə edir. İki ölkə arasındakı müntəzəm məsləhətləşmələr eyni vaxtda BMT Təhlükəsizlik Şurasının nüfuzlu üzvünün bölgəmizdə formalaşmış mütərəqqi status-kvonu tanımasının tam qanuni göstəricisidir. Xarici diplomatik nümayəndəliklərin qarşılıqlı sıx təması operativ məlumat mübadiləsi yaratmaqla baş verə biləcək xarici informasiya təxribatlarının qarşısını dərhal alır.

Həmrəylik və tam etimad fonunda inkişaf edən davamlı proseslər qarşıdakı dövrlərdə ölkəmizin tərəqqisinə iqtisadi, həmçinin siyasi dividentlər gətirməkdə davam edəcək. Diplomatik addımlar siyasi səhnədə çevik, dürüst, ən əsası isə nəticəyönümlü xarakter nümayiş etdirir. Sülh, tərəqqi, daimi qarşılıqlı anlaşma təntənə ilə real fəaliyyətdədir. Asiya ilə dərin inteqrasiya xətti milli qüdrətimizin artmasına əvəzedilməz töhfəsini nümayiş etdirərək dövlətimizi rifahın ən yüksək, ən işıqlı zirvəsinə inamla aparır. Əməkdaşlığın keyfiyyət ölçüləri fərqli qlobal reallığı bütün aydınlığı ilə təcəssüm etdirərək dövlətlərarası hüququn ədalətli, dürüst, işlək mexanizmlərini tərəddüdsüz ortaya qoyur. Asiyanın qlobal nəhəngi ilə iqtisadi, logistik, innovativ sferalarda tərəqqiyə nail olunması mövcud rəhbərliyin müdrik səylərinin bilavasitə nəticəsidir. Əminik ki, gələcək nəsillər formalaşan qlobal tranzit əhəmiyyətini fəxrlə yaşadacaqlar.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

*Böyük Qayıdışın hədəfləri*

# Qarabağ ümummilli quruculuq cəbhəsidir





*(əvvəli 1-ci səhifədə)*

Böyük Qayıdış konsepsiyası Azərbaycan dövlətinin postmünaqişə dövründə həyata keçirdiyi ən mühüm strateji prioritetlərdən biridir. Bu proses, uzun illər ərzində işğal altında qalmış ərazilərdən məcburi köçkün düşmüş insanların öz doğma torpaqlarına təhlükəsiz, ləyaqətli və davamlı şəkildə qayıdışını təmin etməyə yönəlib. Azad olunmuş ərazilərdə infrastrukturun – yolların, elektrik xətlərinin, su və qaz təminatının, rabitə sistemlərinin yenidən qurulması bu prosesin əsasını təşkil edir. Paralel olaraq, müasir standartlara uyğun yaşayış məntəqələri, “ağıllı kənd” və “ağıllı şəhər” layihələri həyata keçirilir ki, bu da qayıdan əhalinin yüksək həyat şəraiti ilə təmin olunmasına xidmət edir.

Sosial aspekt baxımından Böyük Qayıdış proqramı məşğulluğun artırılması, təhsil və səhiyyə xidmətlərinin bərpası, eləcə də iqtisadi aktivliyin stimullaşdırılması ilə müşayiət olunur. Dövlət tərəfindən sahibkarlığın təşviqi, investisiya mühitinin yaxşılaşdırılması və kənd təsərrüfatının inkişafı üçün müxtəlif güzəştlər tətbiq edilir. Bu yanaşma həmin ərazilərin uzunmüddətli iqtisadi dayanıqlılığını təmin etməyə hesablanıb.

Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası hazırda uğurla davam etməkdədir. Bu uğurun arxasında böyük maliyyə vəsaiti və dövlətin möhkəm iradəsi dayanır. 2020-2025-ci illərdə Qarabağ və Şərqi Zəngəzurun bərpası üçün dövlət büdcəsindən 22 milyard manat maliyyə ayrılıb. Bu il həmin ərazilərin yenidən qurulmasına 3,5 milyard manat vəsait nəzərdə tutulub. Beləliklə, cari il də daxil olmaqla bu məbləğ 25,5 milyard manata çatdırılacaq.

Hazırda azad edilmiş ərazilərdə 75 mindən çox vətəndaş yaşayır və müxtəlif sahələrdə fəaliyyət göstərir. Eyni zamanda, təhlükəsizlik məsələləri də əsas prioritetlərdəndir. Mina və partlamamış hərbi sursatların təmizlənməsi, hüquq-mühafizə və ictimai təhlükəsizlik sistemlərinin qurulması qayıdışın davamlılığını təmin edən vacib amillərdir. 2025-ci ildə 69,2 min hektar sahə təmizlənib, 2020-ci ildən etibarən isə ümumilikdə 249 min hektara yaxın ərazi mina və partlamamış hərbi sursatlardan azad olunub. 2026-cı ildə əlavə olaraq 65 min hektardan artıq sahənin təmizlənməsi planlaşdırılır.

Qeyd edək ki, intensiv olaraq Qarabağ və Zəngəzura keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilir. Martın 17-də Ağdərə, Xocavənd və Cəbrayıl rayonlarının kəndlərinə növbəti köç karvanları yola salınıb. Ağdərə rayonunun Çıldıran, Aşağı Oratağ, Heyvalı və Çapar, Xocavənd rayonunun Xocavənd, həmçinin Cəbrayıl rayonunun Horovlu kəndlərinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Bu mərhələdə Ağdərə rayonunun Çıldıran kəndinə 3 ailə–13 nəfər, Aşağı Oratağ kəndinə 21 ailə–108 nəfər, Heyvalı kəndinə 7 ailə–34 nəfər, Çapar kəndinə 4 ailə–17 nəfər, Həsənriz kəndinə 6 ailə–29 nəfər, Xocavənd rayonunun Xocavənd kəndinə 11 ailə–36 nəfər, həmçinin Cəbrayıl rayonunun Horovlu kəndinə 30 ailə–131 nəfər köçürülüb.

Geri qayıdan əhalinin rifahını təmin edən əsas amillərdən biri onların yaşayış evlərinin bərpasıdır. Aydındır ki, müasir infrastruktur qurulmadan və lazımi şərait yaradılmadan keçmiş məcburi köçkünlərin bu ərazilərə qayıdışı mümkün deyil. Bu məqsədlə 2026-cı ildə Xocavənd şəhərində 792 evin təmir edilməsi planlaşdırılır.

Bu barədə ötən ayın sonunda Prezidentin izi ilə rayona təşkil olunan mediatur çərçivəsində jurnalistlərə açıqlamasında Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Fidan Məmmədli bildirib: "Xocavənd rayonu işğaldan azad edildikdən sonra burada yenidənqurma və bərpa işləri sürətlə davam etdirilir. Xocavənddə 980 fərdi ev mövcuddur. Onlardan da 133-ü yararsız, 847-si isə qismən yararlıdır. Qismən yararlı evlərdən 55-i artıq istismara hazırdır. Bu il ərzində daha 792 ev təmir ediləcək".

Qeyd edək ki, ölkəmizin sosial-iqtisadi inkişafını davam etdirmək, xarici və daxili investisiyaları artırmaq, biznes mühitini yaxşılaşdırmaq, iqtisadiyyatın texnologiya və bilik əsaslı olmasını gücləndirmək və işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışı davamlı etmək məqsədilə 30 may 2025-ci ildə Prezident “Azərbaycanın 2027–2030-cu illər sosial-iqtisadi inkişaf Strategiyası” və “İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın II Dövlət Proqramı”nın hazırlanması barədə sərəncam imzalayıb. Baş nazir Əli Əsədov parlamentdə Nazirlər Kabinetinin hesabatını təqdim edərkən deyib ki, “Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın layihəsi hazırlanıb, İqtisadi Şurada müzakirə olunub. Hər iki sənədin layihəsi hökumət tərəfindən artıq Prezidentə təqdim olunub.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

Azərbaycanda Böyük Qayıdış proqramı uğurla icra olunur. Artıq 75 mindən çox vətəndaşımız Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşayır və fəaliyyət göstərir. Onların 30 mindən çoxunu keçmiş məcburi köçkünlər təşkil edir.

Bu göstərici davamlı şəkildə artır. Hər həftə Qarabağ və Şərqi Zəngəzura qayıdan, orada məskunlaşan və əmək fəaliyyətinə başlayan vətəndaşların sayında artım müşahidə olunur. Eyni zamanda, Böyük Qayıdışdan sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafına artıq 22 milyard manatdan çox vəsait yönəldilib.

Gözlənilir ki, cari ildə bu məbləğ ən azı 3,5 milyard manat artacaq. Bu isə o deməkdir ki, 2026-cı il də daxil olmaqla, ümumilikdə Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulmasına yönəldilən vəsaitin həcmi təxminən 26 milyard manata çatacaq. Bu, eyni zamanda, regionda müasir infrastrukturun formalaşması deməkdir ki, bu da ölkə iqtisadiyyatı və qeyri-neft sektorunun inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın qeyri-neft sektorunun əsas inkişaf mərkəzlərindən birinə çevrilməkdədir. Bu proses vaxtilə işğal altında qalmış ərazilərin ölkənin ümumi iqtisadi inkişafında rolunun artmasını şərtləndirir.

İlkin qiymətləndirmələr göstərir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaxın perspektivdə Azərbaycanın ümumi iqtisadiyyatının təxminən 10 faizinin formalaşmasına töhfə verə bilər. Bu isə o deməkdir ki, regionda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, eləcə də dövlət dəstəyi nəticəsində yaxın illərdə həmin ərazilərdə təxminən 15 milyard manatlıq yeni əlavə dəyərin yaradılması mümkündür.

Qeyd olunan əlavə dəyər əsasən qeyri-neft sektorunda formalaşacaq. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzurun iqtisadiyyatının diversifikasiyası, ümumi məhsul istehsalının artım tempinin sürətlənməsi və qeyri-neft ixracının genişlənməsi istiqamətində mühüm töhfə verəcəyi gözlənilir.

Beləliklə, yaxın mərhələdə Qarabağ və Şərqi Zəngəzurun qeyri-neft məhsullarının istehsalı və ixracı sahəsində əsas hərəkətverici qüvvələrdən birinə çevrilməsi reallığa çevrilməkdədir.

*Dünyaya inteqrasiya*

# Ötən il ölkəmizə 6,6 milyard dollar xarici investisiya yatırılıb



**“2025-ci ildə Azərbaycan Mərkəzi Bankının cari əməliyyatlar balansında 3,5 milyard dollarlıq profisit formalaşıb. Bu da ümumi daxili məhsulun 4,6 faizini təşkil etməklə əvvəlki ilə nisbətən 24 faiz azdır. Cari əməliyyatlar balansının ötən il üzrə profisitinin həcmi isə makro iqtisadiyyatın dayanıqlığı baxımından müsbət hesab edilir”.**

Bu barədə Mərkəzi Bankın Statistika departamentinin direktoru Samir Nəsirov 2025-ci ilin yekunlarına dair tədiyə balansının açıqlanmasına həsr olunmuş mətbuat konfransında məlumat verib.

Hazırda Yaxın Şərqdə, İran ətrafında baş verən hadisələrin Azərbaycan Mərkəzi Bankı tərəfindən izlənildiyini vurğulayan bank rəsmisi deyib: “Hadisələr iki həftədən bir az çoxdur ki, başlayıb. Bunun əsasında müxtəlif qlobal əmtəə qiymətlərinin artımı müşahidə olunur. Amma bunun nə qədər, nə dərəcədə keçici, qalıcı olması ilə bağlı hələ də suallar var. Bunun əsasında hazırda proqnoz vermək, hadisələrin cari əməliyyatlar balansına necə təsir edəcəyi ilə bağlı prosesləri diqqətlə izləyirik. Bununla bağlı təhlillər aparırıq. Lakin hələ yenilənmiş proqnozumuz yoxdur. Əgər olarsa, növbəti mətbuat konfransında məlumatı bölüşəcəyik”.

Ötən il neft-qaz sektoru üzrə profisitin 13,8 milyard dollar olduğunu bildirən department rəhbərinin sözlərinə görə, hesabat dövründə qeyri-neft-qaz sektoru üzrə 10,4 milyard dollar kəsir formalaşıb. Qeyd olunub ki, 2024-cü ildə Azərbaycan neftinin reallaşmış orta qiyməti 84 dollar olduğu halda, keçən il bu rəqəm 68,5 dollar təşkil edib. Bununla belə, Azərbaycan qazının ixrac olunmuş hər min kubmetri 289 dollar təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 5,5 faiz artım deməkdir.

2025-ci ildə Azərbaycanın kapital və maliyyənin hərəkəti hesabının mənfi saldosunun, təxminən, 5 milyard ABŞ dolları təşkil etdiyini diqqətə çatdıran Mərkəzi Bank rəsmisinin sözlərinə görə, hesabat ilində ölkənin xalis maliyyə aktivləri 5,4 milyard dollar, xalis maliyyə öhdəlikləri isə 0,4 milyard dollar artıb. Bildirilib ki, ötən il Azərbaycana xaricdən daxil olan pul baratlarının həcmi 1 milyard 176,9 milyon ABŞ dolları təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 8,6 faiz artım deməkdir. Azərbaycana daxil olan pul baratlarının əsas hissəsi Rusiya Federasiyası (479,3 milyon dollar), Türkiyə (193,2 milyon dollar), ABŞ (100,7 milyon dollar), Gürcüstan (43,6 milyon dollar) və Böyük Britaniya (42,4 milyon dollar) üzrə formalaşıb. Bununla yanaşı, hesabat dövründə ölkəmizdən xaricə göndərilən pul baratlarının həcmi 505 milyon ABŞ dolları olub. Bu isə illik müqayisədə 4,1 faiz azalma deməkdir.

S.Nəsirov qeyd edib ki, keçən il Azərbaycandakı idarə, müəssisə və təşkilatlar qiymətli kağızlar bazarından 1 milyard 50 milyon dollar gəlir əldə edib. Onun sözlərinə görə, dövlət qurumları, əsasən, ABŞ-ın dövlət istiqrazlarına investisiya yatırıb, bu isə ölkənin ilkin gəlirlər balansının kəsirinin daralmasına xidmət edib: “İl ərzində təkrar gəlirlər balansı isə 17,5 faiz artımla profisitli olub. Bu da, əsasən, ölkəyə pulköçürmə sistemləri vasitəsilə daxil olan pullarla bağlıdır. Onlar daha çox pul baratlarıdır, kapital xarakterli olmayan əməliyyatlar çıxılmaqla ölkəyə daxil olan vəsaitlərdir”.

Departament rəhbəri daha sonra bildirib ki, 2025-ci ildə xarici rezidentlər tərəfindən Azərbaycan iqtisadiyyatına 6 milyard 595 milyon dollar investisiya yatırılıb. Ölkəmizə yönəldilən investisiyanın həcminə görə birinci yeri 1 milyard 735,8 milyon ABŞ dolları ilə Böyük Britaniya tutub. Növbəti yerlərdə isə Türkiyə (1 milyard 230,85 milyon dollar), Cənubi Kipr (751,1 milyon dollar), Birləşmiş Ərəb Əmirlikləri (404,8 milyon dollar) və İran (375,3 milyon dollar) qərarlaşıb.

Ötən il isə Azərbaycandan xaricə 2 milyard 528 milyon dollarlıq birbaşa investisiya yatırılıb. Ölkəmizdən ən çox yatırım (542,6 milyon dollar) İsrail iqtisadiyyatına yönəldilib ki, bu da “Tamar” layihəsi ilə bağlıdır. Yeri gəlmişkən, Aralıq dənizində yerləşən neft yatağı ilə bağlı investisiya qoyuluşu ötən ilin 3-cü rübündə həyata keçirilib. Bundan əlavə, il ərzində Türkiyəyə 345 milyon dollar, Birləşmiş Ərəb Əmirliklərinə 329,1 milyon dollar, Böyük Britaniyaya 212,3 milyon dollar, Gürcüstana isə 179,5 milyon dollar birbaşa xarici investisiya yatırılıb. Qeyd olunub ki, xaricə investisiya qoyuluşunun 1 milyard 441 milyon dolları qeyri-neft-qaz sektoruna yönəlib. Bu da illik müqayisədə 6,1 faiz çoxdur. Xarici yatırılmış investisiyalar, əsasən, dövlət və özəl müəssisələrinin, o cümlədən bankların və investisiya şirkətlərinin xarici qiymətli kağızlara yatırdıqları pullardır.

Sonda kütləvi informasiya nümayəndələrinin çoxsaylı sualları ətraflı cavablandırılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Süni intellekt və texnoloji inqilabda dönüş nöqtəsi

## *“Nvidia” 1 trilyon dollarlıq sifariş portfeli gözləyir*

**Dünya köklü texnoloji dəyişikliklər dövrünü yaşayır. “Nvidia” şirkətinin baş direktoru Jensen Huangın son çıxışı göstərir ki, sözügedən texnoloji yeniliklər qlobal iqtisadiyyatın gələcək trayektoriyasını müəyyənləşdirə biləcək həddə gəlib çıxa bilər.**




Huang Kaliforniya ştatının San-Xose şəhərində keçirilən tədbirdə “Nvidia” prosessorlarının necə süni intellekt üçün əvəzolunmaz komponentə çevrildiyini izah edib və şirkətin lider mövqeyini qoruyacaq məhsulları diqqətə çatdırıb.

Huang vurğulayıb ki, ilin sonuna qədər “Nvidia” çiplərinə olan sifarişlər üzrə portfel 1 trilyon dollara çata bilər. Bu isə onun ötən il səsləndirdiyi proqnozun iki dəfə artırılması deməkdir. Ümumiyyətlə, “Nvidia” ötən il illik gəlirini 216 milyard dollara yüksəldib. Bu artım şirkətin bazar dəyərinin 4,5 trilyon dollara çatması ilə nəticələnib. Jensen Huangun 1 trilyon dollarlıq sifariş portfeli ilə bağlı səsləndirdiyi proqnoz ilk baxışda mübaliğəli təsir bağışlasa da, onun arxasında dayanan məntiq kifayət qədər aydındır: süni intellekt artıq eksperimental texnologiya deyil, qlobal infrastruktur elementinə çevrilir.

Bir vaxtlar elektrik enerjisi və internet necə qlobal iqtisadiyyatın təməl sütunları rolunu oynadısa, bu gün süni intellekt də eyni funksiyanı üzərinə götürməkdədir. Bu reallıq fonunda Sİ sistemlərini təmin edən yüksək texnoloji çiplər – xüsusilə “Nvidia”nın istehsal etdiyi prosessorlar – XXI əsrin strateji resursu kimi çıxış edir.

Uzun illər ərzində süni intellekt texnologiyalarının əsas yükü öyrənmə mərhələsinin üzərində cəmlənmişdi. Böyük dil modelləri yaradılır, geniş məlumat bazaları ilə qidalandırılır, milyonlarla parametr üzərində mürəkkəb təlim prosesləri həyata keçirilirdi. Bu mərhələ, müəyyən mənada, rəqəmsal zəkanın formalaşdırılması dövrü kimi xarakterizə oluna bilərdi.

Lakin indi diqqət mərkəzi dəyişir. Süni intellekt artıq öyrənmə mərhələsindən daha çox tətbiq mərhələsinə keçib. Sistemlər real vaxt rejimində qərarlar qəbul edir, mətnlər hazırlayır, vizual kontent yaradır və iqtisadi proseslərə birbaşa təsir göstərir. “ChatGPT” və “Gemini” kimi platformalar bu transformasiyanın gündəlik həyatımıza necə nüfuz etdiyini aydın şəkildə nümayiş etdirir.

Bu dəyişiklik texnologiya ilə məhdudlaşmır, iqtisadi modelin özünü yenidən formalaşdırır. Əvvəllər əsas dəyər yaradılma mərhələsində formalaşırdısa, indi gəlirin əsas hissəsi tətbiq və istifadə mərhələsində yaranır. Bu isə bazarın strukturunda köklü dəyişikliklərə yol açır.

Bu kontekstdə 1 trilyon dollarlıq göstərici sadəcə iqtisadi rəqəm deyil. Bu, qlobal texnoloji və iqtisadi istiqamətin konturlarını müəyyənləşdirən ciddi siqnaldır.

Bununla belə, texnologiya tarixində davamlı hegemonluq anlayışı mövcud deyil. Bu gün “Nvidia”nın qarşısında dayanan əsas çağırışlardan biri rəqabətin getdikcə sərtləşməsidir. “Google” və “Meta Platforms” kimi qlobal texnologiya nəhəngləri artıq öz çip həllərini inkişaf etdirməyə yönəliblər.

Bu proses sadəcə bazar uğrunda rəqabət kimi qiymətləndirilə bilməz. Burada söhbət gələcəyin texnoloji suverenliyindən gedir. Süni intellektin “beyni”ni kim istehsal edirsə, gələcəyin iqtisadi və siyasi güc balansını da o müəyyən edəcək.

Eyni zamanda, geosiyasi amillər də bu sahəyə ciddi təsir göstərir. Ölkələr arasındakı bəzi texnoloji məhdudiyyətlər qlobal təchizat zəncirlərində yeni parçalanmalar yaradır və texnologiyanı strateji alətə çevirir. Hazırkı vəziyyət açıq şəkildə göstərir ki, süni intellekt artıq bugünün reallığıdır. Onun tətbiq sahələri genişləndikcə, iqtisadiyyatın bütün seqmentləri bu prosesin təsiri altına düşür. Jensen Huangun çıxışı bu baxımdan, bir növ, manifest kimi qiymətləndirilə bilər. Süni intellektin əsas mərhələsi artıq başlayıb və bu mərhələ daha geniş tətbiq, daha dərin inteqrasiya və daha böyük iqtisadi təsir vəd edir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan “Nvidia” şirkəti ilə olduqca sıx dialoqa maraqlıdır. Belə ki, 2025-ci ilin sonlarından başlayaraq Azərbaycan ilə ABŞ arasında bu istiqamətdə fəallığın artdığı aydın şəkildə hiss olunur. ABŞ-ın Cənubi Qafqaz regionunda süni intellekt üzrə mərkəz formalaşdırmaq niyyəti fonunda Azərbaycanın bu prosesdə uyğun tərəfdaş kimi önə çıxması diqqət çəkir.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin ötən ilin dekabrında ABŞ-a etdiyi səfər bu baxımdan xüsusi əhəmiyyət kəsb edib. Səfər çərçivəsində “Nvidia” şirkətinin Qlobal Süni İntellekt təşəbbüsləri üzrə vitse-prezidenti Calista Redmond ilə keçirilən görüşdə milli süni intellekt platformalarının formalaşdırılması, yüksək məhsuldarlıqlı hesablama resurslarının dövlət xidmətlərinə tətbiqi, startap mühitinin inkişafı və bu sahədə ixtisaslı kadr hazırlığı kimi məsələlər müzakirə olunub.

Digər tərəfdən, mövcud dinamika Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərində də hiss olundu. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin nümayəndə heyəti ilə görüşü buna əyani misaldır. Məclisdə “Apple”, “Mastercard”, “Visa”, “Ericsson”, “Motorola Solutions”, “Honeywell”, “Parallel Wireless”, “Meta”, “Resecurity”, “Global Data Risk”, “WhiteFox Defense Technologies”, “bp”, “Lummus Technology” və digər aparıcı ABŞ şirkətlərinin rəhbər və nümayəndələri iştirak edib və kibertəhlükəsizlik, süni intellekt və rəqəmsal texnologiyalar sahələrində əməkdaşlıq imkanları müzakirə olunub.

Ümumilikdə, Azərbaycanda süni intellekt sahəsində ilkin və sistemli addımlar artıq atılıb, bu istiqamətdə möhkəm təməl formalaşdırılıb. 19 mart 2025-ci ildə təsdiqlənən “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası” da bu yanaşmanın davamı kimi xüsusi aktuallıq kəsb edir. Həyata keçirilən tədbirlər nəticəsində ölkəmiz qısa zaman ərzində qlobal “Süni İntellekt Hazırlığı İndeksi”ndə əhəmiyyətli irəliləyiş əldə edib və 41 pillə irəliləyərək 70-ci mövqeyə yüksəlib. Həmçinin Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmiz artıq 300 milyard dollardan çox xarici investisiya cəlb edib və beynəlxalq reytinqlərdə mövqelərini möhkəmləndirib. Süni intellekt sahəsində aparılan islahatlar və qurulan şərait də reytinq agentlikləri və investorlarda Azərbaycanın gələcəyə sığortalı olduğu təəssüratı yaradır.

Digər mühüm məqam ondan ibarətdir ki, Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş “Rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya” sənədində ilk dəfə olaraq Generativ Süni İntellektin (GenAİ) iqtisadiyyata mümkün təsiri konkret rəqəmlərlə ifadə olunub. Bu yanaşma ölkənin iqtisadi modelində dönüşün, məhsuldarlığın artmasının və yüksək əlavə dəyər yaradan yeni sahələrin formalaşmasının anonsu kimi qiymətləndirilə bilər. Strategiyada nəzərdə tutulur ki, 2029-cu ilədək Azərbaycanda GenAİ tətbiqləri vasitəsilə yaradılan iqtisadi effekt 70 milyon manata çatdırılsın. Bu hədəflər isə Azərbaycanın süni intellekt sahəsinə dair uzunmüddətli strateji baxışının formalaşdığını aydın şəkildə ortaya qoyur.

Bununla belə, mövcud dinamikanı qoruyub saxlamaq üçün Azərbaycan bu sahədə fəaliyyətini daha da genişləndirərək, əvvəlcə regional səviyyədə mövqeyini gücləndirməli, sonrakı mərhələdə isə qlobal miqyasda layiqli yerini möhkəmləndirməlidir.

***Nurlan ABDALOV***
***XQ***

# Sosial şəbəkədə "asan" kredit tələsi

## *Fırıldaqçıları necə tanıyaq, onlardan necə qorunaq?*

**Son illər Azərbaycanda rəqəmsal texnologiyaların sürətli inkişafı, onlayn bankçılıq xidmətlərinin genişlənməsi və sosial media platformalarının gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməsi yeni imkanlarla yanaşı, bir sıra hallarda neqativ nəticələrlə diqqət çəkən problemlər də yaradıb. Bu çətinliklər sırasında sosial şəbəkələrdə geniş yayılan saxta kredit təklifləri və maliyyə fırıldaqları daha çox narahatlıq doğurub.**



Xüsusilə "ilkin ödənişsiz", "illik cəmi 11 faizlə", "girovsuz və zaminsiz", "yalnız şəxsiyyət vəsiqəsi ilə 50 min manata qədər kredit" kimi cazibədar şüarlarla təqdim olunan reklamlar getdikcə çox sayda istifadəçini hədəfə alır. İlk baxışdan real və əlçatan görünən bu təkliflər, əslində, peşəkar şəkildə qurulmuş dələduzluq sxemlərinin tərkib hissəsidir. Bu cür elanların uğur qazanmasının əsas səbəbi isə onların insanların psixologiyasının zəif nöqtələrinə təsir etməsidir. Maliyyə çətinliyi yaşayan, təcili pula ehtiyacı olan və ya banklardan kredit ala bilməyən vətəndaş bu cür "asan həll yollarına" daha tez inanır.

Dələduzlar məhz bu həssas auditoriyanı hədəf seçərək, onların etimadını qazanmaq üçün tanınmış bankların adlarından, loqolarından və vizual üslubundan istifadə edirlər. Nəticədə, istifadəçilərdə yanlış təhlükəsizlik hissi formalaşır.

**Bankçılıq eksperti Fuad Məmmədov** bildirir ki, hər hansı bir maliyyə qurumu kredit verərkən, ilk növbədə, vətəndaşın xidmət müddəti (ən azı altı ay), yaşayış və ya qeydiyyat yeri, yaş və işlədiyi şirkətin reytinqi kimi amilləri nəzərə alır. Kreditlər ödənişləri gecikmiş və ya adı "qara siyahı"da olan müştərilərə verilmir. Belə hallarda banklar tərəfindən, məsələn, lombardlar vasitəsilə qızılla təmin edilən kreditlər təklif olunur. Bundan əlavə, F.Məmmədov vətəndaşlara etibarlı məlumat əldə etmək üçün yalnız bankların, eləcə də kredit təşkilatlarının rəsmi sosial media səhifələrinə daxil olmağı, habelə qaynar xətlərdən, rəsmi veb saytlardan və elektron poçt ünvanlarından yararlanmağın zəruriliyini vurğulayır.

Xatırladaq ki, Azərbaycan Daxili İşlər Nazirliyi (DİN) də bu günlərdə tanınmış bankların domen adlarını təqlid edən çoxsaylı fişinq (saxta) saytların mövcudluğu barədə xəbərdarlığı diqqətə çatdırıb. DİN-in sözçüsü Lumu İsrafilli polisin bu cür saytları idarə edən şəxsləri müəyyənləşdirdiyini və qanuni tədbirlər gördüyünü, eyni zamanda, vətəndaşlara bank kartı məlumatlarını, PIN və SMS kodlarını, CVV-lərini, parollarını və digər məxfi məlumatları üçüncü tərəflərə açıqlamamağın zəruriliyini xatırladıb.

### Real təqlidçiliyi də var imiş…

Ekspertlərin fikrincə, bankların yuxarıda sadalanan meyarları nəzərə almadan yüksək məbləğdə krediti təminatsız və yoxlama aparmadan, xüsusilə də "qara siyahı"da olan, yəni kredit öhdəliklərini pozmuş şəxslərə verməsi heç cür mümkün deyil. Amma buna baxmayaraq, saxta kredit reklamları ilə yalan məlumatlar yaymaqla həssas təbəqənin aldadılması və bunun sürətlə kibercinayətkarlıq alətinə çevrilməsinə şərait yaradılması ciddi narahatlıq doğurur.

DİN-in dəfələrlə bildirdiyi kimi, son dövrlərdə tanınmış bankların rəsmi saytlarını təqlid edən saxta platformaların sayının getdikcə genişlənməsi də bunun bariz ifadəsidir. Bu saytlar görünüş cəhətdən orijinal resurslara maksimum bənzədilir və həmin şəbəkələr vasitəsilə istifadəçilərdən bank kartı nömrəsi, PIN, CVV/CVC və SMS təsdiq kodları, eləcə də şəxsi kabinet parolları kimi məlumatlar əldə edilir. Bundan sonra isə vətəndaşların bank hesabları tam nəzarətə götürülür və vəsaitlər qanunsuz şəkildə çıxarılır.

Problemin miqyası göstərir ki, təkcə hüquqi tədbirlərin həyata keçirilməsi ilə sözügedən çətinliklərin aradan qaldırılması kifayət etmir, vətəndaşların rəqəmsal və maliyyə savadlılığının artırılması da prioritet istiqamət olaraq vacibdir. Çünki texnologiyalar inkişaf etdikcə, dələduzluq üsulları daha da mürəkkəbləşir. **Bankçılıq eksperti Aslan Əmiraslanov** bu məsələdə rəsmi mənbələrə üstünlük verilməsi, kreditlə bağlı məlumatları təkcə bankların rəsmi saytlarından və təsdiqlənmiş sosial media hesablarından əldə edilməsini məsləhət bilir. O, eyni zamanda, sosial şəbəkələrdə və ya SMS-lə göndərilən naməlum, şübhəli linklərə inanılmaması, heç bir halda kart məlumatlarını, SMS kodlarını, eləcə də parolların üçüncü şəxslərə verilməməsi, domen adlarının yoxlanılması kimi əsas təhlükəsizlik qaydalarını diqqətdə saxlamağı da tövsiyə edir.

### Sosial şəbəkələrin məsuliyyəti

Mövzunun digər önəmli tərəfi isə sosial media platformalarının məsuliyyətidir. Bu platformalar reklamların yayılmasına nəzarət mexanizmlərini gücləndirməli, saxta maliyyə təkliflərini vaxtında bloklamalıdır. Çünki hazırda bir çox hallarda dələduzlar ödənişli reklam vasitəsilə geniş auditoriyaya çıxış əldə edir və bu da onların fəaliyyətinin təhlükəliyini şərtləndirir.

Azərbaycanda kibercinayətkarlıqla mübarizə sahəsində mövcud olan hüquqi bazadan müvafiq qurumlar səmərəli şəkildə yararlanır. Bununla belə, yeni dövrün çağırışları daha çevik və koordinasiyalı yanaşma tələb edir. Bu baxımdan bank sektorunda təhlükəsizlik protokollarının gücləndirilməsi, dövlət qurumları ilə maliyyə institutları arasında məlumat mübadiləsinin genişləndirilməsi, maarifləndirici kampaniyaların artırılması və təhsil müəssisələrində rəqəmsal savadlılıq dərslərinin təşviq edilməsi də mühüm önəm daşıyır.

Bütün bunlara əsaslanıb qeyd edə bilərik ki, sosial mediada yayılan "asan kredit" vədləri müasir dövrün ən geniş yayılmış maliyyə fırıldaqlarından birinə çevrilib. Ekspertlər tərəfindən bu məsələ təkcə iqtisadi deyil, həm də sosial və təhlükəsizlik problemi kimi qiymətləndirilir. Reallıq isə ondan ibarətdir ki, heç bir legitim maliyyə qurumu ciddi yoxlama aparmadan, təminatsız və yüksək məbləğdə kredit təqdim etmir. Əksinə, bu cür vədlər əksər hallarda vətəndaşların maliyyə məlumatlarını ələ keçirməyə yönəlmiş saxtakarlıq sxemidir. Mövcud çətinliklər fonunda ən səmərəli müdafiə mexanizmi vətəndaşların məlumatlılığı, diqqətliliyi və rəqəmsal davranış mədəniyyətidir. Dövlət qurumlarının, bank sektorunun və cəmiyyətin birgə səyləri nəticəsində bu təhlükənin təsirlərini minimuma endirmək mümkündür.

### Süni intellekt və təhlükəsizlik

**Bank eksperti Qasım Muxtarovun** sözlərinə görə, respublikamızda bu cür halların yayılmasını şərtləndirən bir sıra amillər mövcuddur. Bu, ilk növbədə, sosial media istifadəsinin geniş yayılması, rəqəmsal savadlılığın hələ də istənilən səviyyədə olmaması, tez və asan kreditə olan yüksək tələbatın yaranması, bəzi vətəndaşların bank prosedurları barədə kifayət qədər məlumatın çatışmaması kimi məsələlər dələduzlar üçün münbit şərait yaradır və onların fəaliyyətini asanlaşdırır.

Maraqlı məqamlardan biri də odur ki, maliyyə inklüzivliyinin artması, yəni daha çox insanın bank xidmətlərinə çıxış əldə etməsi də müəyyən çətinliklər yaradır. Bank xidmətlərindən yeni istifadə etməyə başlayan şəxs bu cür fırıldaqlara daha tez inanır. Bu baxımdan maarifləndirmə tədbirləri ilə müşayiət olunan layihələrin gerçəkləşdirilməsinə ciddi zərurət yaranır.

Əlbəttə, bu məsələdə texnologiyanın rolu – süni intellekt və təhlükəsizlik amili də mühüm rol oynayır. Belə ki, müasir dövrdə banklar və texnologiya şirkətləri dələduzluğa qarşı mübarizədə süni intellektdən geniş istifadə edir. Süni intellekt xüsusi tətbiqlərə təbii dil emalı, nitqin tanınması kimi əsaslı sistemlər daxil etməklə şübhəli bank əməliyyatlarını real vaxtda müəyyənləşdirir. Bu yolla qeyri-adi məkanlardan edilən girişlər bloklanır, qısa müddətdə ardıcıl əməliyyatlar dərhal dayandırılır və riskli əməliyyatlar üçün əlavə təsdiq tələb olunur.

Lakin dələduzlar da texnologiyadan istifadə etdiklərindən bu, davamlı "yarış" xarakteri daşıyır. Kütləvi informasiya vasitələrinin rolu isə bu məsələdə xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan media yalnız faktları çatdırmaqla kifayətlənməməli, həm də maarifləndirici funksiyanı gücləndirməlidir. Kiberdələduzluqla bağlı təhlili yazılar, ekspert rəyləri və real hadisələrin işıqlandırılması ilə vətəndaşların daha diqqətli olmasına çalışılmalıdır.

Qasım Muxtarov yuxarıda vurğulananlarla yanaşı, vətəndaşların təhlükəsizliyini gerçəkləşdirmək məqsədilə bank kartları üçün gündəlik limitlərin müəyyənləşdirilməsi, mobil bank tətbiqlərində bildirişlərin aktivləşdirilməsi, şübhəli hallarda dərhal bank və hüquq-mühafizə orqanlarına müraciət ünvanlanması və sosial şəbəkələrdə şəxsi məlumatların paylaşımının məhdudlaşdırılması kimi hallara qarşı ciddi mübarizə aparılmasını da tövsiyə edir.

*Vaqif BAYRAMOV*
*XQ*

### *Ekspert rəyi*



**Hüseynqulu QULİYEV,**
**iqtisadçı-ekspert**

Rəqəmsallaşmanın sürətlənməsi ilə maliyyə xidmətlərinin əlçatanlığı artsa da, bu proses paralel olaraq kibercinayətkarlığın yeni formalarını da stimullaşdırıb. Azərbaycanda son dövrlər geniş yayılan saxta kredit reklamları, əslində, qlobal tendensiyanın məhdud təzahürüdür. Dünyanın bir çox ölkəsində oxşar sxemlər illərdir ki, mövcuddur və getdikcə daha mürəkkəb xarakter alır.

Beynəlxalq kibertəhlükəsizlik təşkilatlarının hesabatlarına görə, son illər kiberdələduzların saxta e-poçt, mesaj və ya veb-saytlar vasitəsilə istifadəçilərin bank kartı, eləcə də şəxsi məlumatlarını, şifrələrini oğurlamaq hallarının sayı kəskin artıb. Xüsusilə maliyyə sektoru bu hücumların əsas hədəfinə çevrilib. Aparılan araşdırmalar da göstərir ki, bu cür halların, təxminən, 35-40 faizi bank və maliyyə xidmətlərinə yönəlib. Sosial media vasitəsilə yayılan dələduzluq reklamlarının payı isə ildən-ilə çoxalıb.

Qeyd edim ki, hazırda istifadəçilərin böyük hissəsi saxta saytları real platformalardan ayırd etməkdə çətinliklə üzləşib. Məsələn, respublikamızda olduğu kimi, ABŞ və Avropa ölkələrində də "ani kredit fırıldağı" adı ilə tanınan sxemlər minlərlə insanın maliyyə itkiləri ilə nəticələnib. Avropanın bank sektorunda bu cür kibercinayətkarlığa qarşı mübarizədə parolların, biometrik məlumatlar (barmaq izi) və ya kodlar vasitəsilə, eləcə də real vaxt monitorinq sistemlərinin geniş tətbiq ilə üstünlük verilib. Bununla yanaşı, vətəndaşlara mütəmadi xəbərdarlıqların göndərilməsi də diqqətdə saxlanılıb.

ABŞ-da maliyyə dələduzluğu ilə mübarizədə banklar və texnologiya şirkətləri arasında sıx əməkdaşlıq diqqət mərkəzində saxlanılıb. Sosial media platformalarında saxta reklamları dərhal aşkar edən süni intellekt sistemlərinə geniş meydan verilib. Qardaş Türkiyədə isə bank sektorunda SMS təsdiq sistemləri və mobil tətbiqlər üzərindən əlavə təhlükəsizlik qatları yaradılıb. Bu təcrübələr göstərir ki, problemin həllinə hüquq-mühafizə tədbirləri ilə yanaşı, həm də texnoloji və maarifləndirici yanaşmaların kombinasiyası ilə müəyyən dərəcədə nail olunub.

Sonda bildirmək istərdim ki, rəqəmsal dövrdə maliyyə təhlükəsizliyi prioritet istiqamətlərdən biridir. Bu baxımdan sosial mediada yayılan saxta kredit təklifləri təkcə fərdi maliyyə itkilərinə səbəb olmur, həm də ümumi iqtisadi etimadı zədələyir. Belə hal isə bank sektorunun dayanıqlığına və rəqəmsal transformasiya proseslərinə mənfi təsir göstərir.

---

*Şəhərsalma və Memarlıq İli – 2026*

# Şəkinin milli şəhərsalma və memarlıq irsi

**Tarixi Şəhərlər Liqasının üzvü olan qədim Şəki həm dünya, həm də Azərbaycan şəhərləri arasında özünəməxsus şəhərsalma üslubu ilə seçilir. Bu şəhərdə quruculuq işləri XVIII əsrin şəhərsalma qaydaları qorunmaqla davam edir. Elə məhz buna görə də 24 noyabr 1967-ci ildə Şəki şəhərinin tarixi hissəsini əhatə edən "Yuxarı Baş" Tarix-Memarlıq Qoruğu yaradılmış, 7 iyul 2019-cu ildə UNESCO-nun Bakıda keçirilən 43-cü sessiyasında isə bu tarixi mərkəz Şəki Xan sarayı ilə birlikdə "Dünya Mədəni İrsi" Siyahısına daxil edilmişdir.**



Bir zamanlar Azərbaycan şəhərləri funksiyasından asılı olaraq 3 hissəyə bölünür: narınqala, şəhristan və rabat adlı sahələrə ayrılırdı. Şəhərin narınqala hissəsi istehkam divarları ilə əhatə olunur, saray və başqa rəsmi inzibati binalar burada yerləşirdi. Əsilzadələrin yaşadığı şəhristan adlanan hissə isə adətən həm müdafiə, həm də görkəm baxımından şəhərin ən önəmli hissəsində yerləşirdi. Rabat hissə isə nisbətən şəhərin kənar qismində sənətkar və tacirlərin yaşadığı məhəllələr kompleksindən ibarət olurdu.

Şəki şəhərində də əhali orta əsrlərin şəhərsalma qaydalarına uyğun şəkildə məskunlaşmışdı. Bu gün Azərbaycanda günümüzə qədər ən yaxşı şəkildə qorunub saxlanılmış və ən geniş əraziyə malik narınqala məhz Şəki qalasıdır. 5 hektardan çox ərazini əhatə edən bu qala divarları içərisində bir zamanlar Şəki xanlarının sarayı, müxtəlif inzibati və yaşayış binaları, hərəmxana, məscid, hamam və s. kimi binalar yerləşirdi. Həmin binalar kompleks halında günümüzə qədər gəlib çatmasa da, qala divarları və Şəki xan sarayı orta əsrlər dövrünün şəhərsalma üslubunda əsas yeri tutan narınqala nümunəsi kimi zamana meydan oxuyur.

XVIII əsrdən bu günə qədər Şəki şəhəri davamlı yaşanılan, yenidənqurma işləri aparılan bir şəhər olmasına rəğmən bu gün də özünəməxsusluğunu qoruyub saxlayır. Şəhristan və rabat zamanla bir-birinə qarışıb sərhədləri itsə də, Şəkidə yeni məhəllə və küçələr formalaşsa da ənənəvi şəhərsalmanın izləri hələ də qalmaqdadır. Bir zamanlar rabatın müəyyən bir qismini təşkil edən sənətkarların yaratdıqları Dabbaqlar, Şərbaflar, Dulusçular kimi məhəllələr bu gün də öz tarixi adlarını qoruyub saxlayırlar. Maraqlı haldır ki, hər məhəllənin öz məscidinin, hamamının və meydanının olması adi hal idi. Bu gün Dabbaqlar məhəlləsində yerləşən Cümə məscidi, Abdusalam hamamı kimi tarixi abidələr tarixin izlərini keçmişdən gələcəyə daşıyır.

Şəki şəhərinin formalaşmasına, planlaşmasına təsir edən nüanslar, sadəcə, orta əsrlərin şəhərsalma qaydaları olmayıb. Şəhərin baş planını təbiət cızıb. Şəhərin tarixi hissəsinin sərhədlərini Qurcana çayı və Dəyirman arxı müəyyən edib. Şəhər Qafqaz sıra dağlarının ətəklərində yerləşdiyindən şəhər sanki amfiteatr şəklində qurulub. Relyef xüsusiyyətləri tikililərin də planlaşmasına mühüm təsir edib. Elə bu səbəbdəndir ki, bu gün Şəkinin tarixi hissəsində yerləşən tikililərin əksəriyyəti bir tərəfdən bir və ya ikimərtəbəli olduğu halda, digər tərəfdən iki, yaxud da üçmərtəbəlidir.

Şəki UNESCO-nun "Dünya Mədəni İrsi" Siyahısına iki kriteriyanın tələbinə cavab verdiyi üçün qəbul edilib. Bunlar II və V kriteriyalardır. II kriteriyaya görə dünya mədəni irsi insan dəyərlərinin mühüm qarşılıqlı təsirini əks etdirməlidir. Bu təsir müəyyən zaman kəsiyində, yaxud konkret mədəni coğrafi ərazidə aşağıdakı sahələrdə özünü göstərməlidir: memarlıqda, tikinti texnologiyalarında, monumental sənətdə, şəhərsalma prinsiplərində, landşaft dizaynında. Sadə dillə ifadə edilərdə bu kriteriya göstərir ki, obyekt müxtəlif mədəniyyətlər arasında əlaqə, təsir və mübadilənin nəticəsidir. Bu baxımdan İpək Yolu üzərində formalaşmış Şəkinin şəhər strukturunda xalq memarlığı ilə yanaşı, Qacar, Osmanlı, Rus imperiyası və Sovet memarlığının təsiri aydın şəkildə hiss olunur.

V kriteriyanın tələbinə əsasən mədəni irs ənənəvi insan məskunlaşmasının, torpaq və ya təbii mühitdən istifadənin nadir və dəyərli nümunəsi olmalıdır. Eyni zamanda, bu irs müəyyən mədəniyyəti təmsil edir, insan–təbiət münasibətini əks etdirir, müasir dəyişikliklər nəticəsində yoxa çıxmaq təhlükəsi altındadır. Daha aydın şəkildə: Bu kriteriya obyektin insanların təbiətə uyğun şəkildə qurduğu həyat modelini göstərir. Məsələn: dağ relyefinə uyğun mərtəbəli evlər, iqlimə uyğun tikinti üsulları, su, torpaq, külək və günəşdən ağıllı istifadə, ənənəvi yaşayış məkanlarının qorunması.

Şəki şəhərsalma və memarlığı ilə nümunədir. Bu şəhərin sadəcə tarixi hissəsində dövlət qeydiyyatına götürülmüş 83 tarix memarlıq abidəsi var. Onlardan biri – Şəki Xan sarayı dünya əhəmiyyətli, on biri ölkə əhəmiyyətli, yetmiş biri isə yerli əhəmiyyətli tarixi memarlıq abidəsidir. 1968-ci ildə ölkə ərazisində daşınmaz tarix və mədəniyyət abidələrinin qeydiyyatı aparılarkən siyahıya cəmi 11 abidə salınmışdı. 2001-ci ildə onların sayı 25-ə, 2021-ci ildə isə 83-ə çatdı.

"Yuxarı baş" Milli Tarix – Memarlıq Qoruğu ərazisində yerləşən bu 83 abidə ilə yanaşı, qoruğun özü də Şəki Xan sarayı ilə eyni inventar nömrəsi altında bütöv olaraq abidə hesab olunur. Bu bütövlüyü, tarixi şəhərin ruhunu, ənənəvi görkəmini mühafizə edib gələcəyə çatdırmaq isə hər bir vətəndaşın borcudur.

*Zəminə RƏSULOVA,*
*Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi*

# Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə əməkdaşlıq müzakirələri



**Azərbaycan Respublikasının maliyyə naziri, Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Azərbaycan üzrə rəhbəri Sahil Babayev qurumun ölkəmizdə səfərdə olan prezidenti Serhat Köksalın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Azərbaycan ilə QDTİB arasında əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişaf perspektivlərinin müzakirə olunduğu görüşdə nazir S. Babayev bankın ölkəmizin iqtisadi inkişafına və Qara dəniz regionunda iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə verdiyi töhfələri yüksək qiymətləndirib. Nazir Azərbaycanın QDTİB-nin təsisçi üzvlərindən biri kimi bankın gələcək inkişafını dəstəklədiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, Qara Dəniz Ticarət və İnkişaf Bankı fəaliyyətə başladığı vaxtdan etibarən Azərbaycanda maliyyələşdirdiyi layihələrlə ölkədə özəl sektorun inkişafına və maliyyə sektorunun gücləndirilməsinə töhfə verib. Eyni zamanda, bildirilib ki, QDTİB Azərbaycanda yerli valyutada istiqraz buraxan ilk beynəlxalq maliyyə institutu olub və bank özəl sektorun maliyyələşdirilməsini dəstəkləmək məqsədilə 2019-cu ildə Bakı Fond Birjasında korporativ istiqrazlar yerləşdirib.

Söhbət zamanı Azərbaycanın QDTİB Rəhbərlər Şurasına hazırkı sədrliyi də diqqət mərkəzində olub, bankın 2026-cı ilin iyul ayında Bakıda keçiriləcək növbəti illik toplantısının regional maliyyə əməkdaşlığının daha da möhkəmləndirilməsi baxımından mühüm platforma olacağı vurğulanıb.

Qara Dəniz Ticarət və İnkişaf Bankının prezidenti Serhat Köksal Azərbaycan ilə əməkdaşlığın rəhbərlik etdiyi qurum üçün mühüm əhəmiyyət daşıdığını bildirərək ölkəmizdə həyata keçirilən iqtisadi islahatların və formalaşdırılmış əlverişli investisiya mühitinin beynəlxalq maliyyə institutları üçün yeni imkanlar yaratdığını bildirib. O, gələcək əməkdaşlıq çərçivəsində özəl sektorun inkişafının maliyyələşdirilməsi, kiçik və orta biznesin və maliyyə institutlarının dəstəklənməsi, regional ticarətin və nəqliyyat-logistika bağlantısının təşviqi, həmçinin dayanıqlı inkişaf və iqtisadi şaxələndirmə ilə bağlı layihələrin dəstəklənməsi istiqamətlərində əməkdaşlığın genişləndirilməsinə maraqlı olduqlarını ifadə edib.

Görüş zamanı bankın abunə kapitalının artırılması prosesində Azərbaycanın iştirakı, həmçinin qurumun idarəetmə strukturunda üzv ölkələrin balanslaşdırılmış coğrafi təmsilçiliyinin təmin olunması, eləcə də tərəflər üçün qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Qara Dəniz Ticarət və İnkişaf Bankı beynəlxalq dövlətlərarası maliyyə kredit təşkilatıdır. QDTİB iqtisadi inkişafı və regional əməkdaşlığı dəstəkləyir, üzv ölkələrdə dövlət və özəl sektorlarda layihələr üçün kreditlərin verilməsi, kredit xətlərinin açılması, investisiyaların və zəmanətlərin verilməsində və ticarətin maliyyələşdirilməsində iştirak edir.

*XQ*

# WUF13-ün xüsusi portalı

**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) zamanı radiospektrin idarə olunmasını təmin etmək məqsədilə İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin (İKTA) WUF13 Azərbaycan Əməliyyat Şirkəti ilə əməkdaşlığı çərçivəsində xüsusi portal istifadəyə verilib.**




Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib. Məlumata əsasən, mayın 17-22-də Bakıda keçiriləcək beynəlxalq tədbir zamanı istifadə olunacaq radioelektron avadanlıqların və tezliklərin koordinasiyası bu portal vasitəsilə həyata keçiriləcək.

Portal vasitəsilə tədbirdə istifadə ediləcək müxtəlif tezliklərdə çalışan bütün radioavadanlıqlar qeydiyyatdan keçiriləcək, müvafiq tezlik resursları ayrılacaq və avadanlıqlar etiketlənəcək. WUF13 tədbirində iştirak edəcək qonaqlar və media nümayəndələri istifadə edəcəkləri radioavadanlıqların qeydiyyatı üçün https://wuf13-e-permission.icta.az/ portalına daxil olaraq müraciət etməlidirlər.

Qeyd edək ki, oxşar yanaşma daha əvvəl Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı da tətbiq olunub. Həmin tədbir çərçivəsində 280 təşkilatın istifadə etdiyi 4023 radioelektron avadanlıq portal vasitəsilə qeydiyyatdan keçirilərək etiketlənib və radiospektrin səmərəli idarə olunması təmin edilib.

*XQ*

# Ələt Azad İqtisadi Zonasının logistik imkanları genişləndirilir

**Hazırda Ələt Azad İqtisadi Zonasında Karqo kəndi yaradılır. Bunu Azərbaycanın İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) icraçı direktorunun müşaviri Sevil Yəhyayeva Ümumdünya Şəhərsalma Forumu (WUF13) üzrə özəl sektor üçün təşkil olunmuş məlumatlandırma sessiyasında deyib.**

Azərbaycanda həyata keçirilən ardıcıl sosial-iqtisadi islahatlar və qlobal iqtisadiyyata fəal inteqrasiya nəticəsində biznes üçün əlverişli imkanların formalaşdığını diqqətə çatdıran müşavir bildirib ki, bu gün xarici sərmayədarların fəal iştirakı ilə ölkəmizdə sənaye, "yaşıl enerji", rəqəmsallaşma, kənd təsərrüfatı, nəqliyyat-logistika və digər sahələrdə birgə layihələr həyata keçirilir: "Azərbaycanda beynəlxalq ticarət və investisiya əməkdaşlığının daha da dərinləşdirilməsi, yeni ortaq layihələrin reallaşdırılması və uzunmüddətli iqtisadi tərəfdaşlıqların qurulması üçün güclü zəmin yaradılıb".

İnvestisiya mühitinin əlverişli olmasında, həmçinin infrastruktur və institusional təşviqlərin də mühüm rol oynadığını vurğulayan S.Yəhyayevanın sözlərinə görə, Azərbaycanda yaradılan iqtisadi zonalar, investisiya təşviqi mexanizmləri, vergi və gömrük güzəştləri investorlar üçün geniş imkanlar təqdim edir. Bu baxımdan Ələt Azad İqtisadi Zonası xüsusi əhəmiyyət daşıdığı vurğulanıb.



Qeyd olunub ki, sözügedən iqtisadi məkan yalnız xüsusi hüquqi və iqtisadi rejimə malik zona deyil, eləcə də Azərbaycanın regionda istehsal, emal, ticarət və logistika habına çevrilməsi strateji sənaye mühüm tərkib hissəsidir. Belə ki, Xəzər hövzəsi, Mərkəzi Asiya, Qafqaz, Türkiyə və Avropa bazarlarına çıxış imkanları, liman infrastrukturu və beynəlxalq nəqliyyat marşrutları ilə inteqrasiya Ələt Azad İqtisadi Zonasını regional dəyər zəncirlərinin formalaşdırılması üçün cəlbedici edir. Hazırda burada karqo daşımalarını reallaşdırmaq məqsədilə hava yükdaşıma klasteri (Ələt Karqo Hava Limanı, Karqo kəndi) yaradılır. Bu infrastruktur layihələri zonanın müxtəlif nəqliyyat növlərinin inteqrasiyası təmin edilmiş strateji sənaye mərkəzinə çevrilməsi üçün mühüm perspektivlər yaradır.

*XQ*

# "Sülh marşrutu" ilə 4,2 milyon dollarlıq məhsul ixrac olunub



**Cari ilin yanvar–fevral aylarında Azərbaycandan Ermənistana 4,2 milyon ABŞ dolları dəyərində məhsul ixrac olunub. Bu da ölkəmizin ümumi ixracının 0,12 faizini təşkil edir. Bu barədə Azərbaycanın Dövlət Gömrük Komitəsi məlumat verib.**

Xatırladaq ki, 2025-ci il oktyabrın 21-də Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə mətbuata birgə bəyanatında Azərbaycanın işğal dövründən bəri mövcud olmuş Ermənistana yük tranziti üzrə bütün məhdudiyyətləri aradan qaldırdığını vurğulayıb və ilk belə tranzit yükünün Qazaxıstan taxılının Ermənistana tədarükü olduğunu bildirib.

Dekabrın 18-də Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Ermənistana 1 220 ton Aİ-95 markalı avtomobil benzini göndərib. 9 yanvar 2026-cı ildə Ermənistana ümumilikdə 2 698 ton yük (48 vaqon), o cümlədən 1 742 ton Aİ-95 markalı benzin və 956 ton dizel yanacağı yola salınıb. Yanvarın 11-də isə bu ölkəyə 979 ton Aİ-92 markalı avtomobil benzini ilə yüklənmiş 18 vaqondan ibarət qatar göndərilib. Fevralın 25-də isə Azərbaycandan Ermənistana 4 500 ton dizel yanacağı, martın 5-də 1 984 ton dizel yanacağı ilə yüklənmiş 31 vaqon və 135 ton Rusiya gübrəsi ilə yüklənmiş iki vaqon, martın 9-da Rusiya taxılı ilə yüklənmiş 7 vaqondan ibarət yük qatarı, martın 11-də isə ümumi çəkisi 1 023 ton (netto – 770 ton) olan 11 vaqonda taxıl göndərilib.

*XQ*

# Azərbaycan 10-dan çox ölkəyə neft göndərir

## *2 ayda 3,6 milyon ton xam yanacaq nəql edilib*



**2026-cı ilin yanvar-fevral aylarında Azərbaycan dünyanın 10-dan çox ölkəsinə, ümumilikdə, 1 milyard 704 milyon 408,42 min ABŞ dolları dəyərində 3 milyon 600 min 307,38 ton neft ixrac edib. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.**

Komitənin hesabatına əsasən, cari ilin ilk 2 ayında İtaliyaya 1 milyard 142 milyon 38 min ABŞ dolları dəyərində 2 milyon 427 min 850 ton neft ixrac olunub. Bununla da, İtaliya əvvəlki dövrlərdə olduğu kimi, Azərbaycanın ümumi neft ixracında yenə də birinci olub. Ölkəmizin neft ixracında ikinci yerdə Rumıniya qərarlaşıb. Hesabat dövründə bu ölkəyə 140 milyon 706,79 min dollar dəyərində 286 min 280,92 ton neft ixrac edilib. Siyahıda ilk üçlüyü isə Portuqaliya tamamlayıb. Belə ki, yanvar-fevral aylarında Priney ölkəsinə 112 milyon 357,89 min dollar dəyərində 223 min 549,41 ton neft göndərilib.

Bununla yanaşı, Çexiya, Almaniya, Xorvatiya, Bolqarıstan, Tunis, Türkiyə, İndoneziya və digər ölkələr də Azərbaycan neftinin əsas idxalçıları sırasında yer alıblar. Gömrük Komitəsinin hesabatında qeyd olunan göstəricilərdə yanvar-fevral aylarında gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan neftin dəyərinə dair məlumatlar nəzərə alınıb.

Qeyd edək ki, Azərbaycan nefti qonşu ölkələrə və dünya bazarlarına 3 boru kəməri vasitəsilə nəql olunur: Bakı–Novorossiysk, Bakı–Supsa və Bakı–Tbilisi–Ceyhan. Hazırda Bakı–Supsa boru kəməri ilə nəql dayandırılıb. Bundan əlavə, neft dəmir yolu vasitəsilə Gürcüstanın Batumi və Kulevi terminallarına da ixrac edilir.

Cari ilin yanvar-fevral aylarında ölkəmizdən xaricə 75 milyon 416 min dollar dəyərində 103 min 614,61 ton neft məhsulları ixrac edilib. Hesabat dövründə Azərbaycanın ixrac etdiyi neft məhsullarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 52 faiz çox, həcmi isə 7,1 faiz az olub.

Yeri gəlmişkən, Azərbaycanda neft təməli 1953-cü ildə qoyulmuş Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda emal edilir. Zavod hazırda ölkəmizin neft məhsullarına olan tələbatını tam ödəyir. Hazırda müəssisədə bir sıra yenidənqurma və modernləşdirmə işləri aparılır.

*XQ*

# Xəzər Dəniz Gəmiçiliyi TAPI layihəsinə cəlb olunub




**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) gəmiləri vasitəsilə TAPI qaz kəməri layihəsi üzrə tikinti işləri üçün nəzərdə tutulan boruların daşınmasına başlanılıb.**

Daşımalar Bakı limanından Türkmənbaşı limanına həyata keçirilir. Prosesdə gəmiçiliyin "Qaradağ", "Natavan", "Rəsul Rza", "Teymur Əhmədov" və "Maestro Niyazi" universal quru yük gəmiləri iştirak edir. İlin sonunadək bu gəmilər, ümumilikdə, 11 min 700 ədəd borunun təyinat məntəqəsinə çatdırılması planlaşdırılır.

Xatırladaq ki, TAPI Türkmənistan, Əfqanıstan, Pakistan və Hindistan ərazisindən keçən qaz kəmərinin inşasını nəzərdə tutan enerji layihəsidir. Artıq tikinti mərhələsinə qədəm qoyan layihə çərçivəsində 1735 kilometr uzunluğunda boru kəmərinin inşası nəzərdə tutulur. Bunun da 200 kilometri Türkmənistan, 735 kilometri Əfqanıstan, 800 kilometri Pakistandan keçməklə Hindistanadək uzanacaq. Kəmərin illik nəqletmə gücü 33 milyard kubmetr təşkil edəcək.

TAPI kəməri ilə Türkmənistanın ən böyük yatağı olan "Qalkınış"dan çıxarılacaq qaz nəql olunacaq.

*XQ*

# Buxara karvansarasının əsaslı bərpa və konservasiyadan sonra açılışı



**Martın 17-də İçərişəhərdə XV əsrə aid ölkə əhəmiyyətli abidə - Buxara karvansarasının əsaslı bərpa və konservasiya işlərindən sonra təntənəli açılışı və burada fəaliyyət göstərəcək “BuxarArt” sənət məkanının təqdimatı keçirilib.**

Tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, Alena Əliyeva, mədəniyyət nazirinin müavini Səadət Yusifova, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud, digər şəxslər, mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qədim ticarət magistralı üzərində ucaldılan və Mərkəzi asiyalı tacirlərin sığınacağına çevrilən bu möhtəşəm tikili Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən həyata keçirilən genişmiqyaslı layihə çərçivəsində hazırda öz əvvəlki əzəmətinə qovuşub. Bərpa prosesi abidənin həm memarlıq, həm də mühəndislik xüsusiyyətlərinin qorunması prinsipi ilə aparılıb.

Tədbirdə çıxış edən “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud bildirib ki, həyata keçirilən bərpa işləri tarixi irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, yeni yaradılan “BuxarArt” sənət məkanı İçərişəhərin mədəni həyatına töhfə verəcək.

Bərpaçı Erich Pumer çıxışında Buxara karvansarasının əsaslı təmiri və möhkəmləndirilməsi prosesinin böyük həssaslıqla həyata keçirildiyini deyib: “Görülən işlər zamanı abidənin orijinal memarlıq üslubunun və tarixi xüsusiyyətlərinin qorunması əsas prioritet olub. Eyni zamanda, tikilinin uzunömürlü olması üçün müasir mühəndislik həlləri də tətbiq edilib”.

Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov vurğulayıb ki, bu məkan tarixən müxtəlif bölgələrdən gələn insanların görüşdüyü, yeni ticarət əlaqələrinin qurulduğu və xalqlar arasında münasibətlərin möhkəmləndiyi bir mərkəz kimi fəaliyyət göstərib. O bildirib ki, Buxara karvansarasının tarixi Özbəkistan və Azərbaycan xalqları arasında əsrlərə söykənən əlaqələrlə birbaşa bağlıdır.

Diplomat qeyd edib ki, tarixən Mərkəzi Asiyadan olan tacirlər Böyük İpək Yolu vasitəsilə regionlar arasında fəal şəkildə səyahət ediblər. Bakı isə bu marşrut üzərində mühüm ticarət və mədəniyyət mərkəzlərindən biri olub.



Daha sonra qonaqlar abidənin yenilənmiş siması ilə yaxından tanış olublar.

Bərpa və konservasiya işləri “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin sifarişi ilə bu sahədə beynəlxalq təcrübəyə malik Avstriyanın məşhur “Atelier Erich Pummer GmbH” şirkəti tərəfindən 3,5 il ərzində aparılıb. Qədim abidənin identikliyinin qorunması məqsədilə bərpa işləri zamanı orijinal hörgü üsullarına və autentik materiallardan istifadəyə, həmçinin tarixi obyektin memarlıq detallarına və konstruktiv xüsusiyyətlərinə xüsusi diqqət yetirilib. Abidənin tarixi görünüşünə xələl gətirməyən ən müasir texnologiyalardan və materiallardan istifadə olunub. Karvansaranın divarları sonradan əlavə edilmiş yad qatlardan təmizlənib, daşların konservasiyası aparılaraq binanın orijinal statik vəziyyəti bərpa edilib.



Yeni konsepsiyaya əsasən Buxara karvansarası yerli sənətkarların fəaliyyət göstərdiyi funksional və yaradıcı məkana transformasiya olunub. Karvansaranın daxilində ümumilikdə 18 otaq yerləşir ki, onların hər biri müxtəlif sənət sahələrini təmsil edən sənətkarların istifadəsinə verilib.

Bununla yanaşı, “BuxarArt” yerli və xarici ziyarətçilər üçün interaktiv sənət məkanı kimi fəaliyyət göstərəcək. Sənətkarlar qonaqlar üçün müxtəlif ustad dərsləri təşkil edərək Azərbaycan xalq sənətinin incəliklərini praktiki şəkildə nümayiş etdirəcəklər. Burada toxuculuq, heykəltaraşlıq, dəriçilik, rəssamlıq, xalçaçılıq, dəmir döymə, miniatür sənəti, bədii keramika, ebru sənəti, keçəçilik və taxtaoyma kimi ənənəvi sənət sahələri təmsil olunur.

Buxara karvansarasının fəaliyyətə başlaması milli sənətkarlıq ənənələrinin qorunması, sənətkarların yaradıcılıq imkanlarının genişləndirilməsi və Azərbaycanın zəngin mədəni irsinin həm yerli, həm də xarici qonaqlara daha yaxından təqdim edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. “BuxarArt” özünəməxsus memarlıq üslubu və mistik atmosferi ilə həm yerli sakinlər, həm də paytaxtımızın qonaqları üçün ən cəlbedici mədəniyyət ocaqlarından birinə çevriləcək.

***XQ***

*Təqvim yada salır*

# Qərbi Azərbaycanın canlı salnaməsi

## *Jurnalist Əsgər Əsgərovun ömrünün 91-ci baharı*

**Bəzən insan ömrü təkcə yaşanan illərlə deyil, gördüyü işlərlə də yadda qalır, dövrünün salnaməsinə çevrilir. Qədim türk yurdu Ağbaba mahalının Qaraçanta kəndinin yetirməsi, Azərbaycan mətbuatının dəyərli simalarından biri Əsgər Fərhad oğlu Əsgərovun 90 illik ömrü də məhz belə mənalı, zəngin və örnək bir həyat yoludur.**

1936-cı il martın 14-də müəllim ailəsində dünyaya gələn Əsgər Əsgərov uşaqlıq illərindən elmə, kitaba və sözə bağlı bir mühitdə böyüyüb. Doğma kəndinin təmiz havası, el-obasının qədim yaddaşı, xalqın yaşatdığı ənənələr onun düşüncə dünyasını formalaşdırıb. Qəlbində həm tarixə sevgi, həm də sözə ehtiram yaranıb.

1960-cı ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirən gənc əmək fəaliyyətinə Amasiya rayonunun Yeniyol kənd səkkizillik məktəbində dil və ədəbiyyat müəllimi kimi başlayıb. Lakin onun qəlbində yaşayan söz sevgisi onu bir müddət sonra jurnalistikaya gətirib. Əsgər Əsgərov əvvəlcə “Kolxozçu tribunası” rayon qəzetində ədəbi işçi kimi fəaliyyətə başlayıb, eyni zamanda, yerli radio verilişlərinin təşkilatçı-redaktoru olub.

Buradaca qeyd edək ki, Əsgər müəllim bir nəsildən yetişmiş 3 qələm sahibindən biridir: atası, Ramiz Əsgər və özü. Onun Xalq yazıçısı İsmayıl Şıxlı, Qərbi Azərbaycanın fədakar maarif xadimi Kərim Əsgərov, tanınmış jurnalist Cahangir Əliyev, böyük maarif ocağı olmuş 145 yaşlı İrəvan Müəllimlər Seminariyası haqqında və digər araşdırma-xatirə yazıları geniş oxucu marağına səbəb olub.

90 illik yubileyi günlərində ağsaqqal qələmdaşımızla apardığımız söhbəti təqdim edirik.

**– Əsgər müəllim, əlamətdar gününüz mübarəkdir! Sizə möhkəm cansağlığı, daha uzun ömür, tükənməz yaradıcılıq enerjisi arzulayırıq! Bu gözəl bayram günlərində könlünüzdən nələr keçir?**

– Diqqətinizə görə sağ olun. “Azərbaycan milli mətbuatının 150 illiyi” medalına layiq görülmüşəm. Qərbi Azərbaycan Amasiya rayon İcmasında yubiley tədbirində Abel Məhərrəmov medalı mənə təqdim etdi. Ünvanıma ən xoş sözlər deyildi. Yazılarım, kitablarım tərifləndi.

**– Ağsaqqal həmkarımız kimi, örnək həyat yolu keçmisiniz. “Sovet Ermənistanı” qəzeti uzun müddət sizin tribunanız olub. Sözə, sənətə, mətbuata sevginiz haradandır?**

– Məndə qəzetə, mətbuata maraq oyadan əsas şəxs atamın əmioğlusu, mənim ilk müəllimim Kərim Əsgərov olub. O, bizim kəndin dəyərli ziyalısı, tanınmış pedaqoq idi, sonra 15 il Ağbabada “Əmək” rayon qəzetinə redaktorluq edib. Onun sözə, sənətə yaratdığı sevginin sayəsində Azərbaycan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olmuşam.



...1955-ci il idi. APİ-də şifahi imtahanda cavablarım yazıçı İsmayıl Şıxlını və dilçi Abbasqulu Məhərrəmovu tam razı salmışdı. Abbasqulu müəllim cümlə təhlilinə xüsusi diqqət yetirmişdi. İsmayıl müəllimin “fikrinizi deyin” sözünə onun cavabı belə olmuşdu: “Mən razı”. Elə buna bənd imiş kimi, müəllim imtahan vərəqəmə “əla” yamışdı, sonra da stolun üstündəki yazımı (inşa) qiymətləndirmişdi – “əla”.

Tələbəlik illərində Mikayıl Rəfili, Əbdüləzəl Dəmirçizadə, Əhməd Kərədu Zəkizadə, Əkrəm Cəfər, Şıxəli Qurbanov, Həmid Əliyev, Şükür Sadıqov, Sədi Əfəndiyev, Mirzağa və Əbdül Axundov qardaşları, Azər Hüseynov, Paşa Əfəndiyev, Böyükxanım Rəhimova, Nəsib Əlizadə, Kamal Qəhrəmanov əziz müəllimlərim olmuşdular. Beləcə həyat yolum müəyyənləşmişdi.

Mənə “Sovet Ermənistanı” adı ilə çıxan qəzetdə 20 il çalışmaq xoşbəxtliyi (1967–1986) nəsib olub. Şöbə müdiri, məsul katib kimi, fəaliyyət göstərmişəm. Qərbi Azərbaycanın görkəmli qələm sahibləri və ictimai xadimləri olmuş Həbib Həsənov, Məhərrəm Bayramov, Cahangir Əliyevlə birlikdə işləmişəm. Heç cür xəyalıma gətirməzdim ki, hələ 2-3-cü siniflərdə oxuyarkən hər bir evə daxil olan “Sovet Ermənistanı”nı vərəqləyib şəkil və yazılarına maraq göstərən uşaq nə vaxtsa bu mətbu orqanın yaradıcı heyəti cərgəsinə qoşulub çalışacaq. Uzun illər bu mətbuat orqanında çalışdım, yüzlərlə məqalənin, oçerkin və publisistik yazının müəllifi oldum. Moskva İctimai Elmlər Akademiyasını bitirdim.

**– Sonra Bakıya köçdünüz...**

– Bəli. 1986-cı ildən Bakı şəhərinə köçdüm və Abşeron rayonunda rəhbər vəzifələrdə çalışdım. Dövlət arxivinin müdiri oldum. Azərbaycan Tibb Universiteti “Təbib” nəşriyyatının baş redaktoru kimi çalışdım. Moskvada aldığım əlavə təhsil mənim publisistik düşüncəmi daha da zənginləşdirdi, analitik baxışlarımı genişləndirdi. 1967-ci ildə SSRİ Jurnalistlər Birliyinə, 1986-cı ildə isə Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul olundum. Fəxr edirəm ki, məqalə və oçerklərim “Sovet Ermənistanı”, “Kommunist”, “Xalq qəzeti”, “Azərbaycan gəncləri”, “Kaspi”, “Sovet kəndi”, “Abşeron” və digər nüfuzlu mətbuat orqanlarında dərc edilib. Dil, üslub və tərcümə məsələlərinə həsr olunmuş yazılarımla isə həm jurnalistika, həm də filologiya sahəsində çalışanlara töhfələrimdir.

**– Bu günlərdə fəal üzvü olduğunuz Ağbaba icması və media təmsilçiləri 90 illik yubileyinizi qədirbilənliklə qeyd etdilər. Mərasimdə “Azərbaycan mətbuatının 150 illiyi” yubiley medalı təntənəli surətdə yaxanıza taxıldı. Bir neçə gündür ki, ömrünüzün 91-ci baharını yaşayırsınız. Bu müdrik yaşda belə qələmi yerə qoymamısınız. Bu yaxınlarda bizim qəzetdə “Ağbaba elinin Təpəköy ağsaqqalı Usub Hacıbalaoğlu” adlı çox maraqlı xatirəniz çap olundu.**

– Yubileyimi təntənə ilə qeyd edən doğmalara və dostlara dərin təşəkkürümü bildirirəm. Bu qədirbilənlik mənə yaşamaq-yaratmaq həvəsi gətirdi. Qərbi Azərbaycanla bağlı bitib-tükənməyən söz-söhbətim, tarixi önəm daşıyan xatirələrim var. Dediyiniz yazı da həmin silsilədən bir örnək idi. Bu araşdırmanı mən Sumqayıt Dövlət Universitetinin professoru Aslan Bayramovun təşəbbüsü ilə qələmə almışdım. Qəzetinizin “Qərbi Azərbaycan” rubrikası üçün uyğun bilib sizə də göndərdim.

Yazıda bəhs olunan əsl adı Yusif olub xalq arasında nəvazişlə “Usub baba” çağırılan o müdrik insan Ağbaba elinin tanınmış və dəyərli şəxsiyyətlərindən idi. Mənim dost-doğma ana babam idi. Təkcə Təpəköydə deyil, bütün Ağbabada onun adı-sanı geniş yayılmışdı. Gördüyü işlər, tutduğu xeyirxah əməllər barədə xoş təəssürat yaranmışdı. Belə kişilərdən söhbət açmaqla millətimizin “qaymaq”larını tanıtmaq borcumuzdur.

Düşünürəm ki, bu, təkcə yaradıcılıq deyil, ziyalı məsuliyyəti, tarix qarşısında vicdan borcu və milli yaddaşa sədaqətdir. Fəxr edirəm ki, ömür yolum müəllimlikdən jurnalistikaya, publisistikadan arxiv işinə, tarix araşdırmalarından baş redaktorluğa qədər uzanan mənalı bir ziyalı yoludur.

**– Əsgər müəllim, qocaman jurnalist kimi sizin ömrünüz, əsl mənada, sözə sədaqətin, ziyalılığın və tarixə bağlılığın canlı nümunəsidir. Bu gümrahlıqda sizə 70-dən artıq yaş vermək olmaz. Yubileyiniz və 91-ci Novruz bayramınız mübarək, 100 yaşayasınız!**

***Əli NƏCƏFXANLI***
***XQ***

*Mirhaşım Talışlı-100*

**Görkəmli tədqiqatçı-alim, filologiya üzrə fəlsəfə doktoru, tanınmış şair, Prezident təqaüdçüsü, respublikanın Əməkdar müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü Mirhaşım Talışlı 1926-cı ilin Novruz günündə yurdumuzun cənub mirvarisi Lənkəranda dünyaya göz açıb. İlk şeirlərini 13-14 yaşlarında yazıb. Azərbaycan ədəbiyyatında qəzəl janrının görkəmli nümayəndəsi şair Əliağa Vahid 1942-ci ildə Lənkərana gələndə onun şeirlərini dinləyib və ona “Müsafir” təxəllüsünü verib.**

# Əliağa Vahiddən təxəllüs almış lənkəranlı müdrik



Ömrünün təxminən 75 ilini ədəbi yaradıcılığa həsr edən Mirhaşım Talışlı "Lənkəran", “125 yaşlı məktəb”, “Lənkəran: ensiklopedik məlumat” kitabı, “Dedim ki sözüm qala” və 4 cildlik seçilmiş əsərlərin müəllifidir. Mirzə İsmayıl Qasirin XIX əsrdə Lənkəranda yaratdığı “Fövcül füsəha” ədəbi məclisini 1990-cı illərin əvvəllərində yenidən bərpa edib. 70 ildən çox Lənkəran ümumtəhsil məktəblərində müəllim, Lənkəran Dövlət Universitetində kafedra müdiri vəzifəsində işləyib. Təhsil sahəsində səmərəli fəaliyyətinə görə 1979-cu ildə respublikanın Əməkdar müəllimi fəxri adına, 2006-cı ildə ədəbiyyatımızın inkişafında böyük xidmətlərinə görə dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb. Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyev 1998-ci il oktyabr ayının 5-də Lənkəranda seçicilərlə görüşü zamanı onun əməyini yüksək qiymətləndirib: “Bizim dostumuz, Lənkəranın ən böyük ziyalılarından biri Mirhaşım Talışlının burada oxuduğu şeir məni çox heyran etdi. Buna görə ona xüsusi təşəkkür edirəm. Lənkəranın həmişə böyük, yüksək ziyalı insanları olubdur. Mən bir dəfə televizora baxırdım. Lənkərandan veriliş gedirdi. Mirhaşım Talışlı Lənkəranın tarixi, keçmişi haqqında danışır, söhbət aparırdı. Siz bunları yaxşı bilirsiniz. Amma mən sizə deyim, bu verilişə diqqətlə, axıradək baxdım. Nə qədər ağıllı, nə qədər zəkalı bir insandır, nə qədər Azərbaycanı sevən bir insandır, nə qədər Azərbaycana sədaqətli bir insandır. Mən sizə təşəkkür edirəm”.

Azərbaycan Yazıçılar Birliyi Lənkəran Bölməsi və AMEA Lənkəran Regional Elmi Mərkəzinin birgə təşkilatçılığı ilə ədəbiyyatşünas alim, şair Mirhaşım Talışlının anadan olmasının 100 illiyinə həsr olunmuş "Dedim ki sözüm qala" adlı yubiley tədbiri keçirilib. AYB Lənkəran Bölməsinin sədri, yazıçı, dramaturq Qafar Cəfərli yubilyarın ömür yolu, təhsil və ədəbiyyat sahəsində misilsiz xidmətləri barədə məlumat verib. Sonra Lənkəran Dövlət Universitetinin professoru, respublikanın əməkdar müəllimi Yədulla Ağazadənin Mirhaşım Talışlının həyatı və zəngin ədəbi yaradıcılığı haqqında məruzəsi dinlənilib. Astara Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru, professor Kamran Kazımov, LDU- nun dosenti, Lənkəran Tarix və Diyarşünaslıq Muzeyinin direktoru Leyla Məcidova, Lənkəran Regional Elmi Mərkəzinin direktor müavini Samir Kərimov, pedaqogika elmləri namizədi Tükəzban Cahangirova, tədqiqatçı-jurnalist, yazıçı Hacı Etibar Əhədov, yubilyarın "Lənkəran" monumental kitabının həmmüəllifi Böyükağa Hüseynbala oğlunun qızı Sevinc Məmmədova və oğlu Mahmud Həsənov, ağsaqqal ziyalı Fəxrəddin Canıyev, şairlərdən Ağamir Cavad, Xatirə Xatun, Ziyafət Yəhya, Səyavuş Süleymanlı, Allahverdi Bayrami, Hacı Allahverən Nəzərov, Xudaverdi Cavad, Əhməd Haqsevər, Sərraf Talıb və başqaları yubilyarla bağlı xatirələrini bölüşüblər. Lənkəran şəhərindəki C.Cabbarlı adına musiqi məktəbinin muğam üçlüyünün iştirakı ilə istedadlı, peşəkar muğam ustası İmanverdi Ağayev yubilyarın qəzəllərini ifa edib.

***Ə.HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Xəzər Universiteti - 35*

# Xəzər sahilində çağdaş ali təhsil ocağı



**Xəzər Universitetinin qapısından ilk dəfə tələbə kimi daxil olanda 1994-cü il idi. Ölkə müstəqilliyini yenicə bərpa etmişdi, cəmiyyət dəyişir, yeni ideyalar, yeni düşüncə tərzi formalaşırdı. Xəzər Universiteti bu dəyişikliklərin içində doğulan və gələcəyə yönələn ümid idi. Mən belə bir zamanda artıq 4 il idi ki, fəaliyyət göstərən və sürətlə tanınmağa başlayan Xəzər Universitetinin tələbəsi oldum. Universitet ingilis dilində keyfiyyətli təhsil verən ali təhsil müəssisəsi kimi diqqət mərkəzinə çevrilirdi. Biz ABŞ universitetlərində istifadə edilən eyni dərslikləri oxuyur və amerikalı müəllimlərdən dərs alırdıq. Buradakı mühit, müəllimlər və tələbələr fərqli idi.**

Quruculuq işlərinin və təşəbbüskarlığın arxasında işıqlı şəxsiyyət - professor Hamlet İsaxanlı dayanırdı. Onun uzaqgörənliyi, cəsarəti və zəhməti sayəsində Azərbaycanda belə bir universitet modeli formalaşmışdı. O, hələ sovet dövründə Avropa və Şimali Amerika universitetlərində dərs demiş, fərqli akademik mühitlərə yaxından bələd idi. Bu ideyanı reallığa çevirmək heç də asan olmadı. Sovet sistemindən təzəcə ayrılmış bir mühitdə yeni tipli universitet yaratmaq, fərqli düşüncə tərzini qəbul etdirmək böyük səbir və əzm tələb edirdi. Professor Hamlet İsaxanlı bu uzun və çətin yolu "Xəzərin sorağında" kitabında ətraflı şəkildə təsvir edir. Kitabda yalnız universitetin yaranma tarixini deyil, həm də bir ideyanın necə doğulduğunu, necə qorunduğunu və necə inkişaf etdiyini görmək mümkündür.

Zaman keçdikcə universitet mənim üçün həm təhsil aldığım, öyrəndiyim, inkişaf etdiyim və müxtəlif vəzifələrdə çalışdığım, akademik mühitə çevrildi. Auditoriyada dərs demək, müxtəlif idarəetmə və akademik vəzifələrdə çalışmaq mənə Xəzəri yalnız bir tələbənin baxış bucağından deyil, həm də universitetin daxilindən görmək və tanımaq imkanı verdi.

Bu gün Xəzər Universiteti Azərbaycan ali təhsil sistemində keyfiyyətli tədris modeli ilə yanaşı, güclənən elmi-tədqiqat və innovasiya fəaliyyəti ilə seçilən aparıcı akademik mərkəzlərdən biridir. Müasir dünyada universitetlər yalnız bilik ötürmür, cəmiyyətin sosial-iqtisadi inkişafına da töhfə verir. Xəzər Universiteti də məhz bu yanaşmanı əsas götürərək son illərdə elmi-tədqiqat fəaliyyətini genişləndirmişdir. Müxtəlif sahələri əhatə edən tədqiqat mərkəzləri və laboratoriyalar universitetin elmi potensialının formalaşmasında və beynəlxalq elmi əməkdaşlıqların qurulmasında mühüm rol oynayır.

Universitetdə fəaliyyət göstərən tədqiqat mərkəzləri müxtəlif elmi istiqamətləri əhatə edir və multidissiplinar yanaşma təşviq edir. Müasir tədqiqat infrastrukturu ilə təchiz olunan laboratoriyalar həm tələbələrin praktik biliklərini artırmaq, həm də alim və tədqiqatçılara innovativ araşdırmalar aparmaq üçün geniş imkanlar yaradır. "Nanotexnologiya", "Biomühəndislik", "Hüceyrə patologiyası", biologiya, kimya və fizika laboratoriyaları təbiət elmləri və biotexnologiya sahəsində fundamental və tətbiqi tədqiqatlar üçün mühüm elmi platforma rolunu oynayır. Bu laboratoriyalarda aparılan tədqiqatlar yeni materialların öyrənilməsi, bioloji proseslərin araşdırılması və müasir elmi metodların tətbiqi kimi istiqamətləri əhatə edir. Universitetdə fəaliyyət göstərən "İnşaat mühəndisliyi", "Torpaq mexanikası", "Mexanika mühəndisliyi", "Neft mühəndisliyi", "Elektronika, telekommunikasiya, radiototexnika", " Elektrik güc sistemləri", "Robotexnika" laboratoriyaları tələbələrə praktiki təcrübə qazandırır. Burada tələbələr müasir texnologiyalarla işləməyi öyrənir, layihələr hazırlayır və sənaye problemlərinin həlli istiqamətində tədqiqatlar aparırlar.



Enerji və ekoloji istiqamətlər də universitetin tədqiqat prioritetləri sırasında xüsusi yer tutur. "Bərpaolunan enerji" və "Hava keyfiyyəti" laboratoriyaları bu sahələrdə aparılan araşdırmalar enerji səmərəliliyi və ekoloji təhlükəsizlik kimi qlobal məsələlərə töhfə verir. Bundan əlavə, baytarlıq laboratoriyaları və klinikaları biologiya və tibb sahəsində həm tədris, həm də tətbiqi tədqiqatların həyata keçirilməsinə imkan yaradır. Bu laboratoriyalar tələbələrin praktiki bacarıqlarının formalaşmasına və müasir tibbi-bioloji metodların öyrənilməsinə xidmət edir.

Məqsədimiz gələcəkdə tədqiqat infrastrukturunu daha da genişləndirmək, yeni elmi istiqamətlər formalaşdırmaq və Xəzər Universitetinin yalnız ölkəmizdə deyil, regionda da aparıcı tədqiqat və innovasiya mərkəzlərindən biri kimi mövqeyini möhkəmləndirməkdir. Bu inkişaf yolu universitetin strateji baxışını - bilik,





tədqiqat və innovasiya üzərində qurulan müasir universitet modelini əks etdirir.

Məlumdur ki, Xəzər Universiteti Azərbaycan ali təhsil məkanında özünəməxsus mövqeyi olan, dinamik inkişaf yolu keçmiş və müasir akademik mühit formalaşdırmış nüfuzlu elm və təhsil ocağı kimi tanınır. Bir zamanlar böyük ideyalar və cəsarətli akademik təşəbbüslər üzərində qurulan universitet artıq güclü institusional struktura malik böyük bir ali təhsil müəssisəsinə çevrilmişdir. Hazırda altı fakültədə beş mindən artıq tələbə təhsil alır. Universitetdə müxtəlif ölkələrdən gəlmiş tələbə və müəllimlər bir araya gələrək multikultural və beynəlxalq akademik mühit yaradırlar.

Universitetin keçdiyi inkişaf yolu göstərir ki, doğru akademik strategiya, beynəlxalq əməkdaşlıq və elmi yeniliklərə açıq olmaq hər bir ali təhsil müəssisəsini qlobal miqyasda tanınan elm ocağına çevirə bilər.

35 illik tarixə nəzər yetirəndə Xəzər Universitetinin yeni mərhələyə doğru inamla irəlilədiyinin şahidi oluruq: daha güclü tədqiqat universiteti olmaq, beynəlxalq akademik şəbəkələrdə fəal iştirak etmək və Azərbaycan elminə töhfə vermək.

Dünyanın ən nüfuzlu elmi göstəricilərindən biri olan "Nature Index" platformasında universitetin elmi fəaliyyəti yüksək qiymətləndirilir. Qeyd edək ki, "Nature Index" yüksək nüfuza malik beynəlxalq elmi jurnallarda dərc olunan məqalələr əsasında universitetlərin tədqiqat məhsuldarlığını ölçür. 2025-ci ilin göstəricilərinə görə, Xəzər Universiteti təbiət elmləri üzrə 56 elmi məqalə və 7.39 müəlliflik payı göstəricisi ilə Azərbaycan üzrə birinci yeri tutaraq ölkənin aparıcı tədqiqat universiteti kimi mövqeyini möhkəmləndirmişdir.

Bununla yanaşı, universitet dünyanın nüfuzlu qiymətləndirmə sistemlərindən olan "Times Higher Education Impact Rankings" reytinqində yer alaraq qlobal akademik məkanın fəal iştirakçılarından biri kimi tanınır. Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə universitetlərin töhfəsini qiymətləndirən bu reytinqdə Xəzər Universiteti 401–600 aralığında qərarlaşaraq Azərbaycan üzrə ən yüksək göstərici nümayiş etdirmişdir. Bu nəticə universitetin yalnız təhsil və tədqiqat sahəsində deyil, həm də cəmiyyətə, iqtisadi inkişafa və sosial rifaha verdiyi töhfənin beynəlxalq səviyyədə qiymətləndirildiyini göstərir.

Universitet dünyanın aparıcı ali təhsil müəssisələrinin qiymətləndirildiyi nüfuzlu "QS World University Rankings" siyahısında qlobal miqyasda tanınan universitetlər sırasında göstərilir. Bu reytinq yalnız universitetlərin akademik reputasiyasını deyil, həm də tədqiqat məhsuldarlığını, beynəlxalq əməkdaşlıqları və məzunlarının nüfuzunu qiymətləndirən mühüm göstəricilərdəndir. Bununla yanaşı, Avropa universitetləri arasında aparılan qiymətləndirmələrdə Xəzər Universitetinin adı qitənin tanınmış ali təhsil müəssisələri sırasında çəkilir. Azərbaycanın ali təhsil sisteminin beynəlxalq səviyyədə tanıdılması baxımından belə nəticələr xüsusi əhəmiyyət daşıyır.

Xəzər Universitetinin elmi nüfuzunun artmasının əsas göstəricilərindən biri də tədqiqatların sitat göstəriciləri və beynəlxalq elmi nəşrlərdir. Universitetin alimləri müxtəlif sahələr üzrə aparıcı beynəlxalq jurnallarda yüzlərlə elmi məqalə dərc etmiş, bu tədqiqatlar isə dünya alimləri tərəfindən minlərlə dəfə sitat gətirilmişdir. Bu fakt universitetdə aparılan elmi araşdırmaların yalnız yerli səviyyədə deyil, beynəlxalq elmi ictimaiyyət üçün də maraq doğurduğunu və elmi biliklərin inkişafına töhfə verdiyini göstərir. Müxtəlif beynəlxalq konfranslarda, elmi forumlarda və akademik layihələrdə fəal iştirak edən əməkdaşlarımız əldə etdikləri nəticələri dünya elmi ictimaiyyəti ilə bölüşürlər.

Sadaladığım uğurları, beynəlxalq reytinqlərdəki mövqeyi, yüksək sitat göstəriciləri və nüfuzlu jurnallarda dərc olunan tədqiqatları haqqında bəhs edərkən bir həqiqəti anladım: Xəzər Universitetinin gücü yalnız tədris proqramlarında, müxtəlif tədqiqat mərkəzləri və laboratoriyalarında və ya tədris binalarında deyil, məhz burada çalışan insanlardır. Biz universitet olaraq insanlara yalnız bir resurs kimi deyil, həm də bir dəyər və sərvət kimi yanaşırıq. Burada əməkdaşlar diqqətlə seçilir, inkişaf etdirilir və onların potensialının üzə çıxarılması üçün hər cür şərait yaradılır. Bizim üçün müəllimlərimiz, əməkdaşlarımız, həm də tələbə və məzunlarımız çox qiymətlidirlər. Onlar Xəzər ailəsinin ayrılmaz tərkib hissəsi, bizim ən böyük sərvətimizdir. Universitetin mahiyyətini və ruhunu formalaşdıran da məhz bu insanlardır.

Fəxr edirik ki, Xəzər Universitetinin tələbələri və məzunları güclü və çevik düşüncəyə sahib, dünyaya açıq baxa bilən, fərqli düşünməkdən çəkinməyən, insanlara hörmət və sevgi ilə yanaşan, başqalarına qarşı ədalətli olmağı bacaran fərdlər kimi formalaşırlar.

Eyni sözləri universitetin müəllim və əməkdaşları haqqında da demək olar. Xəzərdə çalışan insanlar yalnız öz sahələrinin mütəxəssisləri deyil, eyni zamanda, gənclərə yol göstərir, onların inkişafına töhfə verir və universitetin dəyərlərini yaşadırlar. Onların zəhməti, sədaqəti və peşəkarlığı olmasaydı, universitetin uğur qazanması mümkün olmazdı.

Qarşıdakı illərdə bu yolu şərəflə davam etdirmək, dəyərləri qorumaq və Xəzərin inkişafını yeni mərhələyə istiqamətləndirmək əsas məqsədimizdir. Axı, Xəzər Universitetinin yaranması, formalaşma tarixçəsi bir tədris ocağının uğur hekayəsi deyil. Bu, həm də parlaq ideyaların, insanların əzmkarlığının və sabaha inamın təntənəsidir. Bu uğur hekayəsinin müəllifləri Xəzərin tələbələri, məzunları, müəllim və əməkdaşlarıdır. Elə buna görə də Xəzər Universitetinin gələcəyi haqqında düşünərkən, ilk növbədə, burada çalışan insanlar gözlərim önündə dayanırlar.

Bu gün universitetin rektoru kimi ötən illərə nəzər salanda yalnız bir təhsil müəssisəsinin inkişafını deyil, həm də işıqlı bir ideyanın, zəngin akademik mədəniyyətin və peşəkar insanların birliyinin formalaşdığını görürəm. Bir vaxtlar tələbə kimi oturduğum auditoriyalar, müzakirələr apardığımız dəhlizlər, saatlarla vaxt keçirdiyimiz kitabxana bu gün mənim üçün tamam başqa məna kəsb edir. Universitetin qurucusu, professor Hamlet İsaxanlının zəngin akademik irsi mənim üçün böyük etimad və eyni zamanda böyük məsuliyyətdir.

***Raziyə İSAYEVA,***
***Xəzər Universitetinin rektoru***

# Lənkəran səhnəsinin "Dədə Qorqud"u

**Hər il Lənkəranda və qonşu rayonlarda keçirilən Novruz şənliyində Dədə Qorqud rolunu ifa edir. Hündür boyu, əzəmətli duruşu, ürəyəyatımlı səsi ilə ulu Qorqudun müdrik obrazını öz biçimində, öz duyumunda yaradır. Dünyamızın başı üstünü almış fəlakətlərdən, ardı-arası kəsilməyən müharibələrdən narahatçılığı hiss olunur. Əlində qopuz insanları sülhə, dünyamızı qorumağa səsləyir. Ulu Tanrıdan xalqımıza əmin-amanlıq, ruzi, bərəkət diləyir.**

N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının istedadlı aktyoru Allahverən Babayev özünəməxsus, milli düşüncə simvolları ilə yaratdığı Dədə Qorqud obrazı ilə uzun illərdir ki, minlərlə tamaşaçının rəğbətini, sevgisini qazanır. O, artıq 40 ilə yaxındır ki, Lənkəran teatrında çalışır.

1961-ci ildə Lerik rayonunun qartallı qayalar, sərin yaylaqlar, buz bulaqları ilə məşhur olan Monidigah kəndində dünyaya göz açıb. Orta məktəbi doğma kəndində bitirib.

Kənd mədəniyyət evində fəaliyyət göstərən "Lakto" folklor kollektivi o dövrdə təkcə rayonda deyil, respublikamızdan uzaqlarda da tanınırdı. Kollektiv sovet dönəmində Kubada, digər xarici ölkələrdə səfərlərdə olub. O, ansamblın teatr elementləri ilə zəngin çıxışlarını həmişə böyük maraqla izləyib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dram və kino aktyorluğu fakültəsində professor Mehdi Məmmədovun kursunda təhsil alıb. Səhnə danışığı ustadı Həsən Əblucdan və digər görkəmli sənətkarlardan dərs alıb.





1987-ci ildə təhsilini başa vurub N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrına təyinat alıb. Teatrın baş rejissoru işləyən respublikanın Əməkdar incəsənət xadimi mərhum Baba Rzayevin onun həyatında böyük rolu olub. İlk dəfə professional səhnəyə Cahan Əfruzun "Qanqın böyük dalğası" tamaşasında Şorot rolunda çıxıb. İlk sınaq uğurlu olub.

İstər dramatik, istərsə də komediya rollarını məharətlə, yüksək peşəkarlıqla ifa etməsi ilə tamaşaçıların diqqətini çəkib. Aylar, illər ötdükcə yaratdığı obrazların sayı da artıb. İndiyə kimi doğma teatrın səhnəsində 120-dən artıq rol oynayıb. Aparıcı səhnə ustası "Sevginin göz yaşları", "Günəşim ol", "İzi itməyən cinayətlər" və digər teleseriallara çəkilib.

Teatrın səhnəsində Sofoklun "Şah Edip" tamaşasında Tiresi rolunu yüksək peşəkarlıqla ifa etdiyinə görə Lənkəran Şəhər İcra Hakimiyyəti tərəfindən "İlin ən yaxşı aktyoru" mükafatını qazanıb.

Dövlət başçısının müvafiq sərəncamları ilə iki dəfə Prezident mükafatına, Mədəniyyət Nazirliyinin Azərbaycan Teatr Xadimləri İttifaqı ilə birlikdə keçirdiyi Xurşidbanu Natəvanın 190 illik yubileyinə həsr olunmuş "Cənnətim Qarabağ" bədii qiraət və "Xarıbülbülün təntənəsi" müsabiqələrində diplom və pul mükafatlarına layiq görülüb. Teatr sənətinin inkişafında xidmətlərinə görə Lənkəran Şəhər İcra Hakimiyyəti və Lənkəran Dövlət Dram Teatrı tərəfindən fəxri fərmanlarla mükafatlandırılıb.

Türkiyənin Konya şəhərində türkdilli ölkələrin "Min nəfəs, bir səs" adlı beynəlxalq festivalında nümayiş olunan "Məhəbbət və ölüm" tamaşasında Dədə Qorqud rolunu oynayıb. İran İslam Respublikasının Həmədan şəhərində 25-ci "Uşaq və gənclər" beynəlxalq tamaşalar, Gürcüstan və digər xarici ölkələrdə keçirilən beynəlxalq festivallarda ölkəmizin teatr sənətini layiqincə təmsil edib.

Sənət təkcə istedad yox, həm də zəhmət və fədakarlıq tələb edir, – deyə Allahverən Babayev söhbətə başlayır. Sənət sonsuz ümman, teatr isə müqəddəs bir məbəddir. Lənkəran Dövlət Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi, Dağıstan Respublikasının Əməkdar artisti Laləzar Hüseynovanın və yaradıcı kollektivin qayğısı məni daha da ruhlandırır. 65 illik yubileyimlə əlaqədar Azərbaycan Teatr Xadimləri İttifaqı tərəfindən "Teatr fədaisi" medalı ilə təltif olunmağımı yaradıcılığımın zirvəsi hesab edirəm. Sənət fədaisi adını daşımaq həm şərəf, həm də böyük məsuliyyətdir.

İstedadlı, təcrübəli və peşəkar aktyor Allahverən Babayevin sənətinə hörmət və sevgisi çox böyükdür. İnanırıq ki, onu daha yüksək uğurlar və sənət sevincləri gözləyir.

***H.ƏLİSƏFA***
***XQ***

*Yeni layihələr*

# Qaranlıq dünyaya düşən mərhəmət işığı

**Əlilliyi olan şəxslərin sosial müdafiəsi sosial siyasətin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində bu sahədə məqsədyönlü işlər aparılır, bu kateqoriyadan olan vətəndaşlar dövlət qayğısı ilə əhatə olunurlar. Bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər sosial dövlət modelinin möhkəmlənməsinə və inklüziv cəmiyyətin formalaşmasına mühüm töhfə verir.**

Dövlətin sosialyönümlü siyasəti göstərir ki, əlilliyi olan şəxslərin sosial müdafiəsi yalnız sosial yardım mexanizmi deyil, insan kapitalının inkişafına və cəmiyyətin davamlı inkişafına xidmət edən strateji istiqamətdir. Dövlət tərəfindən təqdim olunan müxtəlif texniki reabilitasiya vasitələri – xüsusi proqram təminatı olan kompüterlər, səsli texnologiyalar, brail əlifbası ilə çap olunmuş materiallar və digər yardımçı vasitələr görmə məhdudiyyətli şəxslərin təhsil, məşğulluq və informasiya resurslarına çıxışını genişləndirir.

Həyata keçirilən fəal məşğulluq proqramları çərçivəsində bu kateqoriyadan olan şəxslərin peşə hazırlığı kurslarına cəlb olunması, yeni ixtisaslar üzrə bacarıqlar əldə etməsi və əmək bazarına inteqrasiyası üçün geniş imkanlar yaradılır. Özünüməşğulluq proqramları da görmə məhdudiyyətli şəxslərin iqtisadi fəaliyyətə qoşulmasına, sosial müdafiəsinin gücləndirilməsinə, rifahının yüksəldilməsinə, layiqli həyat şəraitinin təmin olunmasına yardım edir.

Bu kateqoriyalardan olan vətəndaşların İKT vasitəsilə məlumat əldə etmək və biliklərini artırmaq imkanlarının genişləndirilməsi məqsədilə Heydər Əliyev Fondunun mühüm sosial layihələrindən biri olaraq Naxçıvan, Gəncə, Yevlax şəhərlərində Regional İnformasiya mərkəzləri istifadəyə verilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən gözdən əlilliyi olan şəxslər əmək pensiyası və ya müavinətlə, həmçinin onlardan orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi müəyyən edilmiş şəxslər və onlara qulluq edənlər Prezidentin aylıq təqaüdü ilə təmin olunurlar. Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələri növlərinin siyahısı ötən il xeyli genişləndirilib və siyahıya gözdən əlilliyi olan şəxslər üçün ağ əsa, brayl sistemi ilə yazı üçün cihaz, ekran-oxuyucuları da daxil edilib.



Bu barədə XQ-yə məlumat verən **Sosial Xidmətlər Agentliyi İdarə Heyəti sədrinin müavini Pərviz Səfərov** bildirdi ki, sosial siyasətin mühüm istiqamətlərindən biri sosial həssas qrupların sosial müdafiəsinin gücləndirilməsidir. Bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında mənzil təminatı proqramı xüsusi yer tutur. Ölkəmizdə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərlə yanaşı, gözdən əlillərin də dövlət tərəfindən mənzillərlə təminatı həyata keçirilir.

Agentliyin tabeliyində olan Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində görmə qabiliyyəti məhdud şəxslərə tibbi, pedaqoji, idman, mədəniyyət və incəsənət, həmçinin psixoloji və sosial reabilitasiya xidmətləri göstərilir.

Burada brayl əlifbası, əl ağacından istifadə qaydaları, açıq havada, qapalı məkanlarda səs vasitəsilə istiqamətin düzgün təyini öyrədilir. Kompüter və telefondan səsli proqram vasitəsilə istifadə qaydaları aşılanır, sosial adaptasiya yönümlü işlər aparılır. Gözdən əlilliyi olan şəxslərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif fəaliyyətlər, ekskursiyalar da təşkil edilir, maarifləndirici təlimlər keçilir.

Bu kateqoriyadan olan şəxslər Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə öz müraciətləri, valideynləri, qohumları və ya digər qanuni nümayəndələri, həmçinin bələdiyyələr və qeyri-hökumət təşkilatları tərəfindən edilən müraciətlər əsasında qəbul olunurlar. Müraciətlər Sosial Xidmətlər Agentliyinin yerli qurumlarına və ya DOST mərkəzlərinə edilir.

Müsahibimiz daha sonra qeyd etdi ki, Sosial Xidmətlər Agentliyinin tabeliyində olan Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzində digər əlilliyi olan şəxslərlə yanaşı, 15-35 yaşlı görmə imkanı məhdud şəxslərin də yeni peşələrə yiyələnmələri üçün işlər aparılır. Bu məqsədlə onların əmək bazarına inteqrasiyasını dəstəkləyən müxtəlif peşə hazırlığı proqramları həyata keçirilir. Benefisiarlar burada kompüter montajı, montajçı operator, dərzilik, toxuculuq, xalçaçılıq, dulusçuluq, aşpaz köməkçisi, ağac üzərində oyma, kişi bərbəri, qadın bərbəri, manikür və rəssamlıq üzrə 3-6 aylıq kurslara cəlb edilirlər. Təlimləri uğurla başa vuran şəxslərə müvafiq sertifikatlar təqdim olunur



və onların gələcək məşğulluq imkanlarının artırılması istiqamətində dəstək göstərilir.

Sosial Xidmətlər Agentliyinin göstərdiyi sosial xidmətlər vasitəsilə minlərlə şəxsin evlərində məişət xidmətlərindən yararlandığını söyləyən Pərviz Səfərov dedi ki, bu xidmət əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni inzibati ərazi dairəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara və əlilliyi olan şəxslərə göstərilir. Onların arasında gözdən əlilliyi olan vətəndaşlarımız da var. Sosial xidmətçilər tərəfindən bu şəxslərə gündəlik məişət işlərində, o cümlədən yemək hazırlanması, evin təmizlənməsi, dərman alınması, kommunal xərclərin ödənilməsi və başqa işlərdə köməklik göstərilir.

Öyrəndik ki, imtiyazlı kateqoriyadan olan şəxslər Sosial Xidmətlər Agentliyinin yerli filialları və DOST mərkəzləri tərəfindən sanatoriya-kurort yollayışları ilə də təmin olunurlar. Bu proses qanunvericiliyə əsasən növbəlilik qaydasında həyata keçirilir. 2020-ci ildən bu günədək 14 mindən çox imtiyazlı şəxs yollayışla təmin olunaraq sanatoriya-kurort və müalicə mərkəzlərinə göndərilib. Əlbəttə, bu işlər davamlı xarakter daşıyır. Eyni zamanda, görmə imkanları məhdud şəxslərin sosial reabilitasiyası məqsədilə Sosial Xidmətlər Agentliyinin sosial sifarişləri əsasında layihələr də icra olunur.

"Danışan kitab" və "Tiflo TV" saytları və mobil tətbiqləri məhz bu kateqoriyadan olan şəxslər üçün nəzərdə tutulub. "Danışan kitab" mobil tətbiqindən istifadə edərək yerli və xarici müəlliflərin hekayələrini, Azərbaycan və dünya xalqlarının nağıllarını, sevilən şairlərin şeirlərini dinləmək mümkündür. Burada 400-dən çox səsli material yerləşdirilib.

"Tiflo TV" layihəsində isə bir sıra sənədli və bədii film, eləcə də cizgi filmlər tiflo şərh formatında ssenari halına salınıb. Tətbiqdə gözdən əlilliyi olan şəxslərin maraqlarını əsas götürən və tanınmış aktyorlar tərəfindən səsləndirilən 50 videomaterial yerləşdirilib. Qeyd edilən kateqoriyadan olan vətəndaşların videomaterialları izləməsini asanlaşdırmaq üçün ekrana videoşərh proqramı tətbiq edilib. Tiflotexnologiya görmə imkanları məhdud şəxslərə normal görmə qabiliyyətinə malik istifadəçilərin imkanlarından fərqlənməyən şəkildə texnologiyadan istifadə imkanı verir. Bu texnologiya görmə qabiliyyəti məhdud olan şəxslərin informasiya mübadiləsi probleminin həllinə kömək edir. Bu mobil tətbiqləri həm iOS (Apple Store), həm də Android (Google Play) əməliyyat sistemli smartfonlara yükləyərək istifadə etmək mümkündür.

Göründüyü kimi, ölkəmizdə sağlamlıq imkanları məhdud olan təbəqəyə qayğı və onların problemlərinin yüngülləşdirilməsi daim diqqət mərkəzindədir. Bu sahədə mümkün olan bütün vasitələrdən istifadə edilir, gözdən əlil şəxslərin sosial təminatı ildən-ilə yaxşılaşır.

***Mustafa KAMAL***
***XQ***

*Yeniliyin tərs üzü*

# Sosial yayımlarda saxta təqdimatlar



**Son illərdə texnologiyanın sürətli inkişafı sosial medianın məzmun istehsalında da yeni mərhələ yaradıb. Artıq internet istifadəçiləri gündəlik olaraq müxtəlif videolar, reklamlar və şəkillərlə qarşılaşırlar. Bu materialların əhəmiyyətli hissəsi isə süni intellekt (Aİ) vasitəsilə hazırlanır. Xüsusilə sosial şəbəkələrdə yayılan bəzi videolar və fotolar ilk baxışda real görünsə də, əslində, süni intellekt məhsulu olur. Bu isə informasiya mühitində həm yeni imkanlar, həm də müəyyən risklər yaradır.**

Süni intellekt proqramları reklam, kino, media və təhsil sahələrində böyük imkanlar açır. Məsələn, reklam şirkətləri məhsullarını daha kreativ şəkildə təqdim edə, media qurumları isə vizual materialları daha sürətli hazırlaya bilirlər. Eyni zamanda, bəzi hallarda süni intellekt vasitəsilə tarixi şəxsiyyətlərin obrazları canlandırılır və ya maarifləndirici videolar hazırlanır.

Lakin bu texnologiyanın mənfi tərəfləri də diqqət çəkir. Sosial mediada yayılan bəzi materiallar süni intellekt vasitəsilə hazırlanmasına baxmayaraq, gerçəklik kimi təqdim edilir. Xüsusilə tanınmış şəxslərin görüntülərindən istifadə olunaraq hazırlanan saxta videolar, yəni "deepfake" texnologiyası son zamanlar ciddi müzakirə mövzusuna çevrilib. Belə videolarda hər hansı bir insanın səsi və ya siması texniki vasitələrlə dəyişdirilərək, onun demədiyi sözlər verilir.

Mütəxəssislərin fikrincə, bu cür məzmunlar insanların reputasiyasına da zərər vurar. Tanınmış şəxslərin və ya adi vətəndaşların görüntülərinin icazəsiz istifadə edilməsi etik və hüquqi problemlər doğurur. Bir çox ölkələrdə artıq bu sahədə qanunvericilik mexanizmləri hazırlanır və şəxsin razılığı olmadan onun görüntüsündən süni intellekt vasitəsilə istifadə edilməsinə görə məsuliyyət nəzərdə tutulur. İstifadəçilərin də rəqəmsal savadlılığının artırılması vacib hesab olunur. İnternetdə yayılan hər bir videonun və ya şəklin real olub-olmadığını müəyyən etmək bəzən çətin olsa da, mənbəni yoxlamaq, müxtəlif platformalarda məlumatın doğruluğunu araşdırmaq və tənqidi düşüncə ilə yanaşmaq mühüm əhəmiyyət daşıyır.

İnformasiya dövründə ən vacib məsələ isə texnologiyanın inkişafı ilə yanaşı, insanların da bu yeniliklərə uyğun şəkildə məlumatlı və ayıq olmalarıdır. Belə olduqda süni intellekt cəmiyyət üçün risk deyil, daha çox fayda gətirən alətə çevrilə bilər.

Süni intellektin tənzimlənməsi istiqamətində ən geniş hüquqi çərçivələrdən biri Avropa İttifaqında hazırlanıb. 2024-cü ildə qəbul edilən "AI Act" süni intellekt sahəsində ilk genişmiqyaslı beynəlxalq qanunlardan hesab olunur. Sənəd süni intellekt sistemlərini risk səviyyəsinə görə müxtəlif kateqoriyalara ayırır və onların istifadəsinə uyğun tələblər müəyyən edir. Qanuna əsasən, süni intellektlə yaradılan şəkil, video və ya audio materiallar üzərində süni intellekt vasitəsilə yaradıldığı qeyd olunmalıdır. Bundan əlavə, insanın davranışını manipulyasiya edən və ya hüquqlarını poza biləcək bəzi AI tətbiqləri, ümumiyyətlə, qadağan edilir.

ABŞ-da da süni intellektdən sui-istifadə hallarının qarşısını almaq üçün hüquqi mexanizmlər tətbiq olunur. "TAKE IT DOWN Act" qanunu sosial şəbəkələrdə yayılan razılıqsız intim görüntülərin, o cümlədən süni intellekt vasitəsilə yaradılan "deepfake" materialların sürətlə silinməsini tələb edir. Bəzi Avropa ölkələri isə AI texnologiyalarının istifadəsinə daha sərt yanaşır. Qeyd etmək lazımdır ki, İtaliya süni intellektin istifadəsini tənzimləyən, hərtərəfli qanunu təsdiqləyən ilk Aİ ölkəsidir.

Danimarkada isə daha fərqli yanaşma müzakirə edilib. Belə proseslərin qarşısını almaq üçün ölkədə bu ilin iyun ayında Mədəniyyət Nazirliyi müəllif hüquqları qanununa dəyişiklik etmək təklifini açıqlayıb, vətəndaşlara görüntüləri ilə bağlı qanuni mülkiyyət hüququ verib.

Son illər süni intellekt texnologiyalarının sürətlə inkişafı sosial mediada və rəqəmsal platformalarda yeni imkanlar yaratmaqla yanaşı, müəyyən riskləri də ortaya çıxarıb. Xüsusilə insanların səsi və görüntüsündən istifadə edərək hazırlanmış saxta videolar və şəkillər, yəni "deepfake" məzmunlar artıq dünyanın bir çox ölkəsində ciddi müzakirə mövzusuna çevrilib. Bu proses Azərbaycanda da diqqət mərkəzindədir və məsələ ilə bağlı qanunvericilik səviyyəsində müəyyən dəyişikliklər təklif olunur.

Hazırda ölkəmizdə süni intellektdən sui-istifadə hallarının qarşısını almaq məqsədilə yeni hüquqi mexanizmlərin tətbiqi müzakirə olunur. Milli Məclisdə müzakirəyə çıxarılan qanun layihəsinə əsasən, şəxsin razılığı olmadan onun görüntüsü və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları və ya xüsusi proqram təminatı vasitəsilə reallığı əks etdirməyən foto, video və ya audio materialların hazırlanması və yayılması cinayət məsuliyyəti yaradır.

Təklif edilən dəyişikliklərə görə, belə materialların mediada, internet informasiya ehtiyatlarında və ya informasiya-telekommunikasiya şəbəkələrində yayılması 3 min manatdan 7 min manatadək cərimə ilə nəticələnə, daha ağır hallarda isə 3 ilədək azadlıqdan məhrumetmə cəzası tətbiq oluna bilər. Eyni zamanda, qanun pozuntusuna yol verən şəxslər üçün 360 saatdan 480 saatadək ictimai işlər və ya 3 ilədək azadlığın məhdudlaşdırılması kimi cəzalar da nəzərdə tutulur.

Eyni əməl bir qrup şəxs tərəfindən və ya əvvəlcədən əlbir olaraq törədildikdə, 2 və ya daha çox şəxsə qarşı həyata keçirildikdə, yaxud kiminsə şərəf və ləyaqətini ləkələmək, onu nüfuzdan salmaq məqsədi daşıdıqda daha ciddi məsuliyyət yaradır. Bu cür hərəkətlərin şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar ona və ya yaxın qohumlarına qarşı törədilməsi də ağırlaşdırıcı hal kimi qiymətləndirilir. Belə hallarda 3 ildən 5 ilədək azadlıqdan məhrumetmə cəzası tətbiq oluna bilər.

Bundan əlavə, süni intellekt texnologiyaları vasitəsilə hazırlanmış foto, video və ya audio materiallar kütləvi şəkildə nümayiş etdirildiyi zaman onların süni intellekt vasitəsilə hazırlandığını açıq şəkildə göstərən və asanlıqla görünən nişanlanma tələb edilir.

Mütəxəssislərin fikrincə, bu dəyişikliklər həm vətəndaşların şəxsi hüquqlarının qorunması, həm də rəqəmsal mühitdə yayılan saxta məlumatların qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır. Çünki süni intellekt texnologiyalarının imkanları genişləndikcə, manipulyasiya məqsədilə istifadəsi riski də artır.

**Mövzu ilə bağlı Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Arzuxan Əlizadə bildirdi ki, bu təkliflə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə yeni 148-2 və 242.1 maddələri əlavə edilə bilər:**



– Cinayət-Prosessual Məcəlləsinin 37.3 maddəsinə də müvafiq dəyişikliklər edilməsi, Cinayət Məcəlləsinin 148-2.1 maddəsi üzrə də cinayət tətbiqinin həyata keçirilməsi müəyyən edilib. İnformasiyalaşdırma və informasiyanın hafizəsi, media haqqında Azərbaycan Respubikasının qanunlarına da dəyişikliklərin və əlavələrin olunması müzakirə mövzusudur. Bununla da süni intellekt texnologiyalarından istifadə etməklə hazırlanmış materialların yayılması ilə bağlı hüquqi tələblər və məhdudiyyətlər müəyyən edilir.

Müasir dünyamızda yeni texnologiyaların, süni intellektin müxtəlif sahələrin inkişafına müsbət təsiri ilə yanaşı, həmin texnologiyalardan istifadə etməklə zərərli materialların hazırlana biləcəyi faktları da var. Bu, yeni innovasiya imkanlarının yaranması deməkdir. Bəzi hallarda ayrı-ayrı şəxslərin görüntüsü və səsindən istifadə etməklə real olmayan foto-videolar, audiomateriaIların hazırlanması və internet məkanlarında yayılması müşahidə olunur. Bu isə şəxsin toxunulmazlıq hüququnun pozulması və eyni zamanda, şərəf və ləyaqətinin müdafiəsi iə bağlı problemlər yaradır.

***Ləman TƏHMƏZ***
***XQ***



# Dünyamızı uşaqlarımız yaşadacaq

## Biz də onları qoruyaq, böyüdək, fəal həyata hazırlayaq

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə edilən son dəyişikliklər uşaqların fiziki və mənəvi toxunulmazlığının təmin edilməsi istiqamətində olduqca mühümdür. Bu hüquqi tənzimləmələr iki əsas istiqaməti əhatə edir. Qanunvericilik uşağa qarşı törədilən zorakılıq aktlarına qarşı səssiz qalma amilini inzibati xəta kimi təsnifləndirir, eləcə də istismara cəlb edilən uşaqların hüquqlarını bərpa etmək məqsədilə cəzaları sərtləşdirir. Bu dəyişikliklər uşaq hüquqlarının müdafiəsini fərdi məsuliyyət müstəvisindən çıxararaq kollektiv və hüquqi vəzifəyə çevirir.**

İnsanlığın ən böyük sınağı acı fəryadları ailə sirri pərdəsi altında gizlədərək laqeydliyə bəraət qazandırmaqdır. Biz illərdir "mənə toxunmayan ilan min yaşasın" deyib gözümüzün önündə solan körpələrin göz yaşlarına səssiz qalmışıq. Düşünməmişik ki, o ilanlar bir gün bütün cəmiyyəti zəhərləyə bilər. Bu qorxaq və bəsirətsiz yanaşma insanları bir-birinə yadlaşdırmış, bir-birinin ağrısına kar kəsilən ruhsuz kölgələrə çevirmişdi. Biz "şəxsi həyatın toxunulmazlığı" ilə "cinayətə göz yummaq" arasındakı o incə, lakin həyati sərhəddi itirmişdik.

Halbuki, susmaq heç vaxt bitərəf qalmaq deyil. Susmaq zülmə şərik olmaqdır. Cəmiyyət illərlə bu səssizliyin yükünü daşıdı. Zorakılığın izlərini gizlədən divarlar, qorxudan və utancdan danışa bilməyən uşaqlar, "qarışmayın" deyən böyüklər …Bütün bunlar birlikdə, sanki, amansız sistem qurmuşdu. Elə buna görə də qanunvericilikdə edilən son dəyişikliklər həm də hər bir vətəndaşın üzərinə haqsızlıq qarşısında səssiz qalmamaq üçün birbaşa hüquqi öhdəlik qoyur. Çünki bir uşağın həyatından, ləyaqətindən və təhlükəsizliyindən söhbət gedəndə cəmiyyətin susmaq haqqı yoxdur.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova bildirdi ki, valideyn tərbiyəsi ilə zorakılıq arasındakı hüquqi sərhəd yeni qanun layihəsində ayrıca təsbit edilir:**

– İlkin olaraq, qeyd etmək istəyirəm ki, son 5 ildə uşaq hüquqları sahəsində islahatların həyata keçirilməsində Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın böyük rolu olub. Bu il martın 3-də qəbul edilən yeni qanun layihəsi də uşaqlara dair dövlət strategiyasının müvafiq bəndlərinə əsasən Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hazırlanıb.



Qanunun əsas məqsədi uşaqların müdafiəsi mexanizmini daha da təkmilləşdirmək, bu sahədə yeni yanaşmalar müəyyən etmək, çətin həyat şəraitində yaşayan uşaqlarla bağlı yeni müdafiə mexanizmlərinin tətbiqidir.

Bu layihəyə bir neçə mühüm hüquqi yeniliklər əlavə edilib. Onlardan biri uşaq hüquqları ilə bağlı bir sıra yeni anlayışların dəqiq hüquqi tərifinin verilməsidir. Xüsusilə "uşağın üstün mənafeyi" anlayışı ilk dəfə ətraflı şəkildə izah edilir və qanunun digər fəsillərində də bu prinsipə istinad edilir. Digər tərəfdən, uşaqlara qarşı zorakılığın formaları da genişləndirilib. Fiziki, cinsi və psixoloji zorakılıqla yanaşı, uşaqlara qarşı etinasız rəftar, onları təhlükədə qoymaq, istismar etmək, davamlı təzyiq və aqressiv davranışa məruz qoymaq da zorakılığın formaları kimi müəyyən edilib.

Qeyd edək ki, uşaq hüquqları haqqında yeni qanun İnzibati Xətalar Məcəlləsinə uşaqların müdafiəsi ilə bağlı 4 yeni maddənin əlavə edilməsini nəzərdə tutur. Hazırda bu qanun layihəsi Milli Məclisdə komitə səviyyəsində müzakirə olunur.

İlk növbədə, zorakılığa məruz qalmış uşaqlar barədə məlumatı olduğu halda bunu aidiyyəti qurumlara bildirməyən şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi planlaşdırılır. Söhbət uşaqda zorakılıq əlamətlərinin aşkar edilməsi barədə məlumatın valideynlər, onları əvəz edən şəxslər, eləcə də uşaqlara nəzarət etmək vəzifəsi daşıyan təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət və penitensiar müəssisələrin əməkdaşları tərəfindən hüquq-mühafizə orqanlarına və ya uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyalara təqdim edilməməsindən gedir. Belə hallara görə həm fiziki, həm də vəzifəli şəxslər üçün cərimələr müəyyən edilib.

Digər mühüm məsələ isə uşaqlar arasında davamlı təzyiq və aqressiv davranışların qarşısının alınmaması ilə bağlıdır. Uşaqlar arasında davamlı təzyiq və aqressiv davranış – yəni tez-tez təhqir etmək, qorxutmaq, lağa qoymaq, kənarlaşdırmaq və ya fiziki zorakılıq göstərmək təkcə bir anlıq mübahisə deyil. Bu, uşağın psixoloji dünyasında uzun kölgə buraxan bir prosesdir. Bu cür davranışlar çox vaxt "zarafat", "uşaq davaları" kimi qiymətləndirilsə də, əslində onların təsiri daha dərin və uzunmüddətlidir. Üçüncü təklif uşaqlara qarşı cismani cəzanın tətbiqi ilə bağlıdır. Cismani cəza dedikdə uşağın tərbiyəsi və ya intizam tədbiri adı altında ona qarşı fiziki və ya psixoloji zorakılığın tətbiqi nəzərdə tutulur. Bu hallar həm ailədə, həm də uşaqlara xidmət göstərən müxtəlif müəssisələrdə baş verə bilər.

Cismani cəzanı digər zorakılıq formalarından fərqləndirən cəhət ondan ibarətdir ki, burada valideyn və ya tərbiyəçi çox vaxt bunu tərbiyə məqsədilə etdiyini düşünür. Lakin bu yanaşma yolverilməz hesab olunur və uşağa qarşı zorakılığın bir forması kimi qiymətləndirilir. Beynəlxalq təcrübədə də bu məsələyə ciddi yanaşılır. Hazırda dünyanın 70-ə yaxın ölkəsində uşaqlara qarşı cismani cəza qanunla qadağan edilib və uşaqların hüquqlarının qorunması istiqamətində mühüm addım kimi qiymətləndirilir.

Dördüncü təklif isə uşaqların dilənçiliyə cəlb edilməsi, eləcə də dilənçilik məqsədilə istifadə olunması ilə bağlıdır. Bu halda həm fiziki, həm də hüquqi şəxslər üçün inzibati cərimələr tətbiq olunacaq. Ümumiyyətlə, uşaqların dilənçiliyə cəlb edilməsi uşaq hüquqları ilə bağlı qanunvericilikdə qadağan edilsə də, bu sahədə inzibati məsuliyyətin ayrıca maddə ilə müəyyən edilməsi mühüm əhəmiyyət daşıyır. Qanun layihəsinə əsasən, uşağın dilənçiliyə cəlb edilməsi, eləcə də uşaqdan dilənçilik məqsədilə istifadə olunması halları aşkar edildikdə həmin şəxslər inzibati məsuliyyətə cəlb olunacaq və cərimə ediləcəklər.

Təcrübə göstərir ki, bu cür hallara tez-tez rast gəlinir. Bəzən uşaqların təkbaşına dilənçilik etməsi, bəzən isə valideynlərin uşaqları yanlarında dilənçilik etməsi halları müşahidə olunur. Bu isə uşaqların hüquqlarının kobud şəkildə pozulması deməkdir. Layihədə uşaqların psixoloji rifahına xüsusi önəm verilir. Uşaqlar barəsində mülki və cinayət işləri üzrə proseslərdə psixoloqun məcburi qaydada iştirakı tələb ediləcək. İcraatı aparan şəxslərin uşaqla iş üzrə bilik və bacarıqlara malik olması əsas tələblərdən biri kimi göstərilir.

Unutmayaq ki, qanunlar cəmiyyətin təhlükəsizliyi və xoşbəxtliyi üçün qalxandır. Hər birimiz bu qaydalara həssas yanaşaq ki, övladlarımız qorxu və travmalardan uzaq, sevgi dolu mühitdə yetişsinlər.

***Fidan ƏLİYEVA***
***XQ***

# Milli Xalça Muzeyində Nigar Əliyevanın sərgisi





**Martın 17-də Azərbaycan Milli Xalça Muzeyində rəssam Nigar Əliyevanın fərdi sərgisi açılıb. Açılışda Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, Alena Əliyeva, mədəniyyət nazirinin müavini Səadət Yusifova, mədəniyyət və incəsənət nümayəndələri iştirak ediblər.**



Tədbirdə Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova bildirib ki, muzey fəaliyyət göstərdiyi bütün dövr ərzində daim rəssamlara dəstək olmağa çalışıb. Direktor qeyd edib ki, sərginin müəllifi Nigar Əliyeva gənc olmasına baxmayaraq, artıq 10 ildən çoxdur sənət yolunda uğurla fəaliyyət göstərir. Bu gün o, təkcə ölkəmizdə deyil, Azərbaycanın hüdudlarından kənarda da tanınır. Əminə Məlikovanın sözlərinə görə, rəssam öz əsərlərində Azərbaycanın milli irsini, milli yaddaşını və mədəni dəyərlərini bədii şəkildə ifadə etməyi bacaran sənətkarlardandır.



Mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, rəssamın yaradıcılığında İrəvan üslubu özünəməxsus və uğurlu bədii yanaşma ilə təqdim olunur. Novruz bayramının önəminə toxunan nazir müavini deyib ki, bu, təkcə bayram deyil, eyni zamanda, keçmişlə gələcək arasında mənəvi körpü yaradan, insanlarda ümid və inam hissini gücləndirən müqəddəs dəyərdir.

Bu layihə üzərində iki il çalışdığını bildirən Nigar Əliyeva qeyd edib ki, bu müddət ərzində milli irsimizi yenidən araşdırmağa, xüsusilə gənc nəslə Azərbaycan irsini daha yaxından tanıtmağa səy göstərib. Rəssam sərginin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirərək vurğulayıb ki, ekspozisiyada müxtəlif muzeylərə aid eksponatlardan da istifadə olunub. Sərgidə təqdim olunan mövzular təsadüfi seçilməyib, onların hər biri xalqımızın tarixinə, milli yaddaşına və zəngin sənət irsinə söykənir.

Sərgidə müəllifin 2024–2026-cı illərdə kətan üzərində yağlı boya ilə yaratdığı əsərləri təqdim olunub. Rəssam apardığı araşdırmalar əsasında ərsəyə gətirdiyi əsərlərdə milli mətbəxə, xalq tətbiqi sənətinin zərgərlik, toxuculuq, tikmə, bədii metal, soyuq silah, geyim və digər nümunələrinə müraciət edib.

Sonda qonaqlar sərgi ilə tanış olublar.

Qeyd edək ki, Nigar Əliyeva yaradıcılığı ilə Azərbaycanı həm ölkə daxilində, həm də beynəlxalq məkanda uğurla təmsil edən rəssamlardandır. O, ABŞ, Pakistan və Gürcüstan da daxil olmaqla müxtəlif ölkələrdə keçirilən sərgilərdə iştirak edib. Azərbaycan Milli Xalça Muzeyi və "Arts Council Azerbaijan"ın birgə təşkil etdiyi sərgi martın 31-dək davam edəcək.

***Qabil ƏLİYEV***
***XQ***

# Ağdam şəhəri yenidən Novruz ənənəsinə qovuşdu



**Böyük Qayıdışın ünvanlarından olan Ağdam şəhərində 33 ildən sonra yenidən Novruz şənliyi keçirildi. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin təşkilatçılığı, Qarabağ Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə keçirilən konsertdə rayonun incəsənət ustalarının ifasında rəngarəng musiqi nömrələri təqdim edildi.**

Bayram təntənəsində "Qarabağ" kətəsi, şirniyyatlar, sakinlərin əl işləri təqdim edilib, iştirakçılar rəsm sərgisinə baxış keçiriblər. Konsert proqramı sakinlərə və qonaqlara yüksək bayram ovqatı bəxş edib, böyük məmnunluq və razılıqla qarşılanıb.

Ağdam şəhər sakini Qəndab Səmədova bayram təəssüratını belə ifadə etdi: "32 il yurdumuzdan kənarda yaşadıq. Bu gün Ağdamda evlə təmin olunmuşuq və Novruz bayramını böyük sevinclə qeyd edirik. Allah Prezidentimizi, qazilərimizi, ordumuzu qorusun".

Doğma yurdla uzun ayrılıqdan sonra Novruz bayramını Ağdamda qeyd etdiyini söyləyən digər sakin Namiq Məmmədov sevincinin həddi-hüdudu olmadığını söylədi: "Bu hissləri sözlə ifadə etmək çətindir. Arzularımız reallaşıb. Allah şəhidlərimizə rəhmət eləsin".

Sonda Novruz ənənələrinə uyğun olaraq bayram tonqalı alovlandırıldı. Novruza həsr olunmuş mahnılar səsləndirildi, tonqal ətrafında "Yallı" rəqsi oynanıldı.

***XQ***

# Özbəkistanda bayram şənliyi

**Azərbaycanın Özbəkistandakı səfirliyi nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi və Sırdərya vilayəti hakimiyyətinin birgə təşkilatçılığı ilə Gülüstan şəhərindəki Musiqili Dram Teatrında Novruz bayramına həsr olunmuş bayram konserti keçirilib.**

AMM-nin direktoru Akif Marifli Novruz bayramının Türk dünyasının ortaq mədəni irsi və mənəvi dəyəri olduğunu qeyd edərək bildirib ki, bu qədim bayram təkcə baharın gəlişini deyil, həm də birlik, həmrəylik və dostluq ideyalarını təcəssüm etdirir. Sırdərya vilayət hakiminin müavini Şoxrux İsakulov Novruz bayramının türk xalqlarının ortaq mənəvi dəyərlərini, qədim ənənələrini və birliyini əks etdirən mühüm bayramlardan biri olduğunu qeyd edib.



Konsert proqramında Azərbaycanın və Özbəkistanın Xalq artisti Gülyanaq Məmmədova, azərbaycanlı müğənni Fəxri Kazım-Nicat, eləcə də Özbəkistanın tanınmış ifaçıları və musiqi kollektivləri çıxış ediblər. Mədəniyyət Mərkəzinin "Xarı bülbül" teatr truppası, "Qarabağ Zəfəri" rəqs ansamblı tamaşalardan səhnələr, xoreoqrafik kompozisiyalar nümayiş etdirilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

***Gülüstan***

# Azadlıq: hüquqi imkan və siyasi məsuliyyət

**Azadlıq siyasi və hüquqi diskursda çox vaxt sadə və aydın görünən anlayış kimi təqdim olunur. "Azad olmaq" bəzən yalnız maneələrin aradan qalxması və ya istənilən davranış imkanının əldə edilməsi kimi başa düşülür. Lakin azadlıq bu qədər sadə anlayış deyil. Azadlığın yalnız elan edilməsi onun mövcudluğu demək deyil. Azadlıq hüquqi təminat, ictimai təhlükəsizlik, institusional sabitlik və real imkanlarla bağlı mürəkkəb normativ vəziyyətdir.**

Bu səbəbdən azadlıq yalnız "etmək" deyil, həm də "edə bilmək" deməkdir. Lakin "edə bilmək" də öz-özlüyündə yetərli deyil. Əgər azadlıq etmək və edə bilməkdirsə, deməli, onun həyata keçirilməsi müəyyən şərtlər tələb edir. Bu şərtlər hüquqi qaydalar, məsuliyyət və zəruri məhdudiyyətlərdir. Azadlıq yalnız başqalarının hüquqları ilə uzlaşan, ictimai nəticələri nəzərə alan və hüquqi qaydalar daxilində həyata keçirilən imkanlar məcmusudur. Bu elementlər olmadan azadlıq hüquqi anlayış kimi deyil, yalnız subyektiv iddia kimi mövcud olur.



Klassik fəlsəfi düşüncədə bu məsələ azadlığın mahiyyəti ilə bağlı daha dərindən izah olunmuşdur. İmmanuel Kant azadlığı insanın istədiyini etməsi kimi deyil, iradənin özünə qanun qoymaq qabiliyyəti kimi izah edirdi. Kant üçün azad insan təsadüfi istəklərin ardınca hərəkət edən deyil, hərəkətini ümumi qanun ola biləcək prinsiplərə əsasən müəyyən edən subyektdir. Bu mənada, azadlıq özbaşınalıq deyil, əksinə, iradənin özünə norma qoyması və həmin normaya uyğun hərəkət etməsidir. Beləliklə, azadlıq dərhal məsuliyyətlə əlaqələnir: insan yalnız istədiyi üçün deyil, hansı prinsipə əsasən istədiyinə görə də cavabdehdir.

Bu yanaşma azadlığın normativ mahiyyətini göstərir: insan azad olduğu üçün öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Lakin azadlıq yalnız etik prinsip kimi deyil, həm də reallığın şərtləri ilə bağlı anlayışdır. Klassik sosial fəlsəfədə bu fikir daha kəskin şəkildə ifadə olunmuşdur. Fridrix Engelsin məşhur ifadəsi ilə desək, "azadlıq dərk olunmuş zərurətdir." Bu fikir azadlığın məhdudiyyətlərin yoxluğu demək olmadığını göstərir. İnsan yalnız reallığın şərtlərini və onu müəyyən edən zərurətləri dərk etdikdə həqiqətən azad şəkildə hərəkət edə bilir. Bu mənada azadlıq təsadüfi seçim deyil; o, mövcud şərtləri anlayaraq məsuliyyətli qərar vermək bacarığıdır.

Lakin azadlığın yalnız etik prinsip kimi başa düşülməsi onun siyasi və ictimai ölçüsünü tam izah etmir. Azadlıq həm də real imkanlarla bağlıdır. XX əsrin siyasi düşüncəsində realist istiqamətin nümayəndələrindən olan Raymond Aron azadlığın 2 səviyyəsini ayırırdı: formal azadlıq və real (maddi) azadlıq.

Formal azadlıq hüquqların qanunda tanınması və ya konstitusion şəkildə elan olunması deməkdir. Lakin Aron göstərirdi ki, hüququn yalnız tanınması onun real həyata keçirilməsi demək deyil. İnsanların bu hüquqlardan istifadə edə bilməsi üçün sosial və institusional imkanların mövcud olması lazımdır. Azadlıq yalnız hüquqi bəyanat deyil; o, həm də təhlükəsizlik, institutlar və ictimai imkanlar sistemidir.

Bu fərq təsadüfi terminoloji fərqləndirmə deyil. Aron göstərirdi ki, azadlıq yalnız hüquqi elan səviyyəsində qaldıqda siyasi reallıqla toqquşur. Hüquqların formal tanınması insanlara hərəkət imkanı verə bilər, lakin bu imkanların həyata keçirilməsi üçün sosial, institusional və təhlükəsizlik şərtləri mövcud deyilsə, azadlıq yalnız kağız üzərində qalır. Bu səbəbdən azadlıq yalnız hüququn tanınması deyil; o, eyni zamanda bu hüququn real istifadə imkanlarını təmin edən ictimai və siyasi şəraitdir.

Bu məntiq azadlığın yalnız "icazə verilən davranış" deyil, imkanların strukturu olduğunu göstərir. İnsan yalnız ona mane olunmadığı üçün deyil, real olaraq hərəkət edə bildiyi üçün azad sayılır.

Azadlığın bu xarakteri hüquqi təcrübədə də aydın şəkildə göstərilmişdir. ABŞ Ali Məhkəməsinin hakimi Oliver Wendell Holmes Jr. məşhur qərarlarından birində qeyd edirdi ki, söz azadlığının ən geniş müdafiəsi belə insanın dolu kinoteatrda əsassız şəkildə "yanğın" qışqıraraq təşviş yaratmasına haqq qazandırmır. Bu misal azadlığın mühüm xüsusiyyətini göstərir: azadlıq yalnız fərdi ifadə imkanı deyil, eyni zamanda başqalarının təhlükəsizliyi və hüquqları ilə uzlaşdırılmalı olan məsuliyyətli davranış formasıdır.

Azadlıq ictimai nəticələr nəzərə alınmadan tətbiq olunduqda hüquqi anlayış olmaqdan çıxaraq təhlükəli iddiaya çevrilə bilər. Bu səbəbdən azadlıq yalnız hüquqi təminat deyil, eyni zamanda nəticələrə görə məsuliyyət daşıyan davranış formasıdır.

Tarixi təcrübə də göstərir ki, azadlıq yalnız siyasi şüar kimi təqdim edildikdə davamlı olmur. XX əsrin əvvəllərində Osmanlı imperiyasının süqutundan sonra Türkiyədə yaranmış siyasi şərait bunu açıq şəkildə göstərirdi. Dövlət institutlarının zəiflədiyi və siyasi hakimiyyət boşluğunun yarandığı şəraitdə azadlıq asanlıqla nizamsızlıqla qarışa bilərdi.

Bu yanaşmanın praktik ifadələrindən biri Mustafa Kamal Atatürkün dövlət quruculuğu siyasətində aydın görünür. 1925-ci ildə Şeyx Səid üsyanı yeni qurulan Türkiyə dövlətinin sabitliyi üçün ciddi təhlükə yaratdıqda, Atatürk və hökumət Takrir-i Sükun Qanununu qəbul edərək dövlətə fövqəladə səlahiyyətlər verdi. Bu qərar siyasi fəaliyyətə və mətbuata müəyyən məhdudiyyətlər gətirdi və ilk baxışdan azadlığın daralması kimi görünə bilərdi. Lakin Atatürkün yanaşmasında məsələ azadlığın abstrakt şəkildə elan edilməsi deyildi; əsas sual "azadlıq varmı?" yox, "azadlığı qoruyacaq dövlət varmı?" idi. Onun baxışına görə, dövlət institutları zəif olduqda və ictimai sabitlik pozulduqda azadlıq yalnız şüar səviyyəsində qalır və real məzmununu itirir. Buna görə də üsyan və sabitlik böhranı şəraitində qəbul edilən bu tədbirlər azadlığın inkarı kimi deyil, onun davamlı mövcudluğunu təmin edən siyasi məsuliyyət addımı kimi əsaslandırılırdı. Əhəmiyyətli məqam ondan ibarətdir ki, təhlükə aradan qalxdıqdan və dövlət sabitliyi bərpa olunduqdan sonra bu fövqəladə mexanizmlər ləğv edildi və siyasi həyat tədricən daha geniş hüquqi və demokratik çərçivələr daxilində inkişaf etməyə başladı. Bu təcrübə göstərir ki, Atatürk üçün azadlıq idarəolunmaz sərbəstlik deyil, dövlət institutlarının sabitliyi və ictimai nizam daxilində qorunan siyasi dəyər idi.

Bu təcrübə göstərir ki, azadlıq təkcə hüquqi bəyanat deyil. O, institutlar, siyasi təşkilatlanma və məsuliyyət tələb edən ictimai vəziyyətdir. Dövlət qoruyucu və təşkilatlandırıcı funksiyasını yerinə yetirmədikdə isə azadlıq asanlıqla qeyri-sabitliyə və idarəetmə boşluğuna çevrilə bilir.

Bu məntiq XX əsrin sonunda postsovet məkanında baş verən proseslərdə də aydın şəkildə müşahidə olundu. Sovet sisteminin dağılmasından sonra bir çox ölkələrdə siyasi azadlıq şüarları sürətlə genişlənsə də, eyni vaxtda institutların zəifliyi və idarəetmə boşluğu ciddi qeyri-sabitlik riskləri yaratdı. Azərbaycanın müstəqilliyinin ilk illərində yaşanan proseslər bu dilemmanın xüsusilə kəskin formasını göstərdi.

Bu şəraitdə ümummilli lider Heydər Əliyevin siyasi kursu azadlıq anlayışına köklü şəkildə fərqli yanaşma formalaşdırdı. Azadlıq anlayışı emosional siyasi şüar kimi deyil, hüquqi dövlət quruculuğu və institusional sabitlik çərçivəsində reallaşdırılmalı siyasi dəyər kimi təqdim olundu. Dövlət institutlarının möhkəmləndirilməsi, hüquqi sistemin bərpası və təhlükəsizlik mühitinin təmin olunması azadlığın real məzmun qazanmasının əsas şərti kimi dəyərləndirildi. Bu dövlətçilik yanaşması Prezident İlham Əliyev tərəfindən yeni mərhələdə davam etdirildi. Azadlıq artıq yalnız hüquqi bəyanat kimi deyil, güclü institutlar, iqtisadi inkişaf və dövlət suverenliyinin möhkəmləndirilməsi ilə təmin olunan real siyasi imkan kimi formalaşdı. Dövlətin institusional gücü və milli suverenliyin bərpası azadlığın abstrakt şüar deyil, davamlı inkişaf və ictimai sabitliklə bağlı praktik dəyər olduğunu göstərdi.

Beləliklə, azadlıq dövlət daxilində reallaşan siyasi dəyər kimi formalaşdı. Göründüyü kimi, azadlıq yalnız hüquqi bəyanat olmaqla kifayətlənməyək, institutlar və məsuliyyətlə təmin olunan ictimai münasibət formasıdır.

Nəticə etibarilə azadlıq yalnız imkan deyil, məsuliyyət doğuran normativ vəziyyətdir. Azadlığın real məzmunu hüquqi qaydalar, institusional sabitlik və siyasi məsuliyyət daxilində formalaşır. Bu şərtlər olmadan azadlıq ya abstrakt şüara, ya da idarəolunmaz sərbəstliyə çevrilə bilər. Davamlı və işlək azadlıq isə yalnız məsuliyyətlə uzlaşdırılmış azadlıqdır.

***Mehdi ABDULLAYEV,***
***hüquq elmləri doktoru,***
***Dövlət İdarəçilik Akademiyasının***
***dövlət idarəçiliyinin hüquqi təminatı***
***kafedrasının müdiri***

# Proloqdan epiloqadək düşmənçilik, kin və nifrət

## *Ermənilərin bir çox filmi mənəvi zəhər saçır və nəticədə, bumeranqa çevrilir*

**Azərbaycan və Türkiyə ilə sülhün yaşandığı indiki Ermənistanda yenə ideoloji olaraq türk düşmənçiliyi dövlət siyasətidir. Həm daxildə, həm də xaricdə xalqımıza qarşı kin və nifrət toxumu səpən milliyyətçi ünsürlər dinc durmur, bütün dünyada qarayaxma kampaniyası yürüdürlər. Yəni, bu dövlətin siyasəti dəyişməyib, açıq və gizli şəkildə davam etdirilir. İkinci Qarabağ müharibəsindən sonra hayların “film yaradıcılığı” yeni vüsət alıb.**



Ermənilər təbliğat işində kinoya, vizual mediaya üstünlük verirlər. 2024-cü ildən etibarən nümayiş etdirilən “Qütb günəşi” filmi erməni ideologiyasının dəyişmədiyinə işarədir. Filmin rejissoru İnna Saakyan, ssenaristləri Peter Lyaxov, Kerstin Meyer-Beetz və İnna Saakyandır. Əsərin qəhrəmanı Mardiganyan 1901-ci ildə Osmanlı imperiyasının bir kəndində anadan olub. O, Oslodan Nyu-Yorka səyahət edib. Amerikada "Ruhların hərracı" filminin eskizini yaratmaq üçün istifadə ediləcək “Ravished Armenia” adlı kitab yazıb. Kitabı filmə çevirmək üçün erməni diasporu və hay ideoloqları dövrəyə girib. Amma iddia edildiyi kimi, köhnə film "nədənsə" yoxa çıxır. Bəlkə də ermənilər yeni filmi montaj etmək, türklərə qarşı daha ciddi ittihamlar irəli sürmək üçün bu yalanı uydurublar.

Tarix və beynəlxalq hüquq Türkiyənin tərəfində olsa da, onlar Qərbdə soyqırımı törədənlər kimi göstərilir. “Qütb günəşi” filmi barədə xəbərlər ABŞ-ın “The New York Times” və “Los Angeles Times” kimi çoxtirajlı media orqanlarında yayımlanıb, eləcə də “Vikipediya”da yerləşdirilib. Həmçinin film 2023-cü ildə “Oskar” mükafatına namizəd olaraq göstərilib.

"Ruhların hərracı"ndan "Qütb günəşi"nə çevrilən filmdə, guya, köhnə xatirələr canlandırılır. Türkiyəyə və türklərə qarşı nifrət və düşmənçilik hissləri oyadan yeni film köhnəsindən daha alçaldıcı və nifrətlə doludur. Əsərin motivini təşkil edən “Zülmkar erməni” kitabına vərəqlədim; türklərə qarşı iddialar nisbətən “ölçülüdür”. Kitabda çarmıxa çəkilmiş qızlardan bəhs olunur, amma nə Atatürkün adı çəkilir, nə də təcavüzdən bəhs edilir. Təcavüz ittihamı ilk dəfə 1997-ci ildə nəşr olunmuş və Mardiganyanın ölümündən əvvəl verdiyi müsahibəyə əsaslanan “Zülmkar erməni”nin yeni nəşrində ortaya çıxır. Daha sonra filmə daxil edilib. Yeni filmdə xristian erməni qızlarının başına gələnlərin, təcavüz də daxil olmaqla, çarmıxa çəkilməkdən daha dəhşətli olduğu iddia edilir və Atatürkə qarşı açıq şəkildə böhtanlar atılır.

İnna Saakyanın sənədli-animasiya filmi 2023-cü ildə Cenevrə Beynəlxalq Film Festivalında və İnsan Hüquqları Forumunda (FIFDH) baş mükafat alıb. Rejissor deyib ki, “Qütb günəşi” ekranda ağrısını yüngülləşdirməklə insanlığını qorumaq üçün mübarizə aparıb və bu, onun missiyasının davam etməsi və heç vaxt unudulmayacağı deməkdir”. Hollivud səssiz filmində özünü canlandıran gənc qız dünyaya erməni deportasiyaları haqqında məlumat vermək məqsədilə soyqırımının dəhşətlərini göstərməyə çalışıb. Yarısənədli film Zoryan İnstitutunun elmi dəstəyinə və “erməni soyqırımı ilə bağlı şifahi tarix arxivinə əsaslanaraq çəkilib. Film Ermənistan–Almaniya–Litvanın birgə layihəsidir.

***

“Erməni soyqırımı”nın dünyanın diqqətinə çatdırılmasının ən yaxşı yolu film yaradıcılığıdır”. Bu fikri Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan söyləmişdi. Onun dönəmində “erməni davası” üçün uğurlu sayılan bir hadisə baş vermişdi. Türk əsilli alman rejissoru Fatih Akın "erməni soyqırımı"ndan bəhs edən “Kəsik” ("The Cut") filmini çəkərək “erməni dəyirmanına su tökmüşdü”.

Ermənilər artıq 20 ildən çoxdur ki, bədii və sənədli filmlərlə Türkiyəyə təzyiq edirlər. Onların bu mövzudakı “ən uğurlu” layihələrindən biri 2002-ci ildə çəkilən "Ararat" bədii filmi sayılır. Rejissoru Atom Yeqoyan Kanadada doğulmuş ermənidir. O, milli mənsubiyyətini təsdiqləyərək, erməniliyə yaxşı xidmət edən "Ararat" filmini çəkdi. Erməni diasporu bu filmin Oskar alması üçün çox çalışdı. Filmin bütün festivalları gəzdirərək çoxlu mükafatlar almasını təmin etdilər. Film hələ çəkilməmiş Fransa, Böyük Britaniya, Almaniya və İspaniya tərəfindən onu satın almışdılar. Maraqlıdır, bu ölkələrdə hardan bilirdilər ki, bu filmin içində nə olacaq? Tək bildikləri o idi ki, filmdə hədəf Türkiyədir. Və sonra bu ölkələrin diplomatik qurumları filmin həm də Türkiyədə göstərilməsinə var gücləri ilə çalışdılar. Nədən filmə belə önəm verilirdi? Axı bu mövzuda ortaya qoyulan ilk "əsər" deyildi. Buna qədər də erməni ideoloqlarının bir çox əsərləri və kitabları ortaya qoyulsa da, bu filmin xüsusiyyəti, Qərbin erməniləri məqsədlərinə çatmaq üçün açıq şəkildə dəstəkləməsi idi. Məmur rolunda olan avropalı da, 1915-ci ildə Şərqi Anadoluda həkim işləyən amerikalı da erməni ideoloji maşınının təkərcikləri idilər, ən azından, onların obrazında idilər.

Haylar filmlərə ağlasığmaz pullar xərcləyirlər. Erməni mənşəli italyan yazar Antonio Arslanın “Tarlaquşu yuvası” adlı kitabının ekranlaşdırılmasını erməni mediası uğurlu nümunələrdən biri kimi xarakterizə edir. Bu filmlərdə həyasızcasına bir “erməni soyqırımı” təbliğatı var. Mətbuat “Musa dağında qırx gün” kitabının filmə çevrilməsindən də bəhs edir.

Avstriya yəhudisi Frans Verfelin “Musa dağında qırx gün” romanı 1915-ci il deportasiyasından əvvəl Hataydakı Musa dağının ətəyində bir erməni kəndində baş verən hadisələrdir. Sadəcə, deportasiya üçün gəlmiş jandarmlara ermənilərin müqavimətindən bəhs edir, vəssalam. Bu əsəri oxuyan adamda burada elə bir ciddi insan faciəsinin, daha doğrusu, "soyqırımı"nın olması qənaəti yaranmır. Amma mətbuatda bu hadisə erməni qəhrəmanlığı olaraq təqdim edilirdi.

Vaxtilə Yeqoyanın filminin dünyanın bir çox ölkələrində nümayişinə ona görə yaşıl işıq yandırılmışdı ki, həmin filmdə ermənilərin əsas məqsədilə onların yürütdükləri antitürk siyasət üst-üstə düşəcək, ikisi bir-birini tamamlayacaqdı. Odur ki, ideya müəllifinin yalnız erməni diasporu olduğunu düşünmək doğru olmazdı.

Bəs, əsas "rollarda" kimlər çəkilib? Atom Yeqoyan Kanada ermənisidir. Baş rol oyunçusu isə məşhur şanson Şarl Aznavurdur. Digər oyunçular isə Ermənistandan olanlardır. Hadisələr Vanda, Ağrı dağının ətəklərində baş verir. Baş "qəhrəman" isə




Qərbdir. Türkiyəni olmayan bir "cinayətə" məhkum etmək istəyən Qərb. Bu filmdə ermənilərin terroruna bəraət verilir, çünki onlar türk düşmənidirlər. Türkiyənin şərqində olan və ermənilər tərəfindən "Qərbi Ermənistan torpaqları" adlandırılan Ağrı dağı bölgəsinin geri alınmasını yeni nəsillərə bir vəzifə olaraq göstərməsi üçün Atom Yeqoyanın "Ararat" filmi lazım idi. Bəli, o təsadüfən çəkilməmişdi.

Baxın, bu filmin rolu nə oldu: 2002-ci ildən sonra Avropa ölkələrində "erməni soyqırımı"nı əməlli-başlı dövlət siyasətinin tərkib hissəsinə çevirdilər. Belə ölkələrdən olan Fransa gələcəkdə "erməni soyqırımı" olmayıb deyənləri cəzaya məhkum etmək kimi insan haqlarını pozan bir qanuna start verəcəkdi, İsveçrə isə bunu həyata keçirəcəkdi və bir konfransda "erməni soyqırımı" yalanlar üzərində qurulub", - deyən Vətən partiyasının lideri Doğu Perincək 90 gün həbsə məhkum olunacaqdı, sonra haqq yerini alacaqdı və Avropa Məhkəməsi bu qərarı ləğv edəcəkdi.

Özünün türk mənşəyinə baxmayaraq, o, nəinki Yeqoyanın filmini kölgədə qoyan, hətta əvvəllər bu mövzuda çəkilmiş bütün filmləri geridə buraxan "Kəsik" filminin effektinin səbəbinin fərqinə varmadı. Əsas müəllifin adıdır – türk Fatih Akın. O, ermənilərin məqsədini reallaşdırmağa yardım etdiyinin də fərqindədir. Bilir ki, Ermənistan dövləti buna həvəslə pul ayırır. Dövlət səviyyəsində qarşıya daha bir neçə "soyqırımı" filminin çəkilməsi məqsədi qoyulub. Bunlardan biri, çox güman ki, Akının filmi olacaq. Qondarma "erməni soyqırımı"nın 100-cü ilində, yəni 2015-ci ildə yeni bir filmlə dünyaya "səs salmaq" planlaşdırıldı. Bu məqsədlə "Oskar" mükafatını almış məşhur rejissor Stiven Spielberqə müraciət olundu.

***

Diaspor və Ermənistan dövlətinin vizuallıq sahəsində etdikləri layihələr kinofilmlərlə məhdudlaşmır. Bir başqa əhəmiyyətli layihə də "Bir daha, əsla!" adı altında təşkil edilmiş konsert seriallarıdır. Tanınmış musiqiçi Stiv Vanderlə birlikdə bir çox məşhur musiqiçinin də qatıldığı layihə ilə "soyqırımı"nın təbliği işini daha da irəli aparmaq nəzərdə tutulub.

Atom Yeqoyanla Fatih Akını bir-birinə bağlayan tellərin nələr olduğunu aydınlaşdırmağa çalışsaq, qəribə paralelliklə üzləşə bilərik. Biri erməni, digəri türk olan bu iki rejissor, təbii ki, pula işləyirlər. Film çəkilişinə isə çox pul lazımdır. "Ararat" filminə 15 milyon pul xərclənib, Fatihin filminə isə bundan daha çox pul ayrılıb. Təbii ki, bu pulu Ermənistan ayırmışdı..

Ancaq bir türk tərəfindən çəkilmiş "erməni soyqırımı"ndan bəhs edən "Kəsik" adlı əsərin verəcəyi effektlə "Ararat"ın effekti eyni olmayacaqdı. Çünki bu filmi bir türkə çəkdirmişdilər. Bundan əvvəl də ermənilər türkə nifrəti ifadə edən bir çox filmlər çəkmişdilər. Hələ SSRİ vaxtı başlayaraq antitürk siyasətini özünün əsas ideoloji silahına çevirmiş və xalqımıza qarşı nifrəti sənədli və bədii lentlərə köçürmüşlər. Türkiyə və Azərbaycan əleyhinə ermənilərin çəkdikləri və çəkdirdikləri filmlərdə irqçi yanaşma, millətimizi aşağılama, onu qəddar, zalım, vəhşi, barbar göstərməkdədir. Dediyimiz irqçi yanaşma aşağıda bəhs edəcəyimiz filmlərdə özünü açıq göstərməkdədir.

“Göldən gələn səslər” qondarma “erməni qoyqırımı” haqqında "gizli" adlandırılan sənədli filmdir. 2000-ci ildə tamamlanan film son dövrlərin ən populyar erməni filmlərindən biri olaraq göstərilməkdədir. Bunun "gizli" olduğu iddia edilir. Tanıtımda istifadə edilən başqa bir diqqətəlayiq iddia filmdə gizli qalan bir çox sənəd və hesabatın film sayəsində üzə çıxmasıdır. Əslində, burada gizli heç nə yoxdur. Ermənilərin hazırladığı bir çox saxta sənədlər irəli sürülərək türklərin vəhşi və qaniçən obrazının canlandırılmasından başqa bir şey yoxdur. Ortada "gizli" bir şey yoxdur. Gizli olan ermənilərin millətimizə olan nifrətidir və onu bədii formada tamaşaçının önünə sürmüşlər.

“Görəv Berlin” (Assignment Berlin): Prodüser və rejissor Detroyt (ABŞ) əsilli erməni Hrayr (Peter) Touxanyandır. Film Tələt Paşanın Berlindəki qətlini tamamilə erməni nöqteyi-nəzərindən göstərir. Filmdə Tələt Paşanın öldürülməsinə və bu hadisənin əsrin ilk terror hadisələrindən biri olmasına baxmayaraq, rejissor Tələt Paşanı və dostlarını Berlində əsas terrorçular kimi təqdim edir, paşanı qətlə yetirən qatili – Soğomun Teyliryanı erməni millətinin qəhrəmanı kimi tərifləyir. Film boyu Tələt Paşa “erməni soyqırımının memarı” kimi xatırlanır. Tanıtımlarda ən çox istifadə edilən ifadələrdən biri də "əsl tarixi hadisə" ifadəsidir. Hansı tarixi hadisə baş vermişdir? Bir erməni terrorçu türk olduğu üçün dəyərli bir dövlət adamını öldürüb. Bundan başqa, filmdə 1,5 milyon erməninin “vəhşicəsinə öldürüldüyü” ilə bağlı iddialar təzələnir…

“Mayrig” (Ana). 1991-ci ildə lentə alınan film "erməni soyqırımı" iddialarının ekranda əks olunduğu “vacib filmlərdən biri” olaraq görülür. Film 1921-ci ildə Fransaya mühacirət edən bir ailənin çətinliklərindən bəhs edir. Türklər filmdə "vəhşi adam" rolunu oynayırlar. “Mayrig” Türkiyə əleyhdarı hay fəaliyyətinin kinodakı “əhəmiyyətli” əsərlərdən biri sayılır .

“Həsrət” (The Yearning, Karot). 1990-cı ildə çəkilən 137 dəqiqəlik filmdir. "Türk vəhşiliyi" xüsusilə filmin ilk hissələrində “hərtərəfli” işlənib. Buna əlavə olaraq filmin təqdimatlarında "Qərb və Şərq olaraq ikiyə ayrılmış bir millətin faciəsi" ifadələrindən tez-tez istifadə edilir, Türkiyə torpaqlarının "Qərbi Ermənistan" olduğu israrla vurğulanır.

***

“Erməni soyqırımı, Osmanlı imperiyasında erməni əhalinin məhv edilməsi -1915-1923” (The Armenian Genocide, Annihilation of the Armenian Population of the Ottoman Empire 1915-1923). 1991-ci ildəı çəkilən 25 dəqiqəlik sənədli filmdir. Əsas ideya məktəb yaşlı uşaqların məlumatlandırılmasıdır. Film müəllimlər üçün “bələdçi”dir, erməni təbliğatının uşaqlar arasında da işini görməsi üçün seçilmiş üsuldur. Uşaqlar görüntülərə baxmağı daha üstün tuturlar. Ermənilər, xüsusilə ABŞ-dakı soyqırımı tarixi ilə bağlı məktəblərə köməkçi material kimi bu filmi tövsiyə edirlər.

“Musa dağında qırx gün”. Bu 120 dəqiqəlik ekran əsəri erməni iddialarını dilə gətirən “əhəmiyyətli” filmlərdən biri sayılır. Film avstriyalı yazıçı Franz Verfelin eyniadlı romanı əsasında çəkilib. 1015-ci ildə Musa dağında yaşanan olaylar təsvir edilir, türklərin “vəhşiliyi, böyük “faciələr” törətdikləri göstərilir

“Bir erməni yolçuluğu” (An Armenian Journey). Bu filmdə də Theodor Pogosyan adlı erməni qondarma "soyqırımı" şahidlərindən biri ilə Türkiyəyə "qırğın"ın edildiyi yerləri gəzməkdə, türklərə nifrət aşılamaqdadır.

“Erməni davası” (The Armenian Case). Bu film sənədlidir və 1975-ci ildə çəkilib. Sənədli filmdə 1915-ci il hadisələrindən sağ çıxdığı iddia edilən insanların dili ilə hadisələr tamamilə ermənilərin irəli sürdükləri saxta və haqsız iddialar əsasında çatdırılır. Birinci Dünya müharibəsi ilə başlayan "hekayədə" bol "barbar türk" obrazı var. Bundan başqa, hadisələrdən sonra ermənilərin bütün dünyaya necə yayıldığı və diasporda yeni bir həyat başladığı izah edilir. Hər addımda türklər suçlanır…

“Bir səssizlik divarı, ermənilərin danışılmayan taleyi” (A Wall of Silence, The Unspoken Fate of the Armenians). 1997-ci il istehsalı, rejissoru Dorothee Formadır. Sənədli film əsasən Taner Akçam və Vahakn Dadryan adlı iki insanın həyat hekayələri üzərində qurulub. Türk düşməni olan Taner Akçamın iftiraları bu filmdə də yer almaqdadır.

“Unudulmuş soyqırımı” (The Forgotten Genocide). Bu film də məlum erməni “bayatı”sıdır, “soyqırımına” məruz qalmış insanların vəhşi türklərə nifrətini ifadə etməkdədir. 28 dəqiqəlik sənədli filmdir, lakin populyarlığı bir çox bədii filmlərdən daha yüksək olmuşdur. Filmdə şahidlərin və arxiv sənədlərinin erməni iddialarına uyğunluğu təbliğ edilir.

“Bitlisdən Fresnoya: Fresnolu Karabyanlar, Kaliforniyada bir erməni ailənin 100 ili” (From Bitlis to Fresno: 100 Years of an Armenian Family in California, the Karabians of Fresno). 56 dəqiqəlik sənədli film. Məramı Anadolunun erməni vətəni olması iddiasını dəstəkləmək, eyni zamanda, ermənilərin amerikalı olduğunu sübut etməkdir.

“Hər kəs burada deyil: erməni soyqırımı” (Everyone’s Not Here: Families of the Armenian Genocide). Amerika Erməni Assambleyası (The Armenian Assembly of America) tərəfindən hazırlanan bu sənədli film daha çox təhsil müəssisələrində yayılır.

“Klikiya ...yenidən doğuş” (Cilicia… Rebirth). Sənədli filmdə göstərilir ki, indi türklərin erməniləri öldürüb onların əlindən aldığı torpaqlar Kilikiya Krallığına aiddir. Film ermənilərin Anadolunun cənub-şərqində və bugünkü Suriyanın bir hissəsində böyük mədəniyyət yaratdıqlarını iddia edir. Sənədli filmə görə, Birinci Dünya müharibəsində qətlə yetirilən ermənilərin sağ qalanları SuriyanınHələb şəhərində yaşamaqdadırlar.

“Tarixi Ermənistan” (Historical Armenia). 53 dəqiqəlik sənədli filmdir. Filmdə ermənilərin "vətəninə" səyahət edildiyi iddia edilsə də, göstərilən şəhərlərin İstanbul, Ankara, Adana, Qaziantep, Van, Bitlis kimi şəhərlər olması diqqət çəkir. Filmin təqdimatında film qrupunun 1919-ci ildə Türkiyəyə (şirkət "Türkiyə və Ermənistana" deyir) göndərilən amerikan missiyasının marşrutu izlədiyi bildirilir. Nabələd adam elə düşünər ki, bütün Türkiyənin və Azərbaycanın torpaqları ermənilərə aiddir və amerikan missiyası da bunu isbatlamaq və onu alıb ermənilərə vermək üçün gəlibmiş. Halbuki həmin missiya ermənilərin bu torpaqlarda necə böyük vəhşiliklər törətdiyi qənaətinə gəlmişdi. Hayların belə bir film çəkməsi, əslində, onların bu missiyanın əsil məqsədinin nə olduğunu gizlətmək və bizləri qabaqlamaq məqsədi güdüb.

“Komitas”. Qərbi Almaniyada istehsal olunan 96 dəqiqəlik filmdir. Komitas rolu ilə ermənilər türklərin milyonlarla erməninі öldürdüyü iddiasını ortaya atmaqdadır. Bütün bunları sübut etmək üçün isə fərziyyələrə əsaslanırlar. Filmin qəhrəmanı erməni bəstəkar Komitas Kütahyada anadan olmuş musiqiçi və erməni rahibidir. 1915-ci ildə türklərin etdikləri qırğınları görəndə, guya, ağlını itirir. Əslində, Komitas 1915-ci ildə deyil, daha sonrakı illərdə dəli olub. 1915-ci ildən sonra çoxlu əsərlər yazıb. Sadəcə olaraq Komitasın dəli olmasını 1915-ci il olaylarına bağlamaq elə erməni “dəliliyidir”

“Avetik”. Filmdə alman irqçiliyindən 1989-cu il erməni zəlzələsinə və 1915-ci il hadisələrinə qədər bir çox hadisələrə istinadlar var. 1915-ci il hadisələri, nasist əsgərləri və Qarabağ münaqişəsinin təqdimatında Hitler faşizmi ilə “Türk barbarlığı” arasında paralellər aparılır. Əlbəttə ki, bu, absurddur. Ermənilər özləri faşistlərlə əlaqə quran millətdir. Nasistlərin “yeni nizam anlayışı” ilə ermənilərin Tseğakronizmi arasında bənzərlik var. Bu film də əməllərinin ortaya çıxmasından qorxan ermənilərin qabaqlayıcı tədbirləridir. Əslində, film haqqında rəylərdə “türklər tərəfindən soyqırımı”nın qeyd olunması bu səbəbə işarə edir. Filmdə təlqin edilən fikirlərlə bağlı “The Japan Times”da dərc olunan məqalə dürüst və yaxşı nümunə kimi ermənilərin film yaradıcılığının məqsədli olduğunu ortaya qoyur: “… Bunlara Avetikin mühacirətdəki həyatındakı düşüncələri daxildir; Alman irqçiliyi, ermənilərin 1915-ci ildə türklər tərəfindən “soyqırımı” (Holokost ölçüsündə dəhşətli bir hadisəmi?), 1989-cu ildə böyük dağıntılara səbəb olmuş zəlzələ” qətiyyən bir-birilə müqayisə ediləcək məsələlər deyil”.

“Dağlıq Qarabağ: Erməni tarixinin üçüncü və dördüncü cildi” (Nagorny Karabakh: The Third and Fourth Volume of the Armenian History). 1988-ci ilin istehsalı olan sənədli filmdə Azərbaycan dövləti tamaşaçıya hayların nöqteyi-nəzərindən çatdırılır və dövlətimizin erməni torpaqlarında qurulduğu iddia edilir. Dağlıq Qarabağla bağlı gedən proseslər təhrif olunur, erməni torpağı, Azərbaycan qanunsuz dövlət kimi təsvir olunur. İddialara görə, rejissor Askaryan 1988-ci ildə Qarabağda bunları gizli şəkildə lentə alıb və bəzi görüntüləri oğurlayıb. Sənədli filmdəki mitinq epizodlarının mövzuya heç bir aidiyyəti yoxdur. Azərbaycan türklərinə qarşı ittihamlar səslənir, Azərbaycanın xeyli hissəsini işğal etmiş ermənilər “qurban” kimi göstərilir. Filmdə təcavüz, işgəncə və qətl görüntüləri də var ki, bunların, guya, azərbaycanlılar tərəfindən törədildiyi bildirilir.

“Köhnə Roma yolunda” (On the Old Roman Road) filmi Askaryanın son layihələrindən biridir. Filmdə Rotterdamda (Niderland) yaşayan bir erməni yazıçısı Levonun yaşantıları anladılır. Yəni Levonun keçmişi ilə indiki həyatı arasındakı yola nəzər salınır. Onun keçmişində bir-birinə zidd o qədər fərqli şeylər xatırlanır ki… Bir Türk polisi, qırmızı saçlı bir qız, onun türklərin cəsədlərini soyan qohumu, təzyiq, göz yaşı, dəvə, it və s. Burada günahkar yenə Türkiyə və Azərbaycandır.

***

Erməni filmləri əsasən diaspor təşkilatlarının məhsulu olduğundan baxış da orada illərcə formalaşan düşmənçilik hisslərinin ifadəsidir. “Vətənimiz Ermənistan” filmində olduğu kimi. Filmlərin əksəriyyəti erməni dilində çəkilir, amma başqa dillərə tərcümə edilərkən (ingilis, rus, alman və ya fransız dillərinə) subtitrlərlə təqdim olunur. Ortada fərq də hiss olunur. Ermənicə versiyada daha çox nifrət aşılanır. “Əfsanə” (Legacy) 23 dəqiqəlik sənədli filmində türklərin ünvanına nə qədər kobud ifadə varsa, tapmaq mümkündür. Son zamanlar, xüsusən 2020-ci il müharibəsindən və Azərbaycanın öz ərazi bütövlüyünü təmin edəndən sonra ermənilərin kino taktikası da dəyişib. Buna qədər daha çox 1915-ci il olayları əsas mövzu idisə, indi İkinci Qarabağ savaşı və “əzabkeş” erməni obrazıdı. Ermənistanda və xaricdə belə filmlər hər il çəkilir. Bu da onu göstərir ki, ermənilərin xalqımıza qarşı kin və nifrət aşılama ideologiyası dəyişməz olaraq qalır.

***Qfi a ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Yaxın Şərqdə savaş qlobal təhlükəsizliyi təhdid edir

## *Böyük güclər arasında siyasi balansı qorumaq çətinləşir*

**Yaxın Şərqdə vəziyyət getdikcə daha gərgin mərhələyə keçir. Hərbi əməliyyatlarla paralel şəkildə diplomatik təmasların da davam etməsi göstərir ki, qarşıdurma artıq regional çərçivəni aşaraq qlobal təhlükəsizlik, enerji marşrutları və böyük güclər arasında münasibətlərə təsir edəcək böhrana çevrilib. Beləliklə, martın 17-də ABŞ/İsrail–İran hərbi münaqişəsində baş verən hadisələri oxucularımıza təqdim edirik.**



**"Axios":** İranın xarici işlər naziri Abbas Əraqçi və ABŞ Prezidentinin xüsusi elçisi Stiven Uitkoff birbaşa əlaqələri bərpa ediblər. Nəşrin məlumatına görə, İran və ABŞ rəsmiləri arasında mübadilə edilən məlumatların nə dərəcədə əsaslı olduğu hələ məlum deyil. İddia edilir ki, Əraqçi Uitkoffa müharibəyə son qoyulmasının vacibliyini vurğulayan mesajlar göndərib. Məlumata görə, Vaşinqton İranın qlobal birliyə inteqrasiyasına və neft ixracından gəlir əldə etməsinə imkan verəcək saziş bağlamaq ehtimalına açıqdır.

**"Reuters":** ABŞ Prezidenti Donald Tramp İranın Vaşinqtonla razılığa gəlməyə çalışdığını bildirib. Lakin o, Tehranın bu istəyinə əmin olmadığını qeyd edib. Trampın sözlərinə görə, ABŞ-də İran tərəfində danışıqları kimin aparacağı barədə tam aydınlıq yoxdur: "Biz onların liderinin kim olduğunu bilmirik. Danışıqlar aparmaq istəyən insanlar var. Onların kim olduqları barədə heç bir məlumatımız yoxdur".

**"BBC":** Prezident Donald Tramp ABŞ və İsrailin İrana qarşı əməliyyatlarının bu həftə yox, amma tezliklə başa çatacağını bildirib. O, bu açıqlamanı Ağ Evdə jurnalistlərin suallarını cavablandırarkən verib.

**"Ash-Sharq":** İran hakimiyyəti hərbi əməliyyatları lazım olduğu qədər davam etdirməyə hazırdır və hazırda münaqişənin diplomatik həllini tapmağa çalışmır. Bunu İranın Xarici İşlər Nazirliyinin yüksək vəzifəli rəsmisi bildirib. Onun sözlərinə görə, Tehran hazırda regiondakı münaqişənin diplomatik həllinə diqqət yetirmir.

**"UKMTO":** Oman körfəzində, Birləşmiş Ərəb Əmirliyinin Füceyrə limanından 40 kilometr məsafədə tanker naməlum mərmi ilə vurulub. Bu barədə Böyük Britaniyanın Dəniz Ticarət Əməliyyatları Agentliyinin (UKMTO) məlumatında bildirilir. Tankerin korpusunda cüzi zədələrin olduğu bildirilir. Ekipaj üzvləri xəsarət almayıb.

**"Financial Times":** Beynəlxalq Dəniz Təşkilatının (IMO) rəhbəri Arsenio Dominqes bildirib ki, Hörmüz boğazında hərbi müşayiət bu regiondan keçən gəmilərin təhlükəsizliyinə tam zəmanət vermir: "Gəmiçilik əsl səbəblərinin bizim sahə ilə heç bir əlaqəsinin olmadığı münaqişənin (İran ətrafındakı - red.) təsadüfi qurbanına çevrilib". O, həmçinin Fars körfəzində qida və ilkin zərurət malları tükənməkdə olan gəmi heyətlərinin taleyi ilə bağlı dərin narahatlığını bildirib.

**"Times of Israel":** İsrail Müdafiə Ordusu Tehranda hava zərbəsi nəticəsində "Bəsic" bölməsinin komandiri Qolam Rza Süleymaninin öldürüldüyünü bəyan edib. İddia olunur ki, "Bəsic" bölməsi daxili etirazların yatırılmasında, o cümlədən kütləvi həbslərin həyata keçirilməsində və nümayişçilərə qarşı güc tətbiqində əsas rol oynayıb.

**"Al Jazeera":** İran dronları Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) bir hissəsi olan Fucayra Əmirliyindəki neft sənaye zonasına hücum edib. Məlumata görə, dron hücumu sənaye zonasında yanğına səbəb olub. Tələfat olmayıb. Xilasetmə xidmətləri qısa zamanda hadisə yerinə gəlib və yanğını lokallaşdırmağa çalışır.

**"The New York Times":** ABŞ Prezidenti martın sonu və ya aprelin əvvəlində Çinə planlaşdırılan səfərinin İrana qarşı hərbi əməliyyat səbəbindən təxirə salına biləcəyini bildirib. Onun sözlərinə görə, məsələ Çin tərəfi ilə müzakirə olunur. Tramp əlavə edib ki, Vaşinqton artıq səfərin təxminən bir ay təxirə salınmasını istəyib.

**"Bloomberg":** Finlandiya Prezidenti Aleksandr Stubb bildirib ki, ABŞ-ın Avropadakı müttəfiqləri İrana qarşı hərbi əməliyyat planlarından əvvəlcədən xəbərdar edilməyiblər, lakin indi Vaşinqton bu məsələ ilə bağlı Paris, London və Berlinlə əlaqə saxlayır. Onun sözlərinə görə, ABŞ-ın Şimali Atlantika Alyansı üzrə müttəfiqləri Trampın bəyanatlarını ciddi qəbul etməlidirlər. Üzv ölkələr Hörmüz boğazının açılması məsələsində Vaşinqtona dəstək verməsələr, Alyans ciddi problemlərlə üzləşə bilər.

**"Daily Mail":** ABŞ Prezidenti Donald Tramp söyləyib ki, Vaşinqton bir neçə xarici tərəfdaşla Hörmüz boğazında məhdudiyyətsiz gəmiçiliyin təminatı üçün koalisiya yaratmaq imkanlarını müzakirə edir. Onun sözlərinə görə, ABŞ başqa dövlətlərlə əməkdaşlıq imkanlarını nəzərdən keçirir, lakin bunu vacib hesab etmir.

**"Tasnim":** İranın xarici işlər naziri Abbas Əraqçi və BMT-nin Baş katibi Antonio Quterreş arasında telefon danışığı olub. Söhbət zamanı tərəflər ABŞ və İsrailin İrana qarşı hərbi əməliyyatları fonunda son regional hadisələri və Livandakı vəziyyəti müzakirə ediblər. BMT-nin Baş katibi Fars körfəzi bölgəsində və Qərbi Asiyada vəziyyət barədə, həmçinin gəmiçiliyin təhlükəsizliyi ilə bağlı öz fikirlərini açıqlayıb. Əraqçi vurğulayıb ki, Hörmüz boğazındakı duruma regionun ümumi vəziyyətindən baxmaq olmaz: "Çünki boğazda gəmiçiliyin pozulması ABŞ və İsrail tərəfindən aparılan müharibənin nəticəsidir".

**"TASS":** İranın Moskvadakı səfiri Kazım Cəlali yeni Ali lider Müctəba Xameneinin müalicə üçün Rusiyada olmasını təkzib edib. Daha əvvəl Xameneinin səhhəti ilə əlaqədar və təhlükəsizlik mülahizələrinə görə Rusiya hərbi təyyarəsi ilə gizli şəkildə Moskvaya çatdırıldığı barədə məlumat yayılmışdı.

**"Al-Arabiya":** Küveytdə radikal "Hizbullah" qruplaşması ilə əlaqəli 16 nəfər saxlanılıb. Qeyd edilib ki, saxlanılanlardan 14 nəfəri Küveyt, daha 2 nəfər isə Livan vətəndaşıdır. Onlardan silah, kameralı pilotsuz uçuş aparatları və Morze əlifbası ilə rabitə üçün qurğular müsadirə edilib. Qrup ölkədə sabitliyi pozmaq məqsədi güdüb və insanları terror təşkilatına qoşulmağa təşviq edib.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

# Göygöldə Novruz təntənəsi





**İlaxır çərşənbə və Novruz bayramı münasibətilə Göygöl Rayon İcra Hakimiyyəti Heydər Əliyev adına mədəniyyət və istirahət parkı ərazisində ümumrayon mərasimi təşkil edib.**

Rayon rəhbərliyinin, idarə, müəssisə kollektivlərinin, şəhid ailələri və qazilərin iştirak etdikləri şənlikdə çıxış edənlər Novruz bayramının xalqımızın qədim adət-ənənələrini yaşadan, milli dəyərləri qoruyan və insanları birləşdirən əziz bayram olduğunu vurğulayıblar. Qeyd olunub ki, bu bayram zəngin mədəni irsimizin həmişəyaşarlığını və tarixi köklərimizin dərinliyini əks etdirir. Ümummilli lider Heydər Əliyev milli irsə xüsusi önəm verərək bu bayramın dövlət səviyyəsində qeyd olunmasına böyük töhfə verib. Bu ənənə hazırda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən davam etdirilir.

Şənlikdə Azərbaycanın qəhrəmanlıq tarixindən də bəhs olunub, Vətən müharibəsi zamanı qazanılmış qələbənin xalqımız üçün əhəmiyyəti xüsusi qeyd edilib. Şəhid ailələrinə göstərilən diqqət və qayğının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğu vurğulanıb.

Tədbir təntənəli konsert proqramı ilə davam edib. Tanınmış musiqi ifaçılarından Lalə Məmmədova, Pərviz Abdullayev və Vüsal Hacıyev mərasimi şən mahnılarla təravətləndiriblər. Milli rəqslər, səhnəciklər və məktəblilərin təqdimatları tədbirə xüsusi rəng qatıb.

Novruzun ənənəvi personajları Kosa və Keçəl, həmçinin Bahar qızı və Ozan baba iştirakçıları əyləndirib, müxtəlif oyunlar və yumurta döyüşdürmə kimi adətlər nümayiş olunub. İdmançıların çıxışları da maraqla qarşılanıb.

Sonda şəhid övladlarının iştirakı ilə alovlandırılan bayram tonqalı iştirakçıların əhvali-ruhiyyəsinə Novruz hərarəti və paklığı gətirib.

***Hamlet QASIMOV,***
***XQ-nin Gəncəbasar müxbiri***

## "Azelektromaş" ASC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| Bölmələrin və maddələrin adları | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| **Uzunmüddətli aktivlər** | | | | |
| Qeyri-maddi aktivlər | [illegible] | | [illegible] | |
| Torpaq, tikili və avadanlıqlar | [illegible] | | [illegible] | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **63410.61** | | **73037.72** |
| Ehtiyatlar | [illegible] | | [illegible] | |
| Qısamüddətli debitor borcları | [illegible] | | [illegible] | |
| Pul vəsaitləri və onların ekvivalentləri | [illegible] | | [illegible] 1 | |
| Sair qısamüddətli aktivlər | [illegible] | | [illegible] | |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **2 229 948,88** | | **2023238.83** |
| **CƏMİ AKTİVLƏR** | | **2 293 359,49** | | **2 096276.55** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| Ödənilmiş nominal(nizamnamə) kapital | 4 0 | | 4 0 | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | [illegible] | | [illegible] | |
| **CƏMİ KAPİTAL** | | **1106380,77** | | **916807.63** |
| Uzunmüddətli kreditor borcları | [illegible] | | [illegible] | |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **83 547,00** | | **139 534,92** |
| Qısamüddətli kreditor borcları | [illegible] | | [illegible] | |
| Sair qısamüddətli öhdəliklər | [illegible] | | [illegible] | |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | | **1039934,00** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **1 10343172** | | **1179468,92** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **2293359,49** | | **2096276,55** |

### Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat (xərclərin xarakteri üzrə)

| Göstəricilərin adları | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | [illegible] | [illegible] |
| İstifadə edilmiş material ehtiyatları | [illegible] | [illegible] |
| İşçi heyəti üzrə xərclər | [illegible] | [illegible] |
| Amortizasiya xərcləri | [illegible] | [illegible] |
| Digər əməliyyat xərcləri | [illegible] | [illegible] |
| Sair əməliyyat xərcləri | [illegible] | [illegible] |
| Əməliyyat mənfəəti (zərəri) | [illegible] 1 | [illegible] |
| Mənfəət vergisi | [illegible] | [illegible] |
| Hesabat dövründə xalis mənfəət (zərər) | [illegible] | [illegible] |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | Uçot siyasəti və izahlı qeydlərin №-si | Ödənilmiş nizamnamə kapitalı | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq** | | **4 000.00** | | | **941 618.86** | **945 618.86** |

| | | | |
|---|---|---|---|
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | [illegible] | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | (210215.0) | |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | **4000.00** | **912807.63** | **916807.3** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | [illegible] | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | (7536.54) | |
| **Hesabat dövrünün sonuna qalıq** | **4000.00** | **1102380.7** | **1106377** |

### "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"na 4 nömrəli əlavə Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (dolayı metod)

| | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| Hesabat dövründə xalis mənfəət və ya zərər | **197 109.68** | **181 403.77** |
| amortizasiya xərcləri | **9415.24** | **16354.68** |
| Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri | **206524.92** | **197 758.45** |
| Ehtiyatların azalması (artması) | **16041.79** | **(93 155.54)** |
| əməliyyat debitor borclarının azalması (artması) | **(213795.27)** | **302036.93** |
| əməliyyat kreditor borclarının artması (azalması) | **63497.72** | **154597.85** |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | **(134255.76)** | **363 479.24** |
| bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği | **264473.11** | **305 906.66** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | **(9517.60)** | **(41 433.55)** |
| bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı | **254 955.51** | **264 473.11** |

*Oxucular soruşurlar*

# "Şəfaverici əllər"ə inanaqmı?

**Sosial şəbəkələrdə əl enerjisi ilə müalicə edən, özbək əsilli İqbol Soliyevin saxlanıldığı və Bakıdan deportasiya edildiyi bildirilir. Müzakirələrə səbəb olan bu müalicəyə münasibət isə fərqlidir. Bu məsələyə aydınlıq gətirmək üçün səhiyyə eksperti, tibb elmləri doktoru Musa Qəniyevin münasibətini öyrəndik. Öncə professordan elmi cəhətdən tarixən belə müalicənin mümkünlüyü və tətbiqi ilə bağlı fikirlərini soruşduq. Həmsöhbətimiz dedi:**



– Əslində, bütün tarixi dövrlərdə müalicəyə dözümlülük göstərən xəstəliklərin hamısı özünəqapanma və ümidsizlik hissi yaratdığından, insanlar daim qeyri-ənənəvi müalicə üsullarına müraciət etmişlər. Bunlardan biri də manual, yəni əl enerjisilə müalicədir. Bu haqda ilk məlumat bizim eradan 1560 il əvvəl Ebers papirusunda verilmişdir. İnduslar bunu "Prana", çinlilər – "Çi", misirlilər – "Ka", yəhudilər – "Ekoq", yunanlar – "Təbiətin müalicəvi gücü", əlkimyaçılar – "Həyat şirəsi" adlandırırdılar. Bu üsulun yayılmasının səbəbkarı Tokio Universitetinin müəllimi, xristian-monax Mikao Usyu olmuş və onu "Reyki" ("Universal həyat enerjisi") adlandırmışdır.

Bütün dövrlərdə bu cür müalicəyə münasibət elmi deyil, sırf dini-sxolastik xarakterli olmuşdur.

**– Bəs bu müalicəyə elmin münasibəti necədir?**

– Məsələnin elmi mahiyyəti ilə bağlı bunları söyləyə bilərəm: Cismani mövcudluğunun təməl əsası hərəkətdir. Hərəkət impulsiv sinir aktivliyinin – elektrik yükünün, orqan və sistemlərə ötürülməsidir. Dölün ana bətnində ürək döyüntüləri başladığı andan, yəni hamiləliyin 1-ci ayının sonundan, postnatal inkişafın sonuna, yəni təbii ölümün başladığı ana qədər canlı orqanizmdə həm lokal, həm də akson potensialının (elektrik yükü) olması mütləqdir.

Fərdin tipi, etnik, coğrafı, irqi və genetik xüsusiyyətindən asılı olaraq, bu elektrik yükünün voltaj, tezlik və amplitudası müxtəlif olur. Elektrik yükünün ətrafında isə, daim bu və ya digər dərəcədə elektrik və maqnit sahəsi mövcud olur. Sağlam insanların energetik sahəsi, yəni elektriklə əhatə olunmuş biosahəsi, onun bədənini bərabər şəkildə 2-3 metr məsafədə bürüyür.

Odur ki, "elektrik əmsalı" yüksək olan adamların bədəninə dəmir əşyalar yapışır, kiçik voltajlı elektrik lampalarını bədənə toxundurduqda işıq saçır, bəzi adamlara əllə toxunduqda adamı sanki tok vurur və s. Yəni elmli insan üçün, burada qaranlıq olan, qeyri-adi bir şey yoxdur. Bu klassik fizikadır. Sadəcə, savadsızlıq və dini fanatizm bunu dərk etməyə imkan vermir.

Söylədiyim səbəbdən, insan bədənindən, xüsusən ətraf amillərə son dərəcə həssas olan əl barmaqlarından, daim (ayaq barmaqları ilə müqayisədə 4 dəfə çox) enerji itkisi – ətraf mühitlə enerji mübadiləsi, gedir. Başqa sözlə, bədəndə olan elektrik enerjisi istilik enerjisi şəklində xarici aləmə verilir. Odur ki, əl enerjisilə müalicə, bir şəxsin digərinə istilik enerjisi şəklində bioyükün ötürülməsidir. Fiziki qanunlara görə bu halda, lokal sahədə qan dövranı yaxşılaşmalı, ağrı reseptorlarının həssaslığı azalmalı və yayındırıcı təsir meydana çıxmalıdır. Digər faktor, xəstədə yaranan daxili inam hissidir.

**– Bu müalicə üsulunu təqdir edirsinizmi?**

– Xeyr, etmirəm. Əsasında "Suqqestiya" – təlqin duran bu hal, spesifik müalicə üsulu deyildir və uğurlu nəticəyə təminat vermir. Digər tərəfdən, bilmək lazımdır ki, üzvi-destruktiv gedişli heç bir xəstəlik və patoloji proses zamanı bu üsuldan istifadə etmək olmaz. Əks hal, hər iki şəxs üçün (həm xəstə, həm də bu işlə məşğul olan) faciəli nəticələrə – birinin ölümü, digərinin qəsdən adam öldürməsi ittihamı ilə həbsinə, səbəb ola bilər.

Qeyri-peşə sahiblərinin isə, müalicə işi ilə məşğul olması (eyni zamanda, özünümüalicə) ümumiyyətlə cinayət məsuliyyətidir və bu haqda Azərbaycan Respublikasının Cinayət – Prosessual Məcəlləsində xüsusi ağırlaşdırıcı maddə nəzərdə tutulur.

*Söhbətin sonunda professor qeyd etdi ki, Azərbaycan polisinin İqbol Soliyevə qarşı qərarı düzgün addımdır.*

***Zərifə HÜSEYNOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 50 (31019) 18 mart 2026-cı il, çərşənbə

## İDMAN

### Gənclər və İdman Nazirliyinin kollegiya iclası

**Nazirlikdən verilən məlumata görə, nazir Fərid Qayıbovun sədrliyi ilə keçirilən iclasda gündəliyə əsasən bir sıra məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.**




İclasda Uşaq-Gənclər İdman Məktəbləri və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəblərində cüdo idman növü üzrə təlim-məşq prosesini tənzimləyən normativlərin təsdiqi ilə bağlı qərar qəbul edilib. Bundan əlavə, idman mütəxəssislərinə fəxri adların verilməsi məsələsinə baxılıb. Nazirliyin Kollegiya qərarı ilə Asxab Kalayevə və Rauf Nəbiyevə (hər ikisi ağırlıqqaldırma), İslam Nəcəfquliyevə (cüdo) "Ölkə dərəcəli hakim" dərəcəsi verilib. Qaşim Maqomedov (taekvondo), İmamməddin Xəlilov və Sabir Zeynalova (hər ikisi parataekvondo) "Azərbaycan Respublikasının Əməkdar idman ustası" fəxri adı verilib.

Mərasimdə 2026-cı il üçün "İdman səfirləri" və 2027-ci il üçün "İdman Paytaxtı" seçimi ilə əlaqədar namizədlərin təqdimatları dinlənilib, səsvermə keçirilib. Nazirliyin Kollegiya qərarı ilə Ülviyyə Fətəliyeva (şahmat), Vəfa Musayeva (alpinizm), Aynur Yusufova (gimnastika), Dadaş Dadaşbəyli (ağırlıqqaldırma) və Elçin Əsədov (velosiped idmanı) 2026-cı il üçün "İdman səfiri" seçiliblər. Yevlax şəhəri isə 2027-ci il üçün Azərbaycanın "İdman Paytaxtı" seçilib.

### Bakıda daha bir beynəlxalq turnir keçiriləcək

**Azərbaycan bu yay daha bir mötəbər idman yarışına ev sahibliyi edəcək.**




Avqustun 27-dən 29-dək Bakıda çimərlik güləşi üzrə 2 beynəlxalq turnir keçiriləcək. Avqustun 27-də paytaxtımızda U17 dünya çempionatı baş tutacaq. Növbəti 2 gündə isə böyüklər arasında Dünya Seriyasının IV mərhələsi təşkil ediləcək. Hər iki yarış ölkəmizdə ilk dəfə keçiriləcək.

Xatırladaq ki, Bakı iyulun 27-dən avqustun 2-dək sərbəst, qadın və yunan-Roma güləşi üzrə U17 dünya çempionatına da ev sahibliyi edəcək. Beləliklə, yay mövsümündə paytaxtımız dünya güləşinin mərkəzlərindən birinə çevriləcək.

### Basketbol məşqçiləri üçün seminar

**Azərbaycan Basketbol Federasiyası (ABF) tərəfindən təşkil olunan proqram çərçivəsində ilk gün məşqçilər üçün nəzəri və praktiki seminar keçirilib.**



Azərbaycan Basketbol Federasiyasından verilən məlumata görə, ikinci gün C kateqoriyası üzrə imtahan təşkil olunub.

İki günlük proqram iştirakçılar üçün həm biliklərini artırmaq, həm də peşəkar inkişaf istiqamətində növbəti addımı atmaq imkanı yaradıb.

Federasiya bundan sonra da basketbolun inkişafına yönəlmiş bu cür təşəbbüsləri davam etdirəcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Futbol tariximizdən*

# "Neftçi"nin 90-cı baharında...

## *Əbdülqəni Nurməmmədovun isə 47 il əvvəlki 90-cı dəqiqə qolu yada düşür*

**Bu gün, martın 18-də "Neftçi" Peşəkar Futbol Klubunun fəaliyyətə başlamasının 89-cu ili tamam olur. Klub üçün, onun köhnə və indiki bütün futbolçuları, pərəstişkarları üçün fərəhli bir gün yaşayırıq. Yaranmış imkandan istifadə edib, 1937-ci ildə həyata vəsiqə almış və artıq 90 yaşına, 90-cı baharına qədəm qoyacaq komandanın neçə-neçə oyununa şahidlik etmiş Tofiq Bəhramov adına Respublika Stadionunda izlədiyimiz və 90-cı dəqiqədə vurulan qolla yadda qalmış bir görüşü xatırlamaq yerinə düşər.**

...13 avqust 1979-cu il. Güclülər dəstəsində 42-ci SSRİ çempionatının ikinci dövrə görüşündə "Neftçi" Alma-Atanın (indi Astana) "Kayrat" komandasını qəbul edir. Moskvalı hakim Valeri Baskakovun idarə etdiyi oyunda hər iki tərəfin bütün səylərinə və qarşılıqlı kəskin hücumlarına baxmayaraq, hesab açılmır. Elə görünür ki, rəqiblər meydandan qolsuz heç-heçə ilə ayrılıb, hərəyə 1 xalla kifayətlənəcəklər.

Ancaq belə olmadı. Həmin gündən artıq 47 il ötsə də, 90-cı dəqiqədə "Neftçi"nin son həmləsində bakılılara qələbə qazandıran qol hələ də yaddaşlardan silinməyib. Meydanın qonaqlara aid hissəsində yüksəkdən ötürülən top Əbdülqəni Nurməmmədova (təqdim etdiyimiz fotoda orta cərgədə soldan üçüncü) tərəf gəldi, yarımmüdafiəçimiz də onu saxlamadan təxminən 30-35 metr məsafədən güclü və sərrast zərbə ilə "Kayrat"ın qapısının aşağı sağ küncünə yönəltdi. Almaatalı qapıçı Kuralbek Ordabayev bu dəfə komandasını qoldan xilas edə bilmədi.



Son dəqiqədə, son hücumda gərgin mübarizənin taleyini "Neftçi"nin xeyrinə həll edən unudulmaz qol idi. Onun müəllifi, eləcə də komanda yoldaşları Elxan Rəsulov, Şakir Qəribov, Rəşid Özbəyov, Əsgər Abdullayev, Asəf Namazov, Səmədağa Şıxlarov, Asif Əliyev və həmin axşam meydana çıxan digər futbolçularımız əsl əzmkarlıq göstərib, baş məşqçiləri Əhməd Ələsgərovla birlikdə qazanılmış 2 mühüm xala ürəkdən sevindilər.

Maraqlıdır ki, Azərbaycan və Qazaxıstan paytaxtları klublarının bundan iki ay əvvəl, iyunun 18-də Alma-Ata Mərkəzi stadionunda keçirilmiş birinci dövrə görüşündə də hesabı 24-cü dəqiqədə Nurməmmədov açmışdır. Lakin qalan vaxt ərzində "Kayrat" bu qola üç dəqiq zərbə ilə cavab verib, qələbə qazanmışdır (3:1).

Qızıl medalların Moskvanın "Spartak" komandasına (50 xal) təqdim olunduğu həmin 42-ci çempionatda 18 kollektiv iştirak etmişdir. "Neftçi" ilə "Kayrat" finişə eyni miqdarda – 24 xalla çataraq çempionatı turnir cədvəlinin qonşu pillələrində, 13-14-cü yerlərdə başa vurmuşlar. Komandamız topların fərqinə görə 14-cü olmuşdur.

Statistikaya nəzər yetirdikdə məlum olur ki, Ə.Nurməmmədov 1979-cu il çempionatında bütün 34 oyunda meydana çıxmış və 5 qol vurmuşdur. Ümumiyyətlə isə, o, 1977–1983-cü illərdə SSRİ çempionatlarının güclülər dəstəsində "Neftçi"nin heyətində 146 oyunun iştirakçısı və 13 qolun müəllifi olmuşdur.

Bu xoş bahar günündə arzu edək ki, bir çox ildir qələbələrə sevinməkdən çox, məğlubiyyətlərlə barışmağa məcbur olan indiki "Neftçi" də, nəhayət, vəziyyəti düzəldib, tezliklə Azərbaycan milli çempionatları və kubok yarışlarında, avrokuboklar meydanında qalib və mükafatçılar sırasında olacaq, köhnə "Neftçi" kimi gələcəkdə pərəstişkarları tərəfindən səmimiyyətlə xatırlanacaq.

*Mundial – 2027*

# Azərbaycan millisi Braziliyada oynayacaqmı?



**Şübhəsiz, bu il Azərbaycan idmançılarının beynəlxalq yarışlar təqvimində ən əhəmiyyətli turnirlərdən biri qadınlardan ibarət milli futbol komandamızın da iştirak etdiyi 2027-ci il dünya çempionatının seçmə mərhələ görüşləridir. Beynəlxalq Futbol Federasiyasının (FİFA) saytında göstərildiyi kimi, mundialın final mərhələsinin oyunları 2027-ci il iyunun 24-dən iyulun 25-dək Braziliyanın 8 şəhərinin stadionlarında keçiriləcəkdir.**

Əfsanəvi Pelenin vətənində Dünya çempionatının medalları uğrunda 32 komanda mübarizə aparacaq. Onlardan 11-i Avropa ölkələrinin təmsilçiləri olacaq. Qitəmizin komandaları seçmə mərhələ oyunlarına fevral ayından başlamışlar. Hər birinə 4 komandanın daxil olduğu qruplarda turnirlərə iyun ayında yekun vurulacaq.

Azərbaycan millisi C Liqasının 3-cü qrupunda çıxış edir. Artıq bildiyiniz kimi, komanda martın birinci ongünlüyündə iki oyun keçirmişdir. Siyasət Əsgərovun yetirmələri startda "doğma divarlar" arasında Şimali Makedoniya komandası üzərində 2:0 hesabı ilə inamlı qələbə qazanmış (hər iki qolun müəllifi kapitanımız Sevinc Cəfərzadə olmuşdur), sonra isə rəqib meydanında kiçik fərqlə Macarıstan futbolçularına uduzmuşlar – 0:1.

Qrupumuzda Azərbaycan, Macarıstan və Şimali Makedoniyanın daha bir rəqibi Andorradır. Hazırda turnir cədvəlinə 1-ci turda səfərdə bu komanda ilə heç-heçə oynamış Macarıstan kollektivi başçılıq edir. Liderin 4 xalı var. Cədvəlin ikinci-üçüncü pillələrində irəliləyən Azərbaycan və Şimali Makedoniya futbolçuları 3 xal toplamışlar. Onlarda vurulan və buraxılan topların fərqi də eynidir (+1). Lakin şəxsi görüşün nəticəsinə görə ikinci yerdə Azərbaycandır. Sonuncu pillədə olan Andorranın 1 xalı var. Komandamız növbəti görüşü aprelin 14-də səfərdə Andorraya qarşı keçirəcək.

Komandalar ikinci dövrə matçlarında da meydana çıxıb, bu turnir çərçivəsində bir daha üz-üzə gəldikdən sonra qrupun qalibi məlum olacaq. Yarış məsafəsinin ikinci yarısında bizim qızlar aprelin 18-də andorralı rəqiblərini qəbul edəcək, iyunun 5-də yenə meydan sahibi rolunda Macarıstan komandasını sınağa çəkəcək, bundan 4 gün sonra isə Şimali Makedoniyanın qonağı olacaqlar. Pley-off mərhələsinin 1-ci raund görüşləri oktyabrda, ikinci raund matçları isə noyabr-dekabr aylarında keçiriləcək.

Millimizin ilk iki turda nümayiş etdirdiyi kifayət qədər keyfiyyətli oyuna və göstərdiyi nəticəyə əsasən bu qənaətə gəlmək olar ki, komanda Braziliya mundialına vəsiqə uğrunda sona qədər mübarizə aparıb, məqsədinə çata bilər. Onun iki turdan sonra turnir cədvəlində ikinci mövqedə olması qarşıdakı oyunları nikbinliklə gözləməyə əsas verir. Bu mənada, bir aydan sonra növbəti, 3-cü turda Andorradan uğurlu nəticə ilə qayıtmaq mühüm əhəmiyyət kəsb edər.

Yuxarıda diqqətə çatdırdığımız kimi, ikinci dövrədə komanda üç oyundan ikisində öz azarkeşləri qarşısında çıxış edəcək və onların möhkəm dəstəyi ilə xal ehtiyatını pley-off mərhələsinin tələb etdiyi həddə çatdırıb, payız sınaqlarında yoluna davam etmək imkanı qazana bilər. Qeydlərimizi də elə bu istəklə yekunlaşdıraq.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## HAVA

# Bakıda çiskin, rayonlarda yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin səhər bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturunun gecə 5-8, gündüz 10-15 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 765 millimetr civə sütunu, nisbi rütubət isə gecə 80-85, gündüz 65-70 faiz təşkil edəcək.

Azərbaycan rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gündüz əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.



Havanın temperaturu gecə 5-10, gündüz 12-17 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

*✓ Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən "XƏTAİ ÇÖRƏK" ASC-yə verilmiş emissiya prospekti itdiyi üçün etibarsız sayılır. VÖEN-2000113531.*

*✓ Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin hərbi qulluqçusu Bəhlul Hacımurad oğlu İbrahimova məxsus SQ 0121626 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Tacəddin Verdiyevə bibisi **SƏXAVƏT ABDULLAYEVANIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2959
SİFARİŞ 376
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00